**AZƏRBAYCAN MILLI ELMLƏR AKADEMIYASI**
**NAXÇIVAN BÖLMƏSI**
**INCƏSƏNƏT, DIL VƏ ƏDƏBIYYAT INSTITUTU**

# *XALQ YADDAŞININ IZLƏRI*

Bakı- «Elm»- 2005

*Folklor materiallarının toplanmasında bizə köməklik edən bütün soydaşlarımıza təşəkkür edirik*

*Toplayan və nəşrə hazırlayan:* ***Məhsəti Ismayıl***

*Redaktor:* ***Rafiq Babayev***

*Rəyçilər:* *Akademik, filologiya elmləri doktoru,*
*prof.* ***Isa Həbibbəyli***
*Filologiya elmləri doktoru,*
*prof.* ***Məhərrəm Cəfərli***

*Xalq yaddaşının izləri.(Miflər, əfsanələr, nağıllar...) Folklor toplusu. Bakı, «Elm», 2005,141 s.*

*Bu topluda Şahbuz rayonundan toplanmış folklor nümunələrinin müəyyən hissəsi verilmişdir. Folklorun müxtəlif janrlarına aid bu nümunələrdə xalqımızın mifik dünyagörüşü, inamları, adət-ənənələri öz əksini tapmışdır. Xalqın yaddaşında yaşayan bu nümunələr dünyanın və xalqımızın mənşəyi, təbiət hadisələrinin, müxtəlif sosial-psixoloji proseslərin mahiyyətini aydınlaşdırmağa kömək edir.*

© *Məhsəti Ismayıl*

# ÖN SÖZ

Soydaşlarımızın yaddaşında qorunub saxlanan şifahi xalq ədəbiyyatı ulu əcdadlarımızın yadigarı, qədim tariximizin yaşıdıdır. Atalar sözlərini, deyimləri, bayatıları oxuduqca xalqımızın acılı-şirinli canlı tarixi gözlərimiz önündən gəlib keçir. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Incəsənət, Dil və Ədəbiyyat Institutunun Folklorşünaslıq şöbəsinin əməkdaşı Məhsəti Ismayılın folklor toplusunu hazırlamaqda məqsədi unudulmaqda olan xalq yaradıcılığı nümunələrini qoruyub saxlamaqdır. Topluda Azərbaycan folklorunun müxtəlif janrları və yer-yurd adları öz əksini tapmışdır. Gənc tədqiqatçının el-el, oba-oba gəzib topladığı bu materiallar Azərbaycanın ən ucqar guşələrindən biri olan Şahbuz rayonunun əhalisi arasında qorunub saxlanan şifahi xalq yaradıcılığı nümunələrinin yalnız müəyyən bir qismini əhatə edir. Toplunu vərəqlədikcə yurdumuzda məskən salan qədim tayfaların silahlarının cingiltisini, onların yağılara qarşı barışmaz hayqırtısını, mübarizə əzmini, yenilməz igidlər böyüdən, şəhidlər verən analarımızın səsini eşidir, ruhunu duyuruq. Min illər, yüz illər bundan əvvəl formalaşan miflər, əfsanələr, nağıllar, ağılar və bayatılar xalq zəkasının süzgəcindən keçərək bu günümüzlə səsləşən, xalqımızı mübarizəyə səsləyən poetik nümunələr kimi öz dəyərini qoruyub saxlamış, mənəviyyatımızın tükənməz mənbəyinə çevrilmişdir. Toplunun üstün cəhəti xalq dilinin saxlanmısı və toplanmış materialların olduqca az redaktə edilməsidir. Belə hesab edirik ki, toplunun bu şəkildə nəşri onun ilk mənbə kimi dəyərini daha da artırır. Çünki hədsiz redaktələr folklor materiallarının ilkin formasını, bəzən isə məzmununu da dəyişir ki, bu da xalqımızın qədim təfəkkür tərzi ilə bağlı olan müəyyən məqamlarını izləməyə imkan vermir. Müəyyən zaman və məkan daxilində baş verən hadisələrin hissi ifadəsi olan folklorumuz yalnız ədəbiyyatımızın öyrənilməsi üçün deyil, xalqımızın sosial-iqtisadi və siyasi həyatının müxtəlif sahələrini, mifologiyasını, dünya haqqında təsəvvürlərini araşdırmaq üçün də mühüm əhəmiyyətə malikdir. Elə folklor nümunələrimiz vardır ki, tariximizin heç bir arxeoloji və yazılı mənbədə əks olunmayan səhifələrini özündə maddiləşdirərək qoruyub saxlamışdır. Şahbuz rayonundan toplanan folklor materialları da belə dəyərli cəhətləri ilə fərqlənir. Azərbaycanın şimalı ilə cənubunu birləşdirən ən mühüm hərbi və ticarət yolu üzərində, strateji cəhətdən əlverişli mövqedə yerləşən Şahbuz rayonu Azərbaycanda baş verən sosial-siyasi hadisələrdə mühüm rol oynamışdır. Tarixin sərt dolaylarında Azərbaycanda baş verən siyasi

hadisələrə fəal müdaxilə edən, xalqımızın tarixinə şanlı səhifələr yazan ulu əcdadlarımızın məzarları Kolanı, Sarıdərə, Haqqıxlıq Batabat qəbristanlıqlarında, ruhu isə Şahbuzun əlyetməz, vüqarlı dağlarında uyumaqdadır. Babalarımızın və nənələrimizin yaddaşında dərin iz buraxan bu hadisələr xalq yaradıcılığında öz poetik ifadəsini tapmışdır. Hər kəlməsində min hikmət, hər sözündə bir tarix yaşayan folklor nümunələrinin toplanması və nəşri təqdirəlayiq bir işdir. Folklorşünaslıq şöbəsinin əməkdaşı Məhsəti Ismayılın bu nəcib işini alqışlayır və ona gələcək işlərində uğurlar arzulayırıq.

ISA HƏBIBBƏYLI
*Azərbaycan MEA-nın həqiqi üzvü*

VƏLI BAXŞƏLIYEV
*tarix elmləri namizədi*

# *Xalq yaddaşının izləri*

Tarixi keçmişimizi, mənəvi dəyərlərimizi özündə yaşadan şifahi xalq yaradıcılığı ədəbiyyatımızın həmişə tədqiqə ehtiyacı olan sahələrindən biridir. Mənəvi mədəniyyətin təməl daşlarından olan şifahi xalq ədəbiyyatı yarandığı dövrdən asılı olmayaraq, müəyyən zaman və məkan daxilində baş verən hadisələrin ifadəsidir. Keçmişi və bu günü əhatə edən xalq yaradıcılığı milli mənsubiyyətin əsas göstəricisi və qaynaqlarından biridir. Uzun kamillik yolu keçmiş şifahi xalq ədəbiyyatının mənəvi irsimizin öyrənilməsində rolu əvəzsizdir. Hər bir deyim, inam və mif tariximizdə yaşanan hadisənin maddi ifadəsidir. Folklor örnəklərini sistemli, ardıcıl şəkildə öyrənməklə xalqımızın tarixini, onun düşüncə tərzini mənəvi aləmini, bərpa etmək mümkündür. Toplamalar zamanı bir sıra müşahidələr söyləyicilərin danışdığı nağıllarda, yaxud əfsanə, ovsun və bayatılarda ifadə olunan fikir bütövlüyünün min illərlə davam edən sosial və etnik-mədəni proseslərin yadigarı olduğunu deməyə tam əsas verir. Ümumxalq yaradıcılığının məhsulu olan bu nümunələr dünyanın və etnosun yaranışı, təbiət hadisələrinin baş verməsi ilə bağlı təsəvvürləri əks etdirməklə ortaq türk düşüncəsinin əsasını təşkil edir. Folklor nümunələrinin yayılma arealının müəyyənləşdirilməsi folklor tarixinin tədqiqi üçün mühüm əhəmiyyət daşımaqdadır. Məlum olduğu kimi, mifoloji düşüncə tərzi, yüksək bəşəri ideyalar, mütərəqqi fikirlər bütün millətlərin, xalqların yazılı və şifahi ədəbiyyatında öz yerini almışdır. Amma tarixi yaddaşlarda yaşadan hissi obrazlar mükəmməl inkişaf yolu keçmiş etnoslar və xalqlar üçün xarakterikdir. Tarixin yüksələn xətlə inkişaf edən pilləsində milli düşüncə, dil, davranış və s. xüsusiyyətlərlə xarakterizə olunan dəyərlər formalaşmış, sistemli şəkildə folklor nümunələrində əks olunmuşdur. Bu dəyərlər isə öz növbəsində zamanın sınağıdan keçmiş, inkişaf etmişdir. Zahirən belə görünə bilər ki, folklor yalnız xalqın tarixinin bir dövründə yaranmış və ardıcıl olaraq təkrarlanmışdır. Yaxud elə düşünülə bilər ki, bu gün yeni nümunələr yaranmır. Amma əksinə, hər bir tarixi dövrdə, müəyyən zaman və məkan daxilində baş verən həyat tərzi, dünyagörüş, cəmiyyətdəki dəyişikliklər, informasiya bolluğu, texniki tərəqqi şifahi xalq yaradıcılığına təsir edən amillərdəndir. Nədənsə uzun illərdən bəri əcdadlarımızın qazandığı mənəvi irs yeni nəsillərdə özünü bir qədər zəif biruzə verir. Hətta başqalarına məxsus olan adət-ənənələri içərimizə gətirmək meyilləri də vardır. Ancaq bu yad ünsürlər heç vaxt öz

davamlılığını qoruyub saxlaya bilməmişdir. Məhz bu keyfiyyətləri əsas götürməklə deyə bilərik ki, uzun təkamül yolu keçmiş şifahi xalq yaradıcılığı ona yad olan təsirləri qəbul etməmişdir.

Söz və sözün sehiri, böyüklüyü qarşısında ehtiramını ifadə edən klassiklərimiz «söz»ə tərif demiş, qüdrətli sözü nəzmə çəkməklə bir daha onu «böyütmüşlər». Bu o sözlərdir ki, xalq min illərdir onun dualarının, alqışlarının, laylalarının, bayatılarının şirin həzinliyinə bürünüb. O «söz» ki, bizi əfsanə sehrinə, nağıl dünyasına aparıb, məclislərimizi rövnəqləndirib. Ulu Tanrı insan oğuluna da onu dərk etməyi, kamilliyə qovuşmağı sözlə çatdırıb. Demək sadə sözün mürəkkəb həqiqəti, yaxud mürəkkəb dərkedilməzliyin sadə formulu vardır. Belə ki, folklor ekspedisiyaları zamanı maraqlı və çox diqqət çəkən məqamlarla qarşılaşırıq. Bunlardan biri də analarımızın və ağbirçək nənələrimizin xalq yaddaşının unudulmaz izləri olan ağı, bayatı və laylaları eyni səs tonu və oxşar avazla ifa etməsindən ibarətdir. Nənnidə körpə üçün çalınan laylalar ətrafı, göz yaşlarını görməyə alışmadığımız kişiləri belə kövrəldə bilir. Amma körpə laylasının göz yaşlarıyla ifadəsi məsələsi bir xeyli düşündürücüdür. Əgər bayatılar ümumi dünyagörüşü, vətən sevgisini, saf, təmiz və ülvi məhəbbəti özündə əks etdirməklə insanda xoş ovqat yaradırsa, laylaların melodiyasında həm nikbinlik, həm də kədər notları vardır. Layla ananın balasına arzuları, duası və xoş niyyətilə, böyük bir sevgi ilə oxunur. Bu folklor nümunələrinə ümumi şəkildə nəzər saldıqda hər ikisində göz yaşı notları görünür. Sanki bu gün anaların göz yaşları bayatı biçimində şəhidlərin əbədi yatağı- qəbrlərin üstündə tökülür.

Mən aşığam nə qaldı,
Nə qovğadı, nə qaldı.
Düşmən öldürdü balamı,
Fələk, sənə nə qaldı?

Əzizim baxar gedər,
Bu yol Naxçıvana axar gedər.
Sağ yanımdan yaralı oldum,
Solumdan qan axar gedər.

Ana öz balasını qəhrəmantək görmək arzusundan doğan böyük təbii istəklə qəlbində vətən eşqi olan igid, fədai kimi böyütmək istəyir. Ana laylalarının həzin nəğmə kimi süzülən şirin səsi cəsur vətən

oğullarını və qızlarını öz qoynuna alıb füsünkar bir xəyal dünyasına aparır. Ana laylası yalnız yaşamaqda olan övladlarvmızın deyil, əbədi uyuyan şəhid oğullarımızın və qızlarımızın da ruhunu oxşayır. Uzun illərin acısı, yurdsuzluq məşəqqəti, torpağın düşmən caynağında qalması, düşmənə göz dağı, sipər, vətənə çəpər olan oğul böyüdən anaların, ataların söz boğçasında belə nizamlanmışdır:

Mən aşığam, el getdi,
Gəlmiş idi, el getdi.
Tərlanım uçdu əldən
Sındı belim, el getdi.

Laylay beşiyim laylay,
Evim-eşiyim, laylay.
Allah səni saxlasın,
Çəkim keşiyin, laylay.

Həm xoş, həm də qəmgin ovqatın kövrəkliyində bütövləşən bayatı və laylalar əsrlərin yaddaşını dindirir, mənəviyyatı tərbiyyə edir. Əslində sevinc və kədərin–təzadların bir arada mövcudluğu dərin bir məna ifadə edir. Sevinc və kədərin göz yaşlarında ifadəsi zəiflik, çarəsizlik, mütilik deyil, əks başlanğıcların mübarizəsini ifadə edən hissi obrazların maddiləşmiş formasıdır. Əksliklərin vəhdəti və mübarizəsi şəklində özünü göstərən bu dualizm mübarizə coşğusu yaradaraq böyüməkdə olan nəsli düşmən üzərində sabahkı intiqama səsləyir. Bəlli olur ki, bu millət ağladığı kimi gülməyi, itirdiyi kimi qazanmağı da bacarır. Onun döyüş əzmi ruhunda gizlidir. Bunun ən bariz nümunəsi bu gün yaranmaqda olan xalq yaradıcılığı nümunələridir. Göründüyü kimi xalq yaddaşının izləri formasında təzahür edən folklorumuzun ana xətti milli ruhun özünüifadəsidir. Bu xətt pirlərlə bağlı inamlarda da özünü biruzə vermişdir. Pir dedikdə nədənsə ilk növbədə islamla bağlılıq göz önünə gəlsə də, əslində isə adət-ənələrdə pirlə əlaqədar islamla səsləşməyən xüsusiyyətlərin olduğu da aydın görünür. Pirlərdə hər hansısa övliyaların yatdığı da güman edilə bilər. Amma pirlərin quruluşu, sahib olduğu xüsusiyyətlər bu fikirləri alt-üst edir. Əvvəla, pirlər çox vaxt mövcud yaşayış yerlərindən uzaqda olur. Pir ağacla, bulaqla, yaxud daşla da bağlı ola bilir. Qarababa kəndindəki Qızdırma bulağı pir adlanır. Adamlar bulağın suyunun şəfaverici keyfiyyətə malik olduğuna inanırlar. Bu pirlərə Bacılar deyilsə də (xırda bacı, böyük bacı)

onlara sahib olduğu yerin xüsusiyyətinə görə (Yemişan dərənin piri, Yel piri) ad verilmişdir.

Xalq özünəxas yaşayış tərzini oyunlarla da göstərir. Xalq oyunlarının psixoloji xüsusiyyətləri onların məzmunundan daha çox ifa tərzində özünü daha aydın nümayiş etdirir. Məsələn: «Bostan-bostan», «Çördüçöp yaxud çöpüdü» oyunlarında qalib tərəf məğlub tərəfi çubuqla, bellə döyür. Əlbəttə, burada döymək məcazi məna daşıyır. Oyunda məqsəd toya tamaşa edənləri güldürmək, toya şən əhval-ruhiyyə qatmaqdan ibarətdir. Şahidlər qeyd edirlər ki, oyuna cəlb edilən balaca it küçüyü, pişik, hətta müəyyən əşyalar da mərasimi maraqlı edirmiş. Oyunda bəzən köməkçi adam kənardan əşyanın qarşılığını tapıb gətirə bilir və dəstəni döyülməkdən qurtarır. Belə oyunlar toya canlılıq gətirməklə uzun müddət hafizələrdən silinməyən xatirələr yaradır. Bu oyunların bir çoxu indi yalnız yaddaşlarda qalmışdır.

Topladığımız folklor nümunələrinin bir hissəsini bu kitabda oxuculara təqdim edirik. Əlbəttə, buraya variantı olan nümunələr də daxildir. Çünki variant müxtəlifliyi folklorun inkişafı, yaxud yayılma arealının çox gözəl bir mənzərəsini təqdim edir. Təqdim olunan nümunələr Şahbuz rayonunun kəndlərinin bir qismini əhatə edir və insanlarının düşüncəsini, dünyabaxışını, həyat tərzininin müxtəlif cəhətlərini özündə əks etdirir. Folklor nümunələrinin tərtibi zamanı, tədqiqatçılara kömək məqsədilə, orijinallıq saxlanılmışdır. Verdiyimiz nümunələrin dil özəlliklərini saxlamağı vacib saydığımızdan çox cüzi redaktələr aparılmış, bir çox nümunələrdə isə heç bir düzəlişə yol verilməmişdir. Təqdim etdiyimiz kitab mütəxəssislər, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Toplanan materiallarda bir çox adların təkrar olduğunu nəzərə alaraq onların hamısını sadalamağı vacib bilməmişik. Məsələn; kəfşən adlarını bildirən ifadələr dağ, təpə, bulaq adlandırmaları ilə eynilik təşkil edirdi. Əksər vaxt antoponimlərlə ifadə olunan adların kimliyi unudulsa da, onların araşdırılması milli soykökümüzü bərpa etməyə imkan verir. Tuqunölən, Canat, Xornu, Səkov, Künkün yalı, Şamama təndiri, Ərəci, Yellicə kimi kəfşən adları, yaxud Sofulu, Əşkablı və s. tayfa adları buna misal ola bilər. Apardığımız araşdırmalar sadalanan kəfşən adlarının bir çoxunun qədim türk etnoslarına məxsus olduğunu aşkarlamışdır. Yer-yurd və tayfa adlarının eyniliyi bölgənin qalıcı etnosuna xas olan cəhətlərdən biridir. Bu gün də qorunub saxlanan əbədi yaşar adət-ənənələr oğuz tayfalarının möhürü olmaqla yanaşı həm də xalqımızı sabaha daşıyan yol yoldaşı, onun milli-mənəvi kimliyidir. Ümid edirik ki, müxtəlif janrlar üzrə ilk

dəfə toplayıb təqdim etdiyimiz folklor nümunələri şifahi xalq ədəbiyyatımızın yeni əlavələrlə daha da zənginləşdirilməsinə, folklorşünaslıq elmimizin inkişaf etdirilməsinə imkan yarada biləcəkdir.

*Məhsəti Ismayıl*

# MIFLƏR

**(1)**

Deyirlər bir dənə ilan 300 il yaşıyır. 300 ildən sora bı dönür bir şahzadə olur. Qız şəklində olur. Çox da həddən artıq gözəl olur. Bını istəmiyən gənc adam olmur. Hamı bını istiyir. O qədər gözəlliyi olur bı hansı bir cavannan evlənir bının evinə ayilə gedirsə o cavanı vırır, ilandı axı. Bir vaxt bir cavannan evlənir. Gözəl gəlini cavan alır gedir evinə. Oğlan görür ki, bı axşamlar çəkilir gedir evdən. Görür donun dəyişdi oldu ilan. Evin açıq yerindən kənarraşdı getdi. Həmən gənc adam durur geyinir bını izdiyir. Görür bıdı gəldi ilan şəklində gəldi donun dəyişdi yatdı. Bı heç nəyi biruzə vermir. Bir müddət belə bı çox qorxuya düşür ki, mənim ayiləm demək ilanımış. Mən şahzadə qız hesabına almışam. Bı çox fikirrəşir bını məhv eliyim, ilandı, bir gün bizi öldürəcək. Balıq alır gətirir. Deyir ki, xanım balığı bişir yeyək. Gündüzdən də bütün qablarda nə qədər su- sel var hamısını evdən götürür kənarraşdırır. Axşam olur yatıllar. Gəlin durur suya. Hər yana baxır. Su tappır işməyə. Çox həyəcannanır ki, bı necə ola bilər. Yoldaşı baxır ki, bı yenə ilan donunda çıxdı getdi. Ordan arxayın olur ki, həqiqətən də bı, ilannan dönmə şahzadədi. Bı gənc bını məhv eliyir.

**(2)**

Bir gənc şahzadə qız alır. Başa düşür ki, ilannan dönmə gəlindi. Durur gedir, gəzir gəlir bının yanına gələndə soyuq, buz kimi. Ilan soyuq olur axı, bını hiss eliyir ki, bı ilandı. Bı gedir der yox bınnan yaşamaq olmaz, bı ilandı.
Gedir saqqız odunu yığır gətirir. Gəlir deyir ki, sən birəz xəmir elə çörək yəy. Bı gəlin xəmir eliyir yapsın təndirə, o məqamda ki, əyilir yapsın, aşırır salır təndirə. Təndirin ağzın qavzıyır, öldürür, rədd eliyir gedir. Mərcannar da onun sümüyünnən əmələ gəlir.

**(3)**

Bir oğlan olur. Ov vurmağa gəzirmiş. Gedir tor qurur. Bınnan əzələ bəzəhli cında, irəhli sap tikirdilər, bəziyirdilər. Iki ağacın arasında onu qurur, gəlir bir gözəl quş düşür. Bı oğlan gəlir, süpürtdüyür, tutur. Quş dilə gəlir ki, məni niyə tutdun? Mən qızam.

Der:

- Elə ma lazım sənsən. Alışıllar, verişillər. Götürür gəlir əvə. Bir müddət qalır. Bir anaydı, bir bala. Gəldi bınnan iki dənə də oğlu oldu. Oğlunun birinin adını qoydular Həbib, birinin adın qoydular Qərib. Bı uşaqlar yekəldi. Qərinə dolandı. Arvad gəldi ölüm halına. Arvad öldü. Bı gəlin sıçradı çıxdı aquşkuya. Əri çox incidi da mənim anam ölür, ağlamaqdan çıxdı aquşkuya. Qəyitdilər götdülər bı arvadı, apardılar yumağa. Yudular apardılar. Aparanda qah-qah çəkdi güldü. Əri gəldi gördü bel əlində əvi qazır. Qapıdan girdi dedi:

- Nə işdərdən çıxırsan? O mənim anamdı. Sən bir güldün, bir çıxdın aquşkuya, bir də indi əvi qazırsan?

Dedi:

- Ananın başın kəsdilər qanı sıçradı bıra, ona da gülürdüm ki, anan bı dünyada heç nəyə xeyir eləməmişdi. Bir saz kərmə-yanacaq vermişdi qonşuya bir də köhnə tuman. Tuman asılıb çinazanın qabağına, o kərmə də dalınca sürünə-sürünə, hoppula-hoppula gedir. Ona güldüm. Aquşkuya da çıxdım ona görə ki, üstümə qan atılmasın. Mən demişdim söz soruşma. Mən gedirəm.

Darağı götdü sancdı başına dedi:

- Həbib, Qərib, bubpu- dedi uçdu.

Indi dağda, daşda bir quş var, gəlir həməşə yay olanda oxuyur:

- Həbib, Qərib, Bubpu.

**(4)**

Biri gedir ava. Tüfəngi qaldırır kəkliyi vırsın. Atmaq istəyəndə kəklik olur qız. Bı tüfəngi qoyur yerə, bir də çəvirir görür oldu qız-nəysə yaxınnaşır, demək bı cinnərdənimiş. Onnan evlənir.

**(5)**

Qaynatam nağıl eliyir ki, Çimən yurda obıya getdim. Bı tərəfdən atınan çıxanda gördüm ki, camaat dolubdu alaçığın qabağına. Getdim ki, bir ilanı nə qədər eliyillər alaçıxdan ayıra bilmirlər. Getdim

ora yaxına, qayıtdım bir az duz götürdüm, bir də çörəh. Düşdüm ilanın dalına. Ilan getdikcə mən də getdim. Aralıda dayandı. Bı duz- çörəyi qoydum qabağına, and verdim:

-Sən olasan bı duz-çörəh, bir də bı obıya yaxın gəlmə.

Duz-çörəyə and verdiyimə bir də gəlmədi ora.

**(6)**

Adamın qabağına həyətdə, kəfşəndə ilan çıxır, amma bilmirsən bı ilandı, ya məleykə. Məleykə ilan donuna da düşür, onu öldürəndə adama zəfər toxuyur. Mirheydər ağanın ocağında varıymış. Çörəh yeyəndə gəlib oturururmuşlar Mirheydər ağa əbasını çəkib yerə döyər çəkilin, çəkilin deərmiş, çəkilib gedərmişlər.

**(7)**

Aşağı Qışlaqda qədim vaxtı hamı gedirdi yaydan-yaya obıya. Kət qalırdı yəsiz. Bılların evində bir adam qalır, bir gəlin qalır. Bı görür kəndin içində bir şey nə təhər qaçır, ənə-bənə gurultusu dünyanı götürür. Bı gəlir qapının dalını bərkidir, girir içəri, görür hər nəydisə qapını təkannıyır. Bı kişi qalır məəttəl. Mən nə təhər eliyim. Girib içəridə məni yəcəy. Səhərə kimi damın üstə qaçır ənə-bənə. Gəlir bir yerdən başlıyır damı sökməyə. Eşir-eşir səhərə yaxın qıvrılıb yatır onun üstündə. Kişi bını vırır. Səhər camaat gəlir görür ki, bir adamcıldı.

**(8)**

Bir gün hay düşür ki, adamcıl dünyaları dağıdır. Bir kişi yatmışımış. Görür ki, ədə bir şeydi gəlir. Başı kəkilli amma nə təhər olursa bı kişi yorqanı atır minir bının belinə.

-Ay havar, gəlin, adamcılı tutmuşam- deyir.

Camaat tökülür bını tutur. Bağlıyıllar tut ağacına. Səhər baxıllar ki, bir nərdi, gəl görəsən.

**(9)**

Mənim qoca nənəm olur. Şaban addı arvad. Der:

-Gəldim qonşugilə gedirdim, evimiz onda bir-birinə yaxınıdı. Onda palçıx damlarıdı. Hamısı bir-birinə yapışıx, xırda. Gördüm kalafada bir qadın oturub. Dedim:

-Gülü, Gülü, az, bırda niyə oturmusan- dəndə, yerdən qalxdı mənim ortamnan qucaxladı. Məni nə təhər sıxdısa mən bir yol çığırdım:

-Ay havar, məni apardı.

Camaat töküldü. Der:

-Mən o vaxt ayıldım ki, məni koldan çıxardıllar. Camaat tüfəng atdığına məni basıb kola. Sora bildim ki, adamcılımış.

**(10)**

O vaxtı imamətdih vaxtıydı. Bir kişi oğurrux eləmişdi. Bı kişini nə qədər elədi arvadı ki, oğurrux eləmə, oğurruğu qaytar. Kişi boynuna almadı. Getdi məscidə imamın da sözünə baxmadı. Gənə oğurruğu demədi. Arvad qeyrətdiydi. Imam dedi ki, arvad qeyrətdidi. Arvadı elədi kişi, kişini elədi arvad. Bınnarın iki uşağı oldu. Bir oğlan, bir qız. Sora kişi arvad işi görəmmədi, getdi məscidə toba elədi, günahın boynuna aldı. Bını təzədən qaytardı kişi elədi, arvadı da arvad elədi. Bınnarın uşağı qaldı. Imamətdih vaxtıydı. Dedilər bınnarın cinsi qarışmasın. Qayıtdı oğlanı elədi erkək dovşan, qızı dişi dovşan, ötürdü çölə. Bınnan da imam sözündən çıxan həylə zərəl çəkər.

**(11)**

Ayı insannan dönmədi. Özü də ayı dəyirmançıymış. Deyirlər ayı dəyirmançı olanda, halal-haramı qatıb bir-birinə. O vaxtı kimimişsə yerdə rəsul olub. O, ayının bu xoşagəlməz hərəkətinə bəddua eliyib. Ayı dəyirmannan qaçıb, çöllərdə gəzib dolanıb. Ruzi olmuyanda ayı dabannarın yalıyıb qışı yaz eliyib. Ayı çox vaxt insan kimi hərəkət eliyir. Həməşə də meşələrdə məskən salıb.

**(12)**

Ramazan adında bir dəyirmançı camaatın buğdasın, arpasın oğurryub çox zərər verdiyinə görə camaat qarğış elədi, aralarında mömin adam oldu. Həmən Ramazan döndü oldu ayı.

**(13)**

Bir padşahın oğlu gedir bir elçi daşının üstə oturur. Der ki, bəxtim bəxtim. Der:

-Can bəxtim.

Der:

-Yatıbsan, ya oyaqsan?

Der:

-Yatmamışam, oyağam.

Nəysə bir-iki addım durur gedir bir gözəl qızdı. Götürür gəlir evə. Nəysə az dolanıllar, çox dolanıllar bı oğlan varlanır. Var-dövlət başdan aşıb gedir. Bir gün der ki, başım ağrıyır, başımı yaylığınan çək. Başını yaylığınan çəkəndə başını qoyur dizinin üstə sığallıyır. Sığallıyında bı gözünün altınca baxır, der görüm bı gecələr hara gedir? Bı sirdən agah olum. Nəysə gözünün altınca bını güdür. Görür ki, gedir qapının dalında cildini dəyişir, meymun cildini geyir gedir çöllü-biyabanı, meşəni-zadı gəzir gəlir. Gələndə oğlan özünü yuxuçulluğa vurur. Tez cildini soyunur, gizlədir amma görür ki, bı elə soyuxdu, elə soyuxdu əli-ayağı qannıdı. Nəysə der:

-Hardan gəlirsən?

Der:

-Heç hardan, çıxmışdım çölə gəlirəm.

Sora der bını mən güdməliyəm. Bı sirdən agah olmalıyam. Görüm bı meymun hara gedir. Bı çıxır bının dalısınca qarabaqara gedir çöldə əlinə bir dənə heyvan keçir, yeyir. Əli-ayağı qannı gəlir evə. Yenə cildini dəyişir, olur gözəl bir qız, nəysə yoldaşı özünü yuxuçulluğa vurur. Bı gəlir yerinin içinə uzananda der:

-O tərəfə çəkil üşüyürəm.

Der:

-Sən hardan gəlirsən? Bı sirdən məni agah elə.

Der:

-Neçə ildi mən sənnən ayilə qurmuşam, yaşamışam. Amma evladımız yoxdu. Səni bir belə varrandırmışam. Mən meymunnar padşahının qızıyam. Bı sirdən agah olmalısan. Allah-tala məni sa sevgili göndərib.

**(14)**

ARI DAŞ

Bir arvadın uşağın it qapır. Bı da qurban olduxlarımnanımış arvad. Bı durur gəlir qonşuya der ki, (bının da arısı çoxumuş. Bınnan əzələ arılar səbətdə olurmuş) ma bir az bal ver qoyum uşağın yarasına it qapıb. Bı da deyib yoxdu. Üzün tutub əvə gələndə deyib:

-Səni görüm elə o arıların daş olsun.

Həmən pətəhli derih ha, bax belə yekə səbətdər daş olub. Arı qonub daşın üstünə daş olub. Ona pətəhli derih. Peşman qayıdıb deyib:

-Vay sınasan boynum, mən ona elə bir qaşıx bal verəydim.

**(15)**

Bınnan əzələ derdilər aynan ulduz səvgilidi. Ay deyib:

-Mən gözələm.

Gün deyib:

-Mən gözələm.

Guya gün şillə vırıb aya ki, mən gözələm, o ləkə onnan düşüb.

**(16)**

Kalba Xudunun bacısı getmişdi Kükündə Əlmərdan bəyə. Bı gedir Küküyə bacısı der ki, get bir kəhlih vır Dərə boğazınnan. Bı da gedir kəhlih vırır gətirir. Əlmərdan bəy der:

-Gərəh gedəsən bir də ayı vırasan.

Babası Qara ağanın tüfəngin Əlmərdan bəy götürür, verir mənim babam Kalba Xuduya. Bı da gedir səhər Dərə boğazınnan bir ayı vırır. Xanımlar, bəylər-hamısı tökülür gəlir, bı ayıya baxıllar. Həmən Qara ağanın tüfəngi babamdaydı. Avçılıq eliyirdi. Bir gün getmişdi kəhlih vırmağa görmüşdü ki, kəhlih yığılıb bir gəlin də qucağında uşaq, tüfəngi salanda kəhlih olur. Bir də qaldıranda gəlini görür. Elə onnan da toba elədi bir yolluq.

**(17)**

O vaxt yaşdı kişilər, yaşdı qadınnar söhbət eliyərdilər ki, imamlarınan yeziddərin davısında gözəl kəhlih gedib imamların qanına

əyağın basıb, bir də dimdiyin, çıxıb daşın üstə oxuyub, o işaraynan yeziddər gedib imamları tapıb orda öldürüblər. Ona gora da gözəl kəhliyi vırmax suvabdı. Göyərçini vırmax günahdı. Göyərçin göy geyinib ağlıyırmış. Məzlum səs çıxardırmış ki, imamları öldürüblər.

**(18)**

Bir cütcü cüt sürürmüş. Susuzduyur, bardağı götürür gedir elə bil ki, çeşmədən su götürəndə bir qara axrəp yapışır bardağa bı götürür gəlir. Gəlir nə xəttər eliyir, gör düşmədi, öküzdəri açır ötürür, gör axrəp açıldı düşdü bardaxdan yolnan gedir. Qoca öküzdəri açır ötürür düşür bı axrəbin dalına çox gedillər yolnan, az gedillər çıxır bı axrəp meşənin kənarında bir çinar ağacı var, çinar ağacının dibində bir gözəl oğlan yatıbdı. Amma bir xallı ilan qalxıbdı ki, oğlanı vıra öldürə. Nəysə bı qara axrəp gedir ilanın boynunun dalınnan sancır. Ilan qupquru quruyur orda. Bı qoca çığırır ki, ey oğlan, qalx ayağa. Qalxır der:

-Sağ tərafa bax gör.

Baxır görür ki, bir ilan qıvrılıb qupquru quruyub. Qara axrəp də durubdu yanında. Der:

-Indiyə kimi nə xərttə nə əlınan vermişdin ki, bı ilanın əlinnən səni bı axrəp qutardı.

Bı cavan oğlan der ki, mən indiyə kimi iki dəfə əliminən işlədiyim nə var verib dilənçiyə gəlmişəm. Genə səhəri gedib işliyib nə almışdımsa verib dilənçiyə gəlmişəm. Iki gün ayiləmiz ac qalıb. Əliminən verdiyim odu. Der:

-Elə əlınən verdiyin avsanata düşübdü ki, o ilanın əlinnən səni axrəp qutarıb.

**(19)**

Peyğumbər vaxtıymış. Qarışqalar toğlu yekəlihdəymiş, gəzirmiş. Ağ dev bılları yalıyıb yeyirmiş. Bunlar gedir peyğumbərin şikayətinə, deyir ki, bax bizim nəslimiz kəsilir, devlər bizi yedi, qurtardıq, ta onlara tapşır bizə dəyməsin. Gedir tapşırır ki, bı heyvannara dəyməyin. Siz niyə onnarı yeyirsız. Bunlar heş saymıllar, elə yeyib qutarırlar. Şikayət eliyib gəlillər ki, onu həbsə salacıyıq, bizə dəyməsin. Görür elə bınnarı artdadı qutardı.

Qarışqalar gəlir eşir 40 arşın quyu qazır, torpağı çıxardır qırağa, qəyidir onun ağzına belə ot, ələf, çəpər qoyur. Ağ dev bırdan gələndə onnar o tərəfdə durur. Ordan gəlir təpilir ki, onnarı yesin o çəpər yatır

düşür 40 arşın quyuya, qalır orda. Ağ devin oğlu axtarır, bizim dədəmiz yoxdu. Gedillər şikayət eliyillər ki, bizim dədəmiz yoxdu. Peyğumbər deyir:

-Ay, ay, qarışqalar ma şikayət eləmişdi. Onu həbsə salıblar. Qarışqalara tapşırır ki, onu həbsdən çıxardın. Qarışqalar deyir ki, çıxardaq, ta and içsin ki, bizə dəyməyəcək. Torpağı eşdikləri kimi töküllər deyillər sən əyaxla, töküllər o quyu doluncan, ağ dev əyaxlıyır ordan çıxır. And içir ki, biz ta bıllara dəymiyəciyik.

**(20)**

Rəvayətə görə, qurd təpilir çobanın sevimli bir qoyununu tutur. Çoban bınan əl çəkmir. Bir neçə dəfə tutur əlinnən alır. Bı çoban bına der ki, çıx get da nə istiyirsən? Qurd dilə gəlir. Qurd dilə gələnnən sora der ki, mənim qismətimdi aparacıyam.

Peyqumbər vaxtıymış. Peyqumbər gəlirmiş, bıllara da agah olur ki, peyqumbər gəlib. Bılların sözün gedib peyqumbərə deyillər. Peyqumbər gəlir sürünün qırağında durur. Der ki, çoban dursun kənarda. Ay Allahın heyvanı, əyər sənin qismətin olsa bı qoyunu qoacıyam qoyunun ortasına, sağdan ürküt, qoyun qalsa sənindi. Onnan sora sol tərəfdən ürküdəssən. Dörd tərəfdən ürküdəssən. Dörd dəfədə o qoyun sənin qismətin olsa, sənin urcahında qalacaq. Dörd dəfə ürküdür qoyunu, dörd dəfədə hər dəfə də qoyun ürkür, bı qoyun ürkmür, qalır qurdun qabağında. Bı dəfə ta çoban əl çəkir. Peyqumbər də deyir ki, qoyun onun qismətidi, ver yesin. Sürüdən o qoyunu aparıb yeyir.

**(21)**

Süleyman peyğəmbər yolunan gedirmiş. Gedir görür ki, bir bılağın başında bir cavan qız oturub. Süleyman peyğəmbər elə bı qıza vırılır. Barmağınnan üzüyü çıxardıb verir bı qıza. Der ki, gedirəm 3 aydan sora gələciyəm. Sora Süleyman peyğəmbər gəlir ki, bı bılağın başında bir qoca qarı oturub. Der ki, qarı, bırda bir cavan qız oturmuşdu o necoldu?

Der:

-Elə cavan qız mənəm.

Der:

-Axı qoca vaxtında yalan danışırsan.

Der:

-Sən verdiyin üzüh bıdıra barmağımda. Çıxardır üzüyü. Süleyman peyğəmbərin adı üstündəydi.

Der:

-Bı nə sirdi?

Der:

-Mən qız dəyiləm. Mən dünyayam. Yaz olanda cavan qız oluram. Payız olanda belə qoca qarı oluram. Üç ay bınnan qabax məni gördün. Mən cavan qızıdım. Indi ancax məni gördün, mən qocalmışam, başım ağarıbdı.

**(22)**

Çovğunnu bir qış günü olur. Nökər çıxır bayıra. Görür bərk tufandı, qarrı çovğunnu bir tufandı. Qayıdır içəri, deyir:

-Ağa, bayıra çıxmax mümkün dəyil. Çox bərk tufandı.

Deyir:

-Get denən nə qədər əsir-əssin, mənə neyniyəcəhdi. Nökər çıxır bayıra, qayıdır der:

-Ağa dedim. Deyir:

-Mənim ağaynan nə işim, mənim işim nökər-nayıbınandı.

HAL ANASI-AL ARVAD

**(23)**

Mənim babam gedir ur kəkliyi ovuna. Üz qoyur meşiyə. Bir-iki yastan, bir-iki düzənlik keçir. Meşənin qalın yerini keçir, bir çaya çatır. O çayda iki ur kəhliyi vırır, başını kəsir, qoyur həybəsinə. Atın sürür gedir. Ayrı bir çayın qırağına çatanda görür çayın qırağında iki uşax yatıb. Atın üstündən baxır görür ki, bı uşaqlar bəşər uşaqları dəyil. Sarı pərdiyə bükülüdü. Atdan düşür uşaqları götürür, alır qucağına, minir ata. Görür ki, bı cinni balasıdı. Atın başın qəytərir. Götürür bı dərələri aşır, baxır görür ki, daldan bir arvad çağırır:

-Ay mallalı Hüsen heyy, ay mallalı Hüsen, dayan, mənim balalarımı hara aparırsan?

Baxır görür ki, saşdarı uzun kollara ilişib, saçı qarışıb bir-birinə pərişan, döşdəri yerə dəyir. Bı gəlir çatır. Babam atın başın çəkib saxlıyır. Gəlir deyir:

-Ay mallalı Hüsen, mənim balalarımı hara aparırsan? Səni and verirəm hamımızı yaradan Allaha, balalarımı ver.

Deyir:

-VerməNəm, aparıram camaata, görsünnər ki, həqiqətən belə şey var.

Ona görə də bı deyir nə deyirsən sa çarəsin deyim, 190 dərdin dərmanın? Kişi qələm-kağız çıxardır. Bı qızdırmanın, göz ağrısının və sair dərmanın deyir. Deyənnən sora bı balaları verir anasına. Verəndə deyir:

-Ay molla Hüsen, bir dərdin dərmanın mənnən soruşmadın.

Der:

-Nədi? Nədi?

Kişi qəmçini vırır atı muşqurruyur, qavalayır bı arvadı tutammır. Balaları qucağında qaçır. Çayın qırağında gedir üzdəşir bınnar. Bı hal anası der ki, məni yordun, öldürdün get. Allah qoysa məni görərsən.

Babam vəfat eliyir. Nəvəsi evlənir. Arvadı hamilə olur. Zahı yatan günü əvlərində xəmir eləmişimişdər çörəh yappağa eşdə altı arvadköməh eliyən. Bı gəlin də içəridə- kürsüdə zahı yatıb. Evdə çoxlu Qur`an, kitab, şiş. Eşdə çörəh eliyənnər xəşil bişirib bir yekə qab da kürsünün üstə qoyublar, bı zahı dursun yesin. Bı durur xəşili yeyəndə görür bacadan bir arvad səsdəndi:

-Ay Gülücahan, nə qəşəh xörəh yeyirsən.

Bı da deyib:

- Düş gəl, kimsən, gəl yeyəh.

O da der:

Yox, mənim gəlməyə yolum yoxdu. Mən ora gələ bilmənəm. Xörəyi qavza yuxarı bir barmax mən yeyim.

Bı Gülücahan əlində xörəyi qavzıyır yuxarı, görür bı əyildi aşağa başının tükü qarışmış, sallandı bacadan üzüquylu əlin uzadır ki, bir barmaq xəşildən götürüb yesin. Bı zahı huşdu-başdı, eşitmiş adammış. Yerdən şişi götürür salsın bının saçınnan sürüsün içəri. Şiş ilişir boynunda muncuğu qırılır. Bı qalxır əyağa ki, hə, mən gəlmişdim ərın babasıynan görüşməyə. Qal salamat. Mən getdim. O, bacadan gedir. Bı çağırır ki, durun ayağa gəlin. Eşdən gəlillər ki, 200-dən çox hal dabanı deyillər, yaşıl muncuqdu tökülüb. Onu qocamızgil evlərə bir-bir payladılar ki, hal dabanıdı.

**(24)**

Atam deyərdi ki, mən uşaq olanda əmimin arvadı yatmışımış. Bir uşağı olmuşumuş. Cəfər kişi varıymış, bizim kənddə. Görüb ki, hal başında bir padnos gətirir. Hersdənib ona ki, qaytar apar qoy yerinə. Səni vıracıyam. And içib ki, suya çəhmişəm olmaz. Ha eliyib Cəfər kişi əvə qayıdıb gəlincən gəlib ki, arvad ölüb.

**(25)**

Mənim nənəmin nənəsi der ki, bir gəlin zahıymış. Nənəmin nənəsi də mamaymış der ki, gəlini gecənin bir yarısı qutarmışam, çətin yatıb. Kürsü əviydi da gəlin də irahatdaşıb. Uşağı da böləmişəm qoymuşam yanına, ta işıxlaşır. Der başımı söykəmişəm kürsüyə məni

yuxu aparıb. Onda gördüm ki, bacadan qum-torpaq dınqıldadı qabın üstünə. Baxdım gördüm yoğun mıncıq sallanıb bacadan. Mənim də nənəmin nənəsi bı işdərə ayığımış. Der baxdım gəlinin üzü sap-sarı saralıb. Gəlin saralanda çığırdım.

-Ay Əli, ay Camal, Həsən, durun qaçın suyu qılışdayın, gəlin huşun itirir. Axı gəlib çıxıb bacıya. Nəysə gülləni atıblar havıya, ənə-bənə, çayı qılışdıyır. Gəlin ayılır, amma zəfər toxuyur, nənəm yeddi il xəstə olur.

**(25 a)**

Bizim kənddə Xansənəm var. Zahı yatdığı yerdə bacadan belə sallanıb.

-Xansənəm, Xansənəm.

Deyib:

-Heyy.

Görüb ki, bının boynunnan muncuq sallanır. Ürəyə bax ey. Yerdən qalxıb şişi götürüb dartıb qırıb. Tökülüb əvə. Bı qaçıb gedib. Gedənnən sora hal muncuqların yığdılar. Ona bına bir-ikisini vermişdilər, hansı zahı yatardı onu Xansənəmnən gedirdilər alırdılar. O zahı qorxmurdu, yan-yörəsinə gələn olmurdu. Sora sən apardın vermədin, o apardı vermədi həylə yazığın əlinnən o hal muncuqların götürdülər getdilər.

**(26)**

Bir nəfər olur. Bir mağarada görür səs gəlir. Qıraxdan baxır ki, bir qadındı döşdəri yenib yanında, balalarına deyir:

-Filan kənddə, filan qadın zahı yatacaq. Mən gedib onun ürəyini, ciyarını çıxardıb gətirəciyəm yəsız.

Bı adam eşidir, gəlir kənddə deyir. Elə olur ki, qaravıl çəkillər bı lənətə gəlmiş nə fəsadınan girirsə, bının döşəyinin altında soğan şəklində göyərməyə başlıyır. Gəlillər döşəyi götürüllər ki, soğan şəklindədi, kəsib götürüllər. Çünki, mağarada balalarına demişimiş ki, döşəyin altında soğan kimi göyərəcəm.

**(27)**

Mən uşağıdım. Qonşuluqda bir gəlin zahı yatır. Mənim qoca nənəm Şabanı çağırıllar ki, gə bını qutar. Qapıdan girəndə bına bir şey toxunur. Deyir, içəri keçdim, amma canıma üşütmə düşdü. Qadın

özündən getdi. Evin kişisinə xəbər verdim ki, bını hal apardı. O vaxtı onnan qabaq hansı su varsa çayı-zadı xəncəriyirdilər. Bınnar getdi. Tüfəng atdılar bı şey sovuşdu.

**(28)**

Bir Eyvaz kişi olur. Gedir bir dənə hal tutur. Halı dəyirman arxında çimdiyi yerdə tutur. Gətirir əvinə, bına tobalatma verir ki, (Cedir zahı arvaddarın ciyarını çıxardırmış, gətirib asıb ağaca dəyirmanın arxında gərəh o çimərmiş. Orda tutur.) mənim yeddi arxa dönənimə tobalatmasan dəymiyəssən. Qalır əvdə. Bının bir uşağı olur. Uşağa yüyürüh asır, qoyur tapşırır ki, yüyürüyün altın süpürməyin. Indi gəlin də beş ay, altı ay qalır. Yüyürüyün altı zibilli olur da süpürüllər. Gəlir ki, uşax yüyürühdə ölüb. Üstünə də iynə sancıblar ki, çıxıb getməsin. Çıxır küçədə uşaxlara aşıx verir der ki, bı iynəni üstümnən çəkin. Iynəni üstünnən çəkillər, sora çıxır bacıya. Uşağı ölənnən sora. Der:

-Eyvaz kişi mən altı ay qaldım sənin əvində. Mənnən heş nə soruşmadın. Mən dünyanın gəlin də bilirdim, gedin də bilirdim. Ancaq ağlın olmadı mənnən heş nə soruşmadın. Mən sa çox şeylər öyrədərdim. Indi sən mənim əlimin bərəkətini nəyə götürürsən?

Der:

-Sən əlın bərəkəti mənim o zibilimə.

Indi ollar elə ilim-gülüm həm kasıbdı, həm də əv -eşihləri zibilli olar. Ordan çıxıb qoyub gedib.

## CINLƏR

**(29)**

Biz odunnan gəlirdih çöldən. Bevaxtıdı, payızın soyuxları, qar düşən vaxtları. Bizim kənddə Əziz kişi var. Gördüh o atdakı yolnan gəlir. Qaldıq belə məəttəl ki, bı hardan gəlir, qışın soyuğunda bı vaxtı. Biz üstəki yolnan keşdih. Bı da bizə yaxınnaşmışdı elə. Biz keşdih. Bı da bizim dalımızcan gəlir. Kəndə aşan anda bı kişi yox oldu. Baxdıq ki, arxadan gəlmir, yoxdu. Kimisi dedi belə döndü kimisi dedi belə döndü. Uşaxların bir-ikisi mısdı təpənin dalında ki, görəh bı necoldu. Yox oldu. Sora gəldih kəndə. Yolun qırağınnan elə həmən adamnan soruşdux ki, bə Əziz əmi, sən hardaydın?

Dedi:

-Heç harda. Hara var harda olam?

-Bu gün harda olmusan?

Dedi:

-Evdə.

Bir yana getməmişdin?

Dedi:

-Yox.

Ta incavara uşaxların ağlına gəlmədi. Bildim ki, haldı.

**(30)**

Bir kişi vardı, Vəliyulla addı. Bizim qonşumuz olub. Bizim kənddən o yanda dağ var, Xınzirək deyirik. Orda olub. Atınan gedib aşağı kənddərə. Ordan gələndə bizim kəndin aşağısınnan yol çıxır ora. O yolnan gedəndə görür ki, bırda dəm-dəsgah, toy-büsat, qiyamət bir hekayətdi ki, bı qalır məəttəl, gecənin bı vaxtı ora da Seyid Kərimin damı deyirlər. Bırda toy nə gəzir. Mənim də bir bibim var adı Gülücahandı.

Der dedi:

-Bibi qurban, düş gə ye, xörəyi bişirmişəm. Mən atdan düşdüm, toya yaxınnaşanda fikrimi dəyişdim. Gecə vaxtı tez belimnən xəncəri çəkdim. Bibi , lənətə gələsən, gecə vaxtı nə xörəh bişirirsən? Der baxdım ki, heç kəs yoxdu. Getdim kəndə, dədəmə dedim. Mən də dəyirmanda işliyirəm. Gecə getdim dəyirmana. Gördüm dəyirmanın qapısında dəm-dəsgah, toy-büsat. Məni dəvət elədilər Vəliyulla keç, Vəliyulla keç gə. Bizim də bir pişik var. Bının da adına deyillər Ibrahimxəlil.

Dedilər:

- Ibrahimxəlil, Vəliyulla kişini keçirt yuxarı başa.

Belimnən xəncəri çəkdim. Bıllar rədd oldu. Gəldim əvə. Həmən pişik əvdədi. Xəncəri çəkdim həmin pişiyə bir xəncər vırdım.

**(31)**

Bir kişi vardı. Qoca kişiydi Əbdüləli kişi. Der, mən üş gün itdim. Elə oynadığım yerdə üş gün dədəm məni axtarıb. Aparıb çıxardıllar dağın başına. Orda xörəh-çörəh yeyirdim. Elə yedihcə deyirdilər:

-Ye, amma qəlbindəkini demə. Qəlbindəkini demə,- dedihcən birdən gördüm ki, atam məni axtarır.

-Əbdül hey, deyir. Oğul hey, deyir ağlıya-ağlıya. Birdən dedim:

-Ata, mən burdayam. Gəldilər adam çıxdı dağa. Xırda uşağıdım ipi salladılar məni yendirdilər.

**(32)**

Atam danışardı, deyərdi ki, bir dəfə çöldən odunnan Xəlil addı bir oğlanınan gəlirdih. Ulaxlar yühlüydü. Şər vaxtı qarannıx düşmüşdü, dərədən keçəndə bı qaldı mənnən dala, əyildi dərədən su içməyə dedim:

-Ay bala, şər vaxtı su içməzdər.

Nəysə. Mən keşdim. Bı su işdi, gəldi. Dedi:

-Əmrah dayı, nəsə başım elə ağrıdı, nəsə mən bir cür olmuşam.

Deyir dedim:

-Ay bala, sənə bəla toxundu, ha, şər vaxtı suya əyilməzdər, suyun yanında cin olur, şəyyətin olur. Balasın ayaxlamısan sənə zəfər toxundurub.

**(33)**

Bir nəfər cinnərdən almışımış. Keçmiş vaxtı dəyirman vardı. Orda işdiyirmiş. Bir nəfərnən mərcləşir. Deyir ki, filan varrının evinnən nə dersız gətirim. Deyillər:

-Bir az bal gəti.

Durur qablamanı götürür, verir arvada. Arvad gedir gətirir. Bir aydan sora deyir:

-Hardadı qablaman?

O adamı gətirir.

Deyir:

-Mənnən mərcləşdilər gətirtdim yedilər.

**(34)**

Seyid Kərim addı bizim tayfadan qoca bir kişi olur. Su suvaranda gecə vaxtı indi hamı gedir da arxın başına ki, qutarıbsa mən suvarım. Gedir baxır ki, Seyid Kərim beli açıx, çuxadan çıxıb bırda bir oynuyur, bir oynuyur ki, belə baxır. Fikirrəşir bı kişi Seyid adamdı, gecənin bı vaxtı bırdı niyə oynuyur? Bı çox baxır, çağırır görür hay vermir, elə öz aləmindədi. Yapışır bı Seyid Kərimin qolunnan, deyir:

-Ay kişi, sən nə oyun çıxardırsan? Su bıdı yarıb haraynan gedir.

Deyir:

-Ə, görmürsən Xokəzalının toyudu.

Der:

-A kişi, bismillah de, sən yığınağa düşmüsən. Kişi bismillah deəndə o ki, bına sən yığınağa düşmüsən deən varıydı, onun sağ çiyninnən nə təhər vırıllarsa ölüncən qolu qaldı yanında.

**(35)**

Həsənqulu kişi olub. O da qaynatamın qardaşıdı. Xınzirəhdə olub. Xınzirəhdə Nəbi dərəsi deyillər. Əkin vaxtıymış. Gecəli gedib arxınan suyu vırıb aparıb. Baxıb bırda bir qara çəpiş məliyir. Deyib görən bı heyvanın hansınnan ayrılıb, hansınnan qalıb. Düşüb bı çəpicin dalına. Çəpiş qaçıb, bı qaçıb, çəpiş qaçıb bı qaçıb. Bını qavıb-qavıb bı daldan yetirib tutub. Əlin atıb tutanda bı dilə gəlib deyib nəyə inanırsansa, məni ötür gedim, məni neynirsən?

Bı fikrin dəyişib. Der:

-Çəpiş də danışar? Hara ötürürəm səni?

Tutur gətirir. Çəpiş der:

-Hara aparırsan məni?

Der:

-Aparıram babama, nənəmə görüm çəpiş də danışar? Heyvan da danışar?

Der:

-Indiki sən məni tutub aparırsan, ötürmürsən, mən bir qızam, çəpiş donunda gəzirəm. Yəqin həlbət Allah qismətimi yazdı sa?

Bını bərh-bərh tutur, ta kişi ötürmür. Gətirir dədəsinə-nənəsinə. Durquzur der ki, ay dədə-nənə, durun görəh indi ya mənim gözümə görükübdü, ya nə təhər. Baxıllar görüllər. And verdirillər ki, əgər sən o cinnərdənsənsə donu dəyiş. Donunu beləcə çəkir qoyur yerə. Baxıllar ki, bı gözəl bir qızdı. Onnan sora bını evdə saxladılar. Allah, elə qoçağıdı, nəyə əlin atardısa, quş kimi hamısı uçardı gedərdi. Bir neçə il əvdə saxladılar, amma üstünə başına iynə taxardılar. Bı cin tayfası der iynədən qorxar. Durur suya gedir, hara gedir hər işi tez qəşəng yerinə yetirir. Bını o qədir işlədillər ənə-bənə, bir gün durur sənəyi alır çiyninə, gedir bulağa bir-iki cavan qızlara der ki, bax bı iynəni çək at yerə. Həmən donunu geyir, gəlir çıxır bacanın üstünə, der ki, bax mən gedirəm, mən ta xilas oldum. Məni çox işdədmisız, buyurmusuz. O sizin halalız olsun. Neynək çörəyızı yemişəm. Indi nəyıza bərəkət deyim. Indi bı xatınnar-mağmınnar da der zibilimizə bərəkət.

Der deyim unuza-yağıza. Heş dad bacarmıllar.

Der:

-Indi ki, mənnən heş dad istəmədız süpürgəza, zibilıza bərəkət. Elə ha süpürəsız ki, qurtaracax.

PIRLƏR

**(36)**

Məzrə kəndində pir var, adına bacı-qardaş piri deyillər. Ova getmişdim. Dovşan qabağımcan qaçdı. Düzdə yemişan kolu vardı ora girdi. Yanında da hasar vardı. Qışıdı, qarıdı. Baxdım dovşanın irəddinə. Bildim bırdadı. Tüfəngi düzəltdim atmağa, səs gəldi, atmadım. Baxdım dovşan yoxdu. Döndüm ki, bəlkə çobannardı. Gördüm arxadan gəlir. Bir neçə dəfə bu təkrarrandı. Nişan alanda səs lap ucadan gəldi. Başa düşdüm ki, bura pirdi. Mən pirin yerini bilmirdim.

Bir nəfər bizim kənddən qızıl axtarmaqçün o piri eşmişdi, gəldi xəstə yatdı.

**(37)**

Atınan gedir bizim kənddən aşağı pir deyillər ora. Baxır bir qoyun. Götürür alır qucağına, aparır. Gedirmiş Qışlağa. Aparanda yolda baxır görsün bı heyvan erkəhdi, ya dişi. Bı heyvan bına der ki, ey, gözdə ha. Məni atdan yıxarsan. Deəndə baxır ədə, bı heyvan nədi bı cinnərdəndi. Atın üsdən bını çırpır yerə:

-Mənim sa yazığım gəlirdi. Hələ durub mənnən danışırsan deyib- gedir.

**(38)**

Göy dağ var. O dağda pir var.

Düşmənlər hücum edib bizimkilərin üstünə. Bizimkilər də az olur. Orda Allahı çağırır ki, Allah, bizə kömək. Düşmənlərin gözünə bı 15 nəfər elə gəlir ki, elə bil 100 nəfər, 1000 nəfər qoşundu. Düşmənlər der:

-Biz bınnarın qabağın alammənih. Ordan düşmənlər qaçır. Ora göy dağın piri deyillər.

**(39)**

Bu yaxınlarda Əşkab adlanan ərazi var. Orda pir var. Elə Əşkab piri adlanır. Rəvayətə görə, orda beş söyüd ağacı olubdu. Gələn adamlar söyüd ağacının altında dincəlirmiş. Söyüd ağacının altında bulaq varmış. Gözəl bir bulaq. Rəvayətə görə, bir çoban heyvan otaranda istiyir bı söyüdlərdən kəsib qışa yanacaq odun yığsın aparsın. Elə baltanı söyüdə vıranda bulaqdan bir nəfər peyda olur, atlı çobanı saxladır deyir:

Bı söyüdləri kəsmə, bırda adamlar dincəlir.

Deyir qeyb olur.

Çoban deyir, bəlkə məni qara basır. O, yenidən istiyir söyüdləri kəssin. Ikinci dəfə bulaqdan atlı çıxır deyir:

-Sənə dedim ki, ağacları kəsmə.

Balta əlində bı adam daş olur. Indi də o daş qalır.

**(40)**

Böyük bir daş var. Qara daşdı. Ona Qara pir deyillər. Deyilişə görə orada bir nəfər heyvan otarırmış. Əyilir orada bulaqdan su içməyə, içir. Bu vaxt baxır ki, bir sürü dəvə karvanı keçir. Qalxır baxır. Baxır ki, bınnarın kəndinnən neçə il əvvəl ölmüş bir nəfər bı dəvə karvanını çəkib aparır. Bına elə həqiqət kimi görünür.

Deyir:

-Hara gedirsən?

Deyir:

-Cənnətdə yaşayanlara urza aparırıq. Bı diksinir, görür yox oldu. Elə bilir qara basır, amma bını qeyriləri də görüb.

**(41)**

Qarabbada üç pir var. Deyilənə görə, ollar üç bacıdı. Birinin adı Qızdırma piri, biri Bağlar bacısıdı, biri Qara pirdi.

**(42)**

Məzrə kəndində iki qoşa pir var. Bunlara bacı- qardaş deyillər. Qardaş pirinin adına Göyərtmə piri, bacı pirinin adına- Süddü pir də deyillər. Deyillər, hər cuma axşamı bir ov yana-yana o qardaş pirindən çıxıb, göy-ala gəlirmiş o bacı pirində yanırmış. Sonra da yana-yana qayıdırmış ora. Deyərmişlər qardaş gəldi bacını ziyarət etməyə.

**(43)**

Kənddən bir nəfər ova gedir. Danışırdı ki, gördüm kolun başında bir göyərçin oturub. Dərə pirindən yuxarıydı. Nişan aldım ki, vıram, gördüm böyük bir dəvədi. Gülləni çəkdim qırağa gördüm göyərçindi oturub. Yenə nişan aldım atam, gördüm dəvədi. Dörd dəfə, beş dəfə çaxdım dedim:

-Elə dəvənin bir dünya əti var. Vıraram aparıb yeyərəm.

Çaxdım açılmadı. Birdən huşuma gəldi. Mən niyə pirin yanında güllə atıram. Bu pir möcüzəlidi. Xeyləh aralandım. Elə quşun yanından da keçdim getdim. Elə gözəl-gözəl baxırdı ma heç qımıldanmırdı da yerindən. Mən bir də pirin yanında güllə atmadım.

**(44)**

Bir nəfər Aşağı Qışlaq pirinin qapısını oğurluyur ki, aparıb sala tavlasına, qapısı yoxuymuş. Qapını yendirir qoyur daşın üstə ki, ala dalına, nə qədr dirəşir qapı tərpənmir. Qapı əlinnən çıxır dönür, dönəndə əsgər yıxılır. Gəlillər ki, əsgər yıxılıb, ayıldıllar, onnan sora pirə daxıl düşür sağalır.

**(45)**

Biri xırda pirdi, bir böyük pir. O birinə Yel piri deyirdilər. Biri yemişan dərənin piriydi. Yemişan dərənin piri Xırda bacıydı, yel pirinə böyük bacı deyirdilər. Biz həməşə nə qədər xəstə adam aparardıx ordan sağlam gətirərdih. Oralar bir həylə ocağıdı. Ora heyvan aparırdıx, şam yandırırdıx.

Bir dəfə bir kişi gedir oranın qapısın çıxardır gətirir yandırmağa. O qapı yapışır onun dalınnan yerə düşmür. Təzdən bir övəc götürür o pirdə qurban kəsir, yalvar-yapış eliyir qapı bının dalınnan qopur.

Birinci şamı yel pirində yandırar, sonra yemişan dərənin pirində yandırardıq.

**(46)**

Bir nəfər yolunan gəlirmiş. Görür orda şam yanır. Gəlir deyir, gedib görüllər bırda bir yazılı daş var. Ordan ağaşdarı qırıb aparan zərəl çəkərdi. Bir nəfər Ayrıncdan ağaş qırıb aparır, xəstələnir. Bir təhər

anasını başa salır ki, mən bını Güney Qışlaq pirinnən gətirmişəm. Anası ağacları gətirib atır ora, onnan sora yaxşı olur.

Mənim atamın xalası Fəxri addı bir nəfərə vergi verilmişimiş, indiki dövrəri danışırmış. Fəxri arvad pirdə oturmuşumuş. Mənim yaşımnan qabax qoca kişilər söhbət eliyərdi ki, bı qonşuda Məşədi Məhəmməd addı bir kişi malların qatıb qabağına, aparırmış çölə-Qaya dibi kəfşəninə yol elə ordan keçirmiş. Fəxri arvad pirdən deyir:

-Ey Məşədi Məhəmməd, o malları hara aparırsan?

Deyir:

-Aparıram ötürəm Qaya dibində otdasın.

Əvlərinnən yuxarı bir dərə vardı. Deyir:

-Aparma sel gələr, inəkləri də aparar, səni də. Bı qayıdır deyir ki, genə dəliliyin tutdu?

Deyir:

-Bı cavabı ki, mənə verdin, get mən dedim.

Dərəyə yetirəndə o qəyə dibinnən bir yağış yağır ki, sel inəhləri də, Məşədi Məhəmmədi də üstən yenişə götürür.

**(47)**

Belə rəvayət var ki, Məzrə kəndində böyük bir daşın üstündə at nalının şəkli var. Ora pirdi. Həmən atın irəddinin şəkli deyilənlərə görə Həzrət Əlinin atının- Düldülün irəddidi. Guya onun dal ayaqlarının izinin şəkli Culfa rayonunda– Nəhəcir kəndində daşın üstündədi. Qabaq ayaqlarının şəkli Məzrə kəndində daşın üstündədi. Həzrət Əlinin bu yerlərə gəlməsilə bağlı deyilir ki, atının ayaqlarının izi düşüb burda. Süfrə açıb çörək yeyib, süfrəsini Zəngəzur torpağında silkdiyinə görə Allah-tala o torpağı bərəkətli eliyib, Naxçıvanı kasıb.

**(48)**

Yanıx yurdda bir bılax var. Ora bir natəmiz adam gedib. Ora elə bil ocax olub. Onun suyu çəkilib ərşə. Onnan sora bir gəlin olur gedir bı bılaxdan su gətirə, görür su çəkilib. Deyir:

-Ey Allah, həzrət Abbas, sən özün yox yerdən bı suyu yetir. Onnan sora bılağın suyu başdıyıb axmağa. Gəlin doldurub gəlib əhvalatı əvdə danışıb.

Deyiblər :

-Ora ocaxdı.

Onnan sora aparıb orda bir heyvan kəsmişdilər. Indi o bılağın adı Qız-gəlin bılağıdı. Yanıx yurddadı. Yanıq yurd Qaraboya kəfşənindədi.

**(49)**

Orda Əşkaflılar olub. O vaxtı Əşkaflı orda yaşadıqları vaxt möcüzələr olub. Işıq yanıb. Pirə gedib qurban kəsiblər. Adına da Əskaf piri deyiblər. Ordan o vaxt Keçili kəndindən bir nəfər gedib söyüd ağacı varmış, o söyüd ağacını kəsiblər. Onu aparıblar ki, dam tikəh. Gedib ağacı aparannan sora onun bir nişannı oğlu ölüb. Ordan Əşkaflı camaatı köçüb haliyədə Keçilidə yaşayır. Daşdan söyüd ağacı göyərib qalxdığına görə camaat pir kimi istifadə eliyib. Qurban aparıb kəsillər. Quru yerdə zinə su çıxır ki, söyüd ağacı içsin. O söyüdü nə kəsəllər, nə doğruyallar, nə də heyvana verəllər.

**(50)**

Ocaq var orda. Quldurlar Mirismayılın başın kəsillər qoyullar orda gedirlər. Qurban olduğum Həzrət Əli gəlir boğazının lığabınnan vırır onu boğazına, onun boğazı sağalır. Durur elə baxıcı kimi, imam kimi olur. Hər zadı bilir. Baxırmış düz sözü deyirmiş. Bı yer olub Seyid Həsən ocağı. Indi orda iki dam var. Qəbirrər var. Gedənnər gedir ziyarətə. Qapının ağzında bir qara daş var. Niyyət eliyirsən daşı qavzıyırsan. Niyyət qəbul oldu, o daş yüngülcə qalxır. Qəbul olmadı o daş yerdən qalxmır. O daş qeybdən gəlib -göydən. Ziyarət daşıdı.

**(51)**

Kənd Şahbuzda seyid olur. Bunların çoxlu əriyi olur. Arvadı deyir ki, Seyid əriyi hara sərək? Əri də deyir ki, Allah bir yer yetirəcək. Sabah durullar ki, bılların evinin dalında böyük bir daş. Necə gəlib, necə qoyulub-üstü böyük bir yerdi. Seyid nərdivanı qoyur, çıxır.

Deyir:

-Ay arvad, əriyi bıra sərəciyik biz. Indi o qeybdən olan bir şeydi. Həmən daş bı sahat qalır. Ora pir sayılır.

**(52)**

Iki bacı, bir qardaş olur. Bunlar heç vaxt qırmızı geymir. Vaxt gəlir çatır oğlan gedir əsgərliyə. Orda da bir dağ olur. Dağın kəlləsində bir kişi öləndə yer-yurd lərziyə gəlir. Torpaq qovuşur kişinin üstündə dağ əmələ gəlir. Hamı oranı ziyarət eliyir. Bınnar da niyyət eliyir ki, qardaşımız əsgərliyin qutarsın gəlsin biz qırmızı geəy, çıxaq o dağın kəlləsində bizi daş elə. Bınnar qəşəng geyinir-kecinir, başlarına xonça alıb qardaşlarını da götürüb çıxıllar dağın kəlləsinə. Orda onlar xonçalı-zadlı daş olurlar. Oğlan ağlamır-eləmir, deyir öz niyyətləri idi qəbul olundu.

ƏFSANƏLƏR

**(53)**

QIZILGÜLLƏ BƏNÖVŞƏNIN EŞQI.

Qızılgül bir oğlan olur. Bənövşə də qız olur. Bir-birlərini sevillər. Amma bir-birinə çatammırlar. Ona görə bənövşə qabaq açır. Qızılgül açan vaxtı bənövşə solur. Indi ona görə həməşə bənövşənin boynu əyridi.

**(54)**

QANNI GÖL

Deyilənə görə gölün ətrafında kişi cüt sürürmüş. Oğlu da on yaşında. Gətirir mindirir öküzdərin boyunduruğuna, qəflətən boyunduruğun samısı sınır, öküzün biri açılır, kişi gedir samı gətirib boyunduruğu düzəltməyə. Öküzlər oğlan da boyunduruqda dartıb aparıllar su içməyə göldən. Oğlan boyunduruqdan aşıb düşür gölə. Kişi gəlir görür oğlan düşüb gölə ölüb. Baxır, baxır deyir:

Əzizinəm qanlı göl,
Qanlı dərya, qanlı göl
Qaytar mənim oğlumu,
Olma mənnən qannı, göl.

Həmin vaxtdan gölün adı «Qannı göl» qalıb.

**(55)**

QIRX QIZ ƏFSANƏSI

Qırx qız olub. Bınnar bı düşmənin gavırın əlinnən qaçıllar. Qaçıllar bir də dönüllər ki, bay düşmən elə çata-çatdı. Bı qırx qızın qırxı da əlini qavzıyır hax dərgahına-Allaha. Deyillər:

- Ey Allah, biz ki, bının əlinnən qaçırıx, bizə bir nicat ver. Biz bınnarın əlinə keşmiyəh.

Həylə dən, dağ ayrılır, qəyə ayrılır. Bı qızın qırxı da girir o qəyənin içinə. Həmən qızlar bax bı sahat allahın qeybində orda sağ-salamat dururlar.

**(56)**

## QIZ - GƏLIN

Keçmiş vaxtı Badamlıda qocalar olub. Deyirdilər; o daş elə ordadı.
Düşmənnər qız-gəlini qavalıyıblar tutalar. Bınnar qaçıblar dağa gediblər, əl götürüblər deyiblər:

-Ilahi, bizi ələ salma, biz ələ düşmüyəy. Bizi öldür, ya daş elə. Onnar orda qeyb olub. Indi belə baxanda görürsən düzməsinə qız-gəlinnnər daş olub.

**(57)**

## YEDDI BULAQ ƏFSANƏSI

Yeddi bacı olur bu ərazidə. Çoban qızıymışlar. Onların gözəlliyini eşidəndə, Şahmar şah onları öz hərəmxanasına aparmaq istəyir. Bacılar ismətlərini qorumaqdan ötrü şahın zülmündən qaçır. Başqa əlac tapmır. Çıxıllar dağın başına. Ora yüksək bir qayalıqdı. Qırx gün, qırx gecə qızlar bı dağın başında qalırlar, ağlıyırlar, sızıldıyırlar ki, bunlara şahın rəhmi gəlsin. Şah rəhm eləmir. Nəhayət şah son qərarını verir ki, bunlar ya gətirilməli, ya ölməlidi. Qırx gündən sora qızlar ələ keçməsin deyə özlərini qayadan atırlar. Göydə qızların üçü bir istiqamətə, dördü bir istiqamətə düşür. Orda dörd göz bulaq bir tərəfdən, üçü bir tərəfdən çıxır. Deyirlər ki, o bulaqlar qırx gün qızların tökülən göz yaşından əmələ gəlib.

**(58)**

## GƏLIN DAŞ

Deyirlər, o vaxt, keçmiş zamanda gəlin qaynatadan gizdənirmiş ki, onu görməsin, utanırmış. Gəlin başı açıx olanda qaynata bını görür.

Der ki, ay Allah, məni daş elə, məni gördü. Deyillər həmin vaxtan gəlin daş olur. Elə ona gəlin daş deyillər. Şahbuzda hamı gəlin daşı ziyarətə gedir.

**(59)**

## IKI ÇOBAN

Iki çoban Əshabi-Kəhfin yanında qoyun otarırmışlar. O vaxt elə kahaymış. Bının biri deyir:

-Ə Yunus, sən süd sağ, itə-pişiyə ver. Mən yatıram.

Başın qoyur yerə yuxluyur. Yunus görür ki, yoldaşının burnundan bir milçək çıxdı, bı da südün üstünə qaşığı qoymuşumuş. Baxır bı milçək südün üstündən keçdi. Orda 4-5 kələyi belə gəzdi. Deyir:

- Deyillər ruh. Bıdı, görüm bı neyniyəcəh. Bir də gördü həmən yerdə qayıtdı girdi yoldaşının bədəninə. Bı ayıldı. Dedi:

- Ə Yunus, yuxu gördüm.

Dedi:

- Nədi?

Dedi:

- Gördüm bir ağ dərya var. Dəryanın üstünnən bir taxta körpü salıblar. O körpünün üstünnən qorxa-qorxa keçdim. Getdim gördüm bir kələhdə yeddi xum qızıl var. Orda nə xərtər elədim zorum çatmadı. Gətirə bilmədim. Gəldim həmən yerdən-körpünün üstünnən keşdim. Sora ayıldım.

Bı əlbəhəl deyir:

- Dərya bı süddü. Körpü də qaşıqdı. Orda nə varsa var.

Deyir:

-Indi sən qoyunun qabağın vır. Mən bir az huşdanım gəlim.

Bı yatan yoldaşı qoyunu vırır ənə. Bı gedir kələyin birini götürür, ikisin. Görür bıy elə qızıl bırdadı. Yeddi xum qızılı aparır. Olur zalım şah. Başdıyır ona-bına əziyyət verməyə. Deyillər sən çobanıydın bizim gözümüzün qabağında. Yığışır neçə nəfər qaçır. 309 il dağda yatıllar. 309 ildən sora Allah məlaikə göndərir, durullar. Deyillər:

- Təmlexa, sən axşam dam satmışdın. Pulun da var. Get bizə çörəh al. Durur gəlir şəhərə. Baxır bı gördüyü yerlər dəyil. Adamlar da baxır bının geyiminə. Bir çörəhçiyə pul çıxardır ki, çörəh ver.

Deyir:

- Qardaş, bı xəzinə hardadı? Yerin de bına şərik olum.

Bı deyir:

-Axşam damımı satmışam.
Çörəhçi çığırır:
-Ay havar, bı  xəzinə tapıb, gəlin.
Deyillər satdığı evə baxaq. Baxıllar ki, ev yoxdu. Camaat düzülür bının dalına, gəlir yoldaşlarının yanına, deyir:
- Əvız tikilsin. Biz 309 il yatmışıq. Dağyunus nə qayırır?
Bıllar camaat gəldikcə qaçır, qayalar aralanır, keçirlər.

**(60)**

Bir nəfər gəlir. Deyir, ya Nuh, nə gəzirsən? Deyir ki, Allahdan mana belə bir əmr olub, amma mən bilmirəm gəmini harda qayırtdırım, kimə qayırtdırım. Ərz elədi ki, get çıx o təpiyə onun dalında bir şəxs var, ona Ucubılıx deyillər. Gedərsən o sənə sər-subut eliyər. Gəlib qayırarsan. Nuh peyğəmbər gəmini qayırdı. Allahdan nida gəldi ki, hər nəsildən bir dənə-maldan, heyvandan götür, yığ gəmiyə, sal dərıyya. Dünyanı qərq eliyəcəm. O məslahatı verənsə cənab Əmirimiş.

**(61)**

BAĞLI QAPI

Şeytan deyir-bı qapını açın. Bırda yaxşı şey var. Bıllara deyilmişdi hər yana baxın, o qəsrə girməyin. Həvva əl çəhmədi:
-Niyə, şeytan düz deyir. Girəh bıra.
Cəbrayıl (ə) nazil olur. Deyir:
-Göydə bir ildız var. 70 ildən 70 ilə doğur, işıq verir. 70 dəfə mən o ulduzu görmüşəm bı qapını açıq görməmişəm.
Dedi:
-Yox, Həvva, deyir qapını aç.
Açdı qapını, içəri girəndə baxdı gördü bir şəkildi, qabağında bir havızdı, abi-kövsər suyu tökülür ora, havızın başında bir şəkil var. Şəkilin başında taxt, əlində dəsmal, sol qulağında qırmızı küşvarə, sağ qulağında yaşıl küşvarə. Bı kimdi? Dedilər:
-Bu Fatimeyi-Zəhradı.
Dedi:
-Bı niyə biri qırmızıdı, biri yaşıl?
Dedilər:
-Sol qulağındakı yaşıl küşvarə imam Həsənə işarədir. Sağ qulağındakı qırmızı küşvarə imam Hüseyndi.

Dedi:

-Niyə bıllar yaşıl-qırmızıdı.

Dedilər:

-Onların biri zəhərinən şəhid olacaq, yaşıl tər tapacaq. Birini də qanına boyayacaqlar, qırmızı olacaq.

**(62)**

Şeytan tovuzquşuna dedi ki, məni apar Adəminən Həvvanın yanına. Dedi:

-Aparammanam, amma burda biri var, eliyər.

Getdi ilanı çağırdı. Ilan ağzını açdı. Şeytan ismi-əzəm oxuyub girdi bunun qarnına. Içəri girib Adəminən Həvvıya pislik elədi, buğdanı yedirdib cənnətdən qovdurdu. Allah ilanın qanadın tökdürdü, özün də o cildə saldı, ilan başdadı sürünməyə. Dilə gəlib dedi:

-Mən məlaikə idim. Bu günə düşdüm. Adəmin övladı da mənə düşman oldu.

Buna deyillər:

-Allah sənin dişinin dibində bir zəhər yaratdı. Hamı sənnən qorxacaq. Bir də bədəni yekə yaratdı. Bəzilərini ud. Sən ollara qalib gələssən dişınan, udmağınan. Ollar sənə qalib gələcək başı əzib öldürməyinən.

**(63)**

GƏLIN QAYASI

Iki sevgili olub. Bunlar Leyli-Məcnun kimi çox məhəbbətli olublar. Bunların yaşadığı obada bir varlı zalım varmış. Gözü bı cavanın nişanlısına düşür, çalışır ki, bını oğlanın əlindən alsın. Bunlar uzaq bir dağda, qayanın altında yurd-yuva qayırıb orda yaşıyıblar. Maldarçılığınan məşğul olublar. Varlı adam eşidib ki, bunlar köçüb ora adamlarını göndərir, bir neçə dəfə gəlib deyillər filan bəy səni istiyir, gəl aparaq. Nə qədər var desən, pul desən onda. Qız kasıb da olsa, oğlana çox məhəbbətliydi. Bir gün gəlin baxır bəyin adamları gəlir bını zorla aparsın əri də uzaqda. Qalxır həmin uca qayıya, deyir özümü atıb ölərəm, yad əllərə düşmərəm. Elə o vaxtdan da bu qaya Gəlin qayası adlanır.

**(64)**

Bir bacı olur, bir qardaş. Gedirlər səhraya. Bınnarın nəysə sözü olur. Olanda qardaşı nifrət eliyir. Ahü-zar eliyib deyir:

-Xudavəndi aləm, bir quş elə məni, uçum bu qızın üzünnən canım qutarsın. Allaha xoş gedir. Onu bir quş eliyib uçurdub. Bı gedib. Qız baxıb bay qardaşı yoxdu. Onnan sora elə ha çağırıb.

**(65)**

Iki çoban olur. Şaha heyvan otarıllar. Nəysə bı heyvanı aparıb oğurradıllar, neynillərsə, bı şah gəlib bınnara qəzəb eliyib. Hersdənib ki, çıxın kəfşənnən, çıxın kənddən. Bınnar bir cüt quş olub. Biri düşüb bir dağa, biri də düşüb bir dağa. Bir də görürsən der:

-Tapdın, tapdın? Bı dağlarda qərəm gəzib oxuyur der:

-Tapdın, tapdın?

**(66)**

NUHUN GƏMISI

Allah-tala Nuha tapşırır ki, yer üzünu su alacaq, sən get gəmi bağla. Gəmi bağla, hər heyvandan bir erkək bir dişi yığ gəmiyə çıxsın suyun üzünə. Dünyanın üzünü su alandan sonra nəsil kəsilməsin. Nuh gedir meşədə ağacları doğruyur, taxta çəkir. Taxtanı çəkəndə taxtanın biri göy yazılı, biri qırmızı yazılı taxta çıxır. Der ki, orda oxuyur Imam Hüseyn şəhid olacaq, qanına boyanacaq, qırmızı yazıda Imam Həsən zəhrinən öləcək. Orda imamlarımızı birinci Nuh peyqumbər ağlıyır.

**(67)**

300 il ömür eliyib Nuh peyğəmbər. Ömrü sona yaxınnaşanda deyiblər ki, ya peyğəmbər, bı dünyanın nəyinnən razı qaldın?

Deyir:

-Onnan razı qaldım ki, elə yaxşı da olsa gün gəldi axşam oldu, pis oldusa da gün gəldi getdi.

Bir də deyillər ki, bir dəyə tihmişimiş yanı yerdən yarma o vaxtı da adamlar belə yekə-yekə olurmuş. Indi insannar cırlaşıb, xırdalıb. Hələ belə də deyillər ki, millət o qədr cırlaşacaq ki, dəvənin kölgəsində yatacaq. Deyiblər ki, ya peyğəmbər, bı 300 il ömr elədin, niyə öza geniş yer tihmədin?

Der:

-Bilsəydim 300 il yox, 900 il yaşıyacam, innən belə 1000 il yaşıyacam, axırı ölüm olacaq, mən heş bı dəyəni də tihməzdim.

**(68)**

Deyillər dəryada bir ada vardı. Bı adada daimi bir çarx fırlanırdı. Çarxın üzərində ilahidən yazılar vardı. Bu yazıları oxumaq mümkün deyildi. Lakin Loğman insanlar arasında savadlı, düşüncəli olduğundan dedi:

-Mən bu yazıları oxuya bilərəm.

O, xəmirdən kündələr qayırdı, qayığa yığdı və həmən dəryadakı adıya getdi. Çarxın fırlanmasına baxmayaraq xəmir kündələrini çarxa yapışdırıb, təmiz yazıları köçürtdü və qayığınan geri qayıdanda ilahidən xəbər çatdı ki, bəs Loğman bütün elmi apardı. Hökm olundu, fırtına qopdu. Qayıq çevrildi. Loğmanın yazdığı, götürdüyü bütün xəmir kündələri suya töküldü. Loğmanın əlində yalnız bir kündə qalır. Loğman həmən əlində xəmir kündəsi sahilə gəlir. Sonra həmin yazını-kündənin üstünü oxuyullar ki, bəs insanlar aya uçacaqlar.

**(69)**

Mən belə eşitmişəm ki, Musa peyğəmbər heyvan otarırmış. Musa peyğəmbər çoban olubdu. Möhkəm yağış yağır. Bı gəlib girir doqquzdon kolunun altına bunun da yarpaqları kiçik yarpaqlardı. Musa peyğəmbər bı ağacın altında möhkəm islanır. Baxır ki, yaxınlıqda bir ağac var, yarpağı çoxdu. Ağacın altınnan çıxanda deyir:

-Səni görüm doqquz dəfə qabığın soyulsun.

Indi deyilişə görə, elənçi ildə doqquz dəfə onun gövdəsinin qabığı soyulur. Sonra bı ardınc ağacının altına girir, yağışdan qorunur. Ona da deyir:

-Səni görüm həmişə yaşıl olasan.

**(70)**

Bir gün bı avlar peyğəmbərə şikayət eliyiblər ki, biz dayanammırıx. Hansı bir insanı görürük qaçırıq. O buyurubdu ki, sizin düşməniniz gələndə başında od yanacaq. Onda qaçın. Hər adam sizi nə

tuta bilər, nə vıra bilər. Peyğəmbər bıllara buyurubdu ki, hər kəs avçılıq eləsə onun dini-bərəkəti olmaz. Av xəlq olunubdu kəfşənin gözəlliyi üçün, həyatın gözəlliyi kimi.

# NAĞILLAR

**(71)**

## MAHMUD ŞAH VƏ ƏHMƏD VƏZIR

Bir padşah vardı. Gec oldu bının uşağı. Sondan-sona bının iki oğlu oldu. Ad qoyannar yığıldı. Birinə Mahmud, birinə Əhməd adı qoydu. Şah ac qarınnar doyuran, çılpaq əyinnər bitirən, yaxşı uzaqgörən bir şahdı. Bı şahın oğlannarı ekiz tay olduğuna dayə tutdular. Bı uşaqlar böyüdü, həddi-kəmalə çatdı, evlənmək vaxtları olanda şah düşdü ölüm yatağına. Oğlannarı çağırdı dedi:

-Əhməd, Mahmud gəlin sizə vəsiyyət eliyim. Mahmud Əhməddən əvvəl dünyaya gəlmişdi, yekə sayılırdı.

Dedi:

-Mən ölürəm. Dədə-baba biz sülaləynən şah olmuşuq. Indi mən ölürəm, oğlannarım. Birızı şah qoyuram, birızı vəzir. Mahmudu şah qoyuram sənnən böyükdü. Əhməd, səni də vəzir.

Şah öldü. Şahı əfn-dəfn eliyib, matəmi keçirdənnən sora Mahmud oldu şah, Əhməd də oldu onun vəziri. Bıllar yaşadılar. Mahmud çox namərd şah oldu. Yeriyənə yol vermirdi, müharibələri qızışdırırdı, pis işdər görürdü. Amma Əhməd çox uzaqgörən, çox yetim qarnı doyuranıdı. Bıllar 50 yaşa çatdı. Bı iki qardaşın heç birinin uşağı olmadı. Əhməd bir gün getdi evinə, gördü küçədə səs gəlir. Çıxdı ki, 12 yetim uşaqdı, çılpaqdılar. Uşaqları çağırdı. Həyətdə tut ağacının kölgəsinə paltar sərdi. Arvadına dedi:

-Yemək hazırla gəti.
Hər şey gətdi. Bı yetim uşaqlar doyuncan yedilər. Əhməd bunların əyninə paltar geyindirib şad-xürrəm saldı yola, getdilər. Uşaqlar gedənnən sora Əhməd vəzir gəldi, otdu həyətdə, öz-özünə düşündü.

Dedi:

-Pərvərdiyar-aləm, çox şükür sənin böyühlüyünə, mənim də bir övladım olaydı. Əlli yaş sanki bir gədihdən aşır insan. Mən təzədən nolacıyam?

Bunun ağzınnan bu söz çıxmamış qapıdan bir dərviş girdi. Dərviş qəşəh, nurani, belində qurşağı, əlində nacax girdi. Salam verdi. Əhməd vəzir səvindi. Dedi:

-Qəm-qüssə məni almışdı. Ey dərviş, xoş gəlmisən. Gəl bir-iki qəsidə de, mən qulaq asım. Dərviş gəldi otdu. Əhməd vəzir arvadına dedi:

-Yeməh hazırlayın, yaxşı qonağım var.

Dərviş dedi:

-Biz çörəh yeyən dərvişdərdən dəyilih. Mən gəlmişəm sənə müjdə verməyə.

Dedi:

-Nə olar. Qurbanın olum.

Dərviş dedi:

-Sənə bir alma verirəm, apar ortadan tən yarı böl. Yarısını qardaşın Mahmud yesin, yarısını da sən ye. Ikızın da arvaddarız hamilə olar. Doqquz aydan sora bari-həmlə yerə qoyannan sora birızın oğlu, birızın qızı olacaq. Bı oğlanı, qızı bir-birinə verin. Çünki, bınnar bir mayadan əmələ gəlib.

Dərviş qeyb oldu. Əhməd durdu çörəh yedi, əl-ayağın yudu, qəşəh paltar geydi, almanı bir ağa büküb qoydu cibinə, getdi qardaşının yanına şahlığa. Salaməleykum ya Mahmud.

Mahmud dedi:

-Salamsızıdım?

Dedi:

-Ay qardaş, mən sənin vəzirinəm, özü də qardaşınam. Niyə həylə eliyirsən?

Mahmud şah dedi:

-Səni görməyə gözüm yoxdu.

Vəzir dedi:

-Mən sa indi bir müjdə gətirmişəm axı.

Dedi:

-Nədi? De görüm sənnən nə müjdə?

Dedi:

-Qardaş. Həyətdə mən belə düşünürdüm, qapıdan bir dərviş girib bir alma gətirib dedi. Bunu ikimiz yeməliyih. Özü də dedi:

-Birızın oğlu olar, birızın qızı olar. Əhd eliyib evləndirərsız. Alma bütövləşər.

Qeyb oldu dərviş. O qəzəbli Mahmud dinmədi. Əhməd almanı yarıdan böldü, yarısın qardaşı yedi, yarısın özü. Doqquz ayın tamamından sora arvaddarı bari-həmləni qoydu. Əhməd vəzirin bir oğlu oldu, Mahmud şahın bir qızı. Yeddinci gün el yığıldı. Camaat gözaydınnığına gələndə dedilər:

-Uşaqların adın da qoyaq.

Bütün camaat gördü qız elə gözəldi dedilər:

-Almadan əmələ gəlib. Qızın adını Alma qoyaq. Oğlan da çox qəşəhdi.

Atası dedi:

-Ma xaliq verib. Oğlanın adını Xaliq qoyaq.

Bıllar qaldı. Hər kişdə gəldi öz əvinə, amma Mahmud şah elə pisdiyini eliyir. Qız böyüdü. Ərsiyə çatdı. Əmələ gələnnən sora şahlar-vəzirlər nə qədər elçi gəldi Mahmud verməк istədisə də qız getmədi. Bir gün Əhməd vəzir arvadına dedi:

-Mənim şahlığa taxdığım üzüyü də ver, qəşəh paltarımı da geyinim, qardaşımın evinə elçi gedim. Dərviş bizə belə deyib, qızı alam oğluma. Oğlan dedi:

-Ata, getmə. Mən bu gecə yuxu görmüşəm.

Dedi:

-Nə yuxu?

Dedi:

-Yuxuda gördüm ki, ildırım düşdü, həyətimizdə ağacımız parçalandı. Düşdü yerə, evimizin bir tərəfi uçdu.

Dedi:

-Yuxudu eybi yoxdu. Yuxunu yozan bilər. Allah qoysa heç-zad olmaz. Ay oğul, qəlbı gen tut. Gedirəm sa qız almağa.

Oğlan bir də təkrar elədi. Ata, getmə, yuxu görmüşəm Əhməd vəzir baxmadı sözünə. Durub üzüyü taxdı barmağına, qəşəh paltar geydi. Getdi otdu qardaşının elçi daşının üstündə. Mahmuda xəbər apardılar ki, qardaşın Əhməd vəzir oturub elçi daşının üstündə. Şah dedi:

-Yüz it küçüyüm ola. Onun oğluna verməнəm. Gedin gətirin bıra.

Getdilər Əhməd vəziri gətdilər. Dedi:

-O daşın üstə niyə oturmusan?

Dedi:

-Elçi gəlmişəm.

Dedi:

-Kimə?

Dedi:

-Sənin qıza. Almanı verən belə deyib, elçi gəlmişəm.

Dedi:

-Cəllad…

Vəzir dedi:

-Ə qardaş, hansı elçini tarixlərdə öldürüblər? Mən gəlmişəm, qızı verirsən ver, vermirsən vermə. Cəllad nədi?

Mahmud dedi:

-Cəlladı çağırıram boynu vıram.

Vəzir dedi:

-Ağlın olsun. Neçə müharibələrdən səni qutarmışam, tədbir töhmüşəm. Şəhər camaatın mən saxlamışam.

Cəllad gəldi. Tutdular qolların dalda bağladılar. Cəllad kişinin boynunu vurdu. Xəbər çatdı oğluna. Oğlu Xaliq gəldi girdi içəri ki, atasının meyidini aparsın. Dedi:

-Əmi, yaxşı elədin öldürdün. Mən atama dedim yuxu görmüşdüm. Baxmadı sözümə. Meydi ver götürüm gedim.

Ikinci cəlladı çağırdı Mahmud. Dedi:

-Cəllad gəlsin qardaşımın oğlunun boynunu vırsın.

Bu sözü eşidən camaat əli nə tutdu aldı, hücum elədi şahlığa. Sən Əhməd vəzir kimi vəziri- öz qardaşını öldürmüsən, bizə sənin kimi şah lazım dəyil. Bı qışqırığın, qiyamətin ortasında almanı verən qapıdan girdi. Əhməd vəzirin qollarını aşdırıb, başın bədəninə qoydurub, iki rəkət hacət namazı qılannan sora Əhməd vəzir ayıldı. Almanı verən gedib oturdu şahlıq taxtının üstündə qızın əlin gətdi verdi oğlanın əlinə. Dedi:

-Bılların mayasın mən vermişəm. Mən də bılların əhdin oxuyuram. Oğlanınan qızın kəbinin oxudu. Kəbini oxuyub qutarıncan dedi:

-Bir adam girib görsün ki, Mahmud şah neyniyir?

Girdilər ki, Mahmud şah qəlyan çəkirmiş, oturduğu yerdə od tutub yanıb kül olub. Əhməd vəziri qoydular Mahmud şahın yerinə.

Almanı verən tədbir tökdü. Oğlanınan qıza 40 gün toy elədilər. Almanı verən dedi:

-Əhməd vəzir 40 gündən sora dünyanı dəyişəssən. Oğlu qoy yera. Qız da oğlana vəzir olar. Allah istədiyi dostun hər yerdə istiyir. Allah- tala gözəgörünməzdi, yaratdığına ruzi verəndi, yaratdığın yaşadandı. Onnar şad-xürrəm yedi, yerə keçdi.

**(72)**

## QONAĞIN NAĞILI

Biri varmış, biri yoxmuş. Bir kişi varmış. Bir gün ona qonaq gəlir. Yemək vaxtıymış. Kişi deyir ki, arvad, tez ol, yemək gətir. Arvad çörəyi qoyur ortalığa. Yemək də küftə-bozbaşımış. Bozbaşı yeyirlər. Elə küftəyə isitiyir əl ata, birdən qonaq deyir:

-Qardaş…

Deyir:

-Bəli, qardaş. Arvad, küftənin üstünü ört soyumasın, qonağın sualının cavabını verim.

Deyir:

-Ay qardaş, sən nə bilirsən ki, mən nə sual verəciyəm, ona da cavab verəsən.

Deyir:

-Yox, arvad, küftənin üstünü ört. Qardaş, mən bu yoldaşımnan əmioğlu-əmiqızıyıq doğmaca. Göbəkkəsmə bir-birimiznən nişanlıydıq. Vaxt o vaxt oldu ki, böyüdük. Amma onu deyim ki, əmim varlıydı, atam kasıb. Bir gün dedilər ki, mənim bu əmiqızımı ayrı bir varlıya ərə verirlər. Gəldim bunlara ki, soruşum bu yalandı, gerçək. Məni elə qarşıladılar ki, utandım, bir şey demədim bunlara, qayıtdım gəldim. Aradan üç-dörd gün keçdi. Dedilər, nişan qoyurlar. Yenə gəldim, əmim dedi:

-Həyəcanlısan, nə var, nə deyirsən?

Dedim:

-Əmi, axı belə eşitmişəm.

Dedi:

-Sənə vermiyəciyəm.

Dedim:

-Niyə?

Dedi:

-Sən kasıb bir adamsan. Mən kasıba qızımı verməRəm, gedə səhər ac qala.

Dedim:

-A kişi sən mənim əmimsən. Niyə əhdindən dönürsən?

Dedi:

-Yox, vermiyəciyəm.

Dedim:

-Onda mənə möhlət ver.

Dedi:

-Möhlət verirəm sa, get heç olmasa toy xərcini qazan gətir, öz əlinin əməyinə, mən qızımı verərəm sa.

Dedim:

-Əhdindən dönmərsən?

Dedi:

-Yox, dönmənəm, get.

Durdum gəldim. Evdə də anamdı. Atam dünyasını dəyişmişdi.

Dedim:

-Ana, mənə bir az yol çörəyi qoy, gedirəm.

Anam dedi, ay oğul, əmin bəlkə səni aldadır?

Durdum, bir də bir atımız vardı, mindim gəldim. Bir xeyli yol gələndən sonra möhkəm susuzdamışdım. Su axtarırdım ora-bura, gördüm bir ağacın dibində bulaq var. Burda düşdüm çörək yedim. Fikirliydim, başımı qoydum yerə yatdım. Bir az keçdi, gördüm bir nəfər məni durquzur. Durdum gördüm bir nəfərdi. Atı bağlayıb bu da, çörək açıb ortalığa yeyir. Dedim ki, mən yemişəm. Məcbur elədi məni ki, yeyəcəksən. Bir-iki tikə yedim, gördüm bunun əlində tatar var. Dəstəyi qızıldandı. Atının üzəngisi qızıl, qaşı qızıl. Fikirləşdim ki, belənçi bir adamı allah-taala mənə yetirib. Elə bir təhər eliyib bunu öldürərəm. Bu şeyləri apararam. Elə bir toy yox, on toy eləmək olar. Məndən soruşdu ki, oğlan, hara gedirsən? Dedim:

-Elə-belə, gedirəm qazanc əldə eləyim, nişanlımı gətirim.

Dedi:

-Allah əhdinə çatdırsın.

Bu atını qabaqda sürür, mən də bunun dalınca. Yenə ürəyimdən keçdi ki, elə qabaqdadı, özümün də belimdə bir xırdaca xəncərim var. Bunu vuraram ölər, bu şeyləri yığışdırıb götürüb gedərəm. Bu döndü ma belə baxdı. Dedi:

-Bala, fikrini dəyişmə. Gəl arxamcan, inşaallah, sənin əhdini yerinə yetirərik. Bir az keçəndən sonra yenə şeytan ma dağdağa verdi.

Bəlkə danışdım eşitdi. Qəflətən elə belimdən tiyəni çəkirdim ki, bunu vuram. Yapışdı mənim sinəmdən, qoydu yəhərin başına, möhkəm məni əzişdirdi. Qoydu atın üstünə. Dedi:

-Gəl mənim dalımcan. Adam anasının oğlu olmaz, atasının oğlu olar. Mərd olar, namərd olmaz. Qonaq dedi:

-Ay qardaş, sənin bu nağılın çox çəkər. Qoy küftəmizi yeyək. Kişi dedi:

-Soruşmayaydın. Soruşmusan, qoy deyim.

Kişi çıxdı dikin başına dedi:

-Bax görürsən çadırı, get ora, mən də belə gedirəm. Indi bir-iki saatdan sonra qayıdacağam. Sənə nə lazımdı verəcəyəm. Gedərsən toyu eliyərsən.

Çadıra yaxınlaşanda bir cavan gəlin çıxdı mənim atımı tutdu. Mən atdan yendim. Atı ötürdü belə səllimi. Məni içəri dəvət elədi. Su tökdü, əlimi yudum. Ortalığa çörək gətirdi. Gördüm gəlindən savayı heç kəs yoxdu. Axşam şər vaxtı oldu, kişi gəlib çıxmadı. Xeyli keçdi gəlin bir pərdə tutdu. Pərdənin o tərəfində mənə bir yer saldı. Allah şeytana lənət eləsin, məni qoymadı yatmağa. Durdum, oturanda gəlin əlində aftafa başmaqlarımı cütlədi.

Çölü hərləndim gəldim. Əlimi atdım elə bu pərdəni qaldıranda, gördüm təpəmdən bir zərbə dəydi. Huşumu itirdim. Səhər gözümü açıb gördüm nə təhər vurubsa başım yarılıb. Başımı da sarıyıb. Dedim:

-Dədəmin evi yıxıldı. Indi kişi gələndə yəqin deyəcək məni öldürəcək. Gördüm kişi o yandan yel kimi gəldi, arvad cumdu bunun yanına, məni qarşıladığı kimi qarşıladı. Kişi dedi:

-Bıy, qonağın başı niyə yarılıb?

Arvad dedi:

-Dünən at vurdu.

Gətirdi ortalığa çay-çörək qoydu. Çay-çörək gedər boğazımızdan? Fikirləşdim ki, arvad yəqin buna dedi, indi bu məni öldürəcək.

Gəlinə dedi:

-Əmiqızı, buna toy tədarükü lazımdı.

Mənə də dedi:

-Dur get o tərəfdə ilxı var. Bir at tut gətir. Sənin atın axmaq atdı. Yerimir.

Bir at tutdum, dedim yekə atdı, zirəng olar. Gəlin çıxdı, əlin vurdu əlinə güldü. Çağırdı ki, əmioğlu, gəl gör nə gətirib. Dedi, əmiqızı, get özün bir at tut gətir. Gəlin getdi fikirləşdim bunu göndərdi o tərəfə ki, məni

öldürsün. Aradan bir az keçdi, gördüm bir at minib elə gəlir ki, ta nə təhər. Kişi dedi:

-Atı yəhərlə.

Gəlin atı yəhərlədi. Cilovu saldı başına. Buna bir də qamçı verdi. Dedi ki, yəhər qaşı da toy xərcindi, götür. Götürdüm saldım atın üstünə. Atınan tərpəndim. Dedilər:

-Get, allah işini avand eləsin. Xoşbəxt yaşayasız.

Gedirdim, ağlımdan keçirdi ki, indi daldan gəlib məni öldürəcək. Bir belə şeyi mənə niyə verir ki... Diki aşdım. Həmən bulağa çatanda gördüm bir toz duman gəldi. Gördüm həmin gəlindi.

Dedi:

-Get de ki, qazandım, aldım gətirdim. Indi də toyumu eliyirəm.

Bu ata dəydi, çıxdı getdi. Əyildim bulağa ki, əl-üzümü yuyam, gördüm üzüm-gözüm qan içindədi. Əyildim suya baxdım. Gördüm burnumdan qan tökülür. Bu toz kimi keçəndə əlin atıb mənim burnumun burasından elə-belə barmağıynan götürüb gedib. Qardaş, indi sən məndən soruşacaydın ki, burnuna nə gəlib? Elədi?

Qonaq dedi:

-Hə

Dedi:

-Arvad küftəni gətir yeyək.

-Gətirdiyim şeyləriynən toyu elədik. Əmiqızımı aldım. Indi də yaşayırıq. Əmiqızı, yalan deyirəm, düz deyirəm?

Dedi:

-Hə, düz deyirsən.

Kişi də, qonaq da rahatlandılar. Burda nağıl qurtardı. Göydən üç alma düşdü. Hamısı qulaq asanların.

**(73)**

## ALLAH ƏMRI

Biri varmış, biri yoxmuş. Bir gəlin varmış. Gəlinin iki uşağı varmış. Gəlin yuxudan tez ayılar, vaxtlı qalxarmış, çeşmiyə, çaya gedərmiş. Çaydan təmiz su götürərmiş. Bir gün gedir, görür bir dənə çörək suyun qırağıynan gəlir. Deyir, yəqin hardansa düşüb. Ikinci gün gedir, görür yenə biri gəlir. Üçüncü gün gələndə düşür bunun dalına. Suyun qırağınca gedir ki, görsün çörək nə olacaq. Qaya kimi yerdə altdan bir tüklü əl uzanır, çörəyi tutur. Üstdən çığırır ki, kimdi o çörəyi tutan. Deyir:

-Ay bala, bil, agah ol, gündə bir çörək allahdan ma urzadı. Gəlir burda tuturam.

Deyir:

-Sən nəçisən? Nə karasan ki, orda qalırsan?

Deyir:

-Mən tale yazıram. Kimin də başına nə gələcəksə, onu da bilirəm.

Gəlin deyir:

-Yaxşı, indi mənim başıma nə gələcək? De, eşidim.

Deyir ki, vaxt olacaq, öləssən. Dəfn eliyəcəklər səni. Bir gecə qəbirdə qalassan. Səni səhərisi qəbirdən xilas eliyəcəklər. Kişi deyən kimi də olur. Qaraçı köçü gəlirmiş, gəlin qəbirdən qışqırır:

-Ay ma kömək, məni burdan qurtarın, ölməmişəm. Zənən də varmış, kişi də varmış köçdə. Çönüllər səs təzə qəbirdən gəlir, bunu çıxardırlar. Görürlər bir qəşəng gəlindi. Əyin- dəyişəyi salırlar bunun başına. Götürüb gedirlər. Ta bu kəndə gəlmirlər. Bunu aparırlar. Orda bir evladı da olur. Ikisi də bırda. Bu gecə-gündüz ağlıyır. Bundan soruşurlar ki, yaxşı, iki uşağın vardı, biri də oldu. Səni ölümdən qurtarmışıq niyə ağlayırsan? Deyir:

-Yox, mən elə o uşağımı, o ayiləmi istiyirəm. Elə bunu deyir. Cana yığır hamını. Bunu gətirib qoyurlar həmən qəbirin qırağına. Şər vaxtına düşür, qayıdıb gedirlər. Deyirlər: - hara gedirsən, get. Bu gəlib çıxır, evin dal tərəfində oturmağa yer varmış, Yaşmaqlanır, fikirləşir ki, indi gələn olacaq, eşiyə çıxacaq, görüm ərim evlənib-evlənməyib. Görür qaynanası çıxdı eşiyə. Bu dik durur ayağa, buna salam verir üzüörtülü. Qaynanası soruşur:

-Ay bala, sən kimsən bu vədə burda əyləşmisən? Evə gəlmirsən?

Deyir:

-Tanış deyiləm, qərib bir adamam. Xalam o biri kənddədi, ordan gəlirdim. Bu qapıya rast gəlib əyləşmişəm ki, bəlkə burda məni bir adam evə apara.

Arvad deyir:

-Ay bala, dur gedək evə. Gələ-gələ arvad dərdini açır. Deyir ha belə, gəlinin başına bu iş gəlib, uşaqları yetim qalıb. Deyir bə, oğlum da evlənmiyib. Iki də uşağı var, qalmışam elə onların əlində. Qapıdan girir, bu uşaqlar yapışır gəlindən. Gəlin də bunlarınan çox mehriban görüşür. Arvad deyir:

-Ay bala, bu uşaqlar nə yaxşı yapışdı sa.

Qız deyir:
-Uşağım yoxdu, bilirlər, ona görə ma mehr saldılar.
Axşam gəlir. Arvad çıxır qapıya, deyir ki, a bala, qonağımız var. Deyir:
-Kimdi?
Deyir:
-Tanımadığım bir gəlin oturmuşdu qapıda, gördüm, gətirdim evə.
Deyir:
-Bə bilmədin kimdi?
Deyir:
-Soruşdum, dedi, qərib adamam, kənar kənddən gəlirəm.
Oğlan gəlir evə. Bu oğlanın ayağına durur üzüörtülü. Oğlan çıxır eşiyə, anasını çağırıb deyir:
-Bunu dərindən öyrən kimdi? Əri var, yoxdu?
Deyir:
-Soruşmuşam, a bala, əri yoxdu. Uşağı olmuyub, boşuyublar.
Bunlar çox arxayın olurlar.
Oğlan deyir:
-Elə gedəciyəm mollaya, kəbin kəsdirəm, bunu allah yetirib. Qalsın evdə. Molla baxır kitaba, baxır buna, fikirləşir. Kişi soruşur:
- Niyə belə fikirlisən?
Deyir:
-Bax bu qadın sənə kəbinlidi.
-Əşi, etmə-eləmə, necə yəni kəbinlidi?
Deyir:
-Hə, elə sənin öz ayiləndi.
Gəlirlər qız üzünü açır. Deyir:
-Mən sənin ayilənəm. Mən ölməmişdim, amma aparıb basdırmısız. Vaxtilə mən bir belə şey eşitmişdim, inanmadım, güldüm. Indi o gəldi başıma. Mən çığıranda qaraçı dəstəsi çıxardıb aparıb. Neçə ildi ordayam. Qəbul eliyərsən, genə də ayilənam. Qəbul eləmirsənsə, heç.
Əri deyir:
-Indi, bu allah əmridi. Sənin günahın deyil ki, heç sənin özündən də asılı deyil. Təzədən qadın ayilə-uşaq sahibi olur, xoşbəxt yaşayırlar.

**(74)**

## TOXMAĞIN NAĞILI

Biri varmış, biri yoxmuş. Bir toxmax varmış. Gedirmiş cəviz oğrruğuna. Gedibdi yolda qabağına bir ilan çıxıb. Deyib:

-Ay toxmax qardaş, hara gedirsən?

Deyir:

-Gedirəm cəviz oğurruğuna.

Deyib:

-Məni də apar.

Deyib:

-Gəl gedəh.

Gedib qabağına bir çölməh çıxıb.

Deyib:

-Məni də apar.

Deyib:

-Gəl gedəh.

Gedib qabağına bir iynə çıxıb. Deyib:

-Hara gedirsən?

Deyib:

-Cəviz oğurruğuna.

Deyib:

-Məni də apar.

Deyib:

-Gəl gedəh.

Gedib qabağına bir xoruz çıxıb.

Deyib:

-Hara gedirsən?

Deyib:

-Cəviz oğurruğuna.

Deyib:

-Məni də apar.

Xülasə, gedib giriblər bir əvə. Ilanı qoyublar taxçıya, toxmağı atıblar qapının başına, iynəni sancıblar təndirin başına, bir də bir mal gedirmiş, onu da qoyublar damın üstünə. Xoruzu da basdırıblar külə. Cəvizi götürəndə arvad deyib:

-A kişi, dur cəvizi oğurradılar.

Durur kişi qaçır taxçaya əlin atır ilan əlini çalır. Qaçır qapının ağzına toxmax başınnan vırır. Durur qaçır təndirin başına iynə batır

ayağına, gedir ocağa sarı xoruz gözünü külünən doldurur. Ordan cəvizi götürüllər, gəlillər. Burda nağıl qutarır. Göydən üç alma düşdü.

**(75)**

## IKI QARDAŞ

Biri varmış, biri yoxmuş. Kənddə bir ayilə yaşayırmış. Bunların iki oğlu varmış. Valideynləri öləndən sonra bu qardaşlar tək qalırlar. Bunun böyüyünə ağıllı qardaş, kiçiyinə dəli qardaş deyərmişlər. Bunların bir inəyi varıymış. Bu inəyin südüynən dolanırmışlar. Bu dəli qardaş hər gün inəyi aparır çöldə otarmağa. Ağıllı qardaş da ev işlərinə baxırmış. Bir gün dəli qardaş inəyi aparanda görür ki, bir daşın üstündə ağ siçan oynuyur. Deyir:

-Siçan qardaş, bu inəyi mən satıram.

Siçanın oynamağını razılıq kimi başa düşür.

-Inəyi on qızıla satıram, - deyir.

Guya siçan hərəkətləriynən razılıq bildirir. Dəli qardaş inəyi orda qoyub çıxır gedir. Ağıllı qardaş deyir:
Inəyi neynədin?

Deyir:

-Inəyi satdım.

Deyir:

-Kimə?

-Çöldə bir siçan vardı, ona satdım.

Deyir:

Siçanın pulu var sənə verə?

Dəli qardaş deyir:

-Başıynan işarə elədi ki, alıram da. Pulunu da sonra verərəm.

Ağıllı qardaş deyir ki, dur gedək, inəyi canavar yeyər. Gəlirlər ki, inəyi canavar yeyib, siçan da daşın üstündədi. Dəli qardaş deyir:

-Ay siçan, bə mən sənə inəyimi vermişəm. Inək hanı? Hirslənir. Ağacı tulluyur, siçan qaçıb girir daşın altına. Daşı qaldırırlar ki, guya siçanı öldürsünlər. Görürlər ki, daşın altı qızıldı. Bunlar qızılı yığışdırıb gəlirlər. Qaranlıq düşürmüş. Qonşu varmış, Vəliqulu. Bunlardan soruşur ki, bə siz nə aparırsınız, neynirsiniz. Nə qədər yaxa qurtarmaq istəsələr də bu əl çəkmir. Görür axı, bunların şələsi ağırdı. Vəliqulu əl çəkmir ki,

mənə də qızıl verin. Dəli qardaş da möhkəm acmışımış. Başlıyır özünə horra bişirməyə. Ağıllı qardaş görür ki, Vəliquluya gücü çatmıyacaq, əlbəyaxa olurlar, bu vaxt Vəliqulunun ayağı ilişir qardaşın horrası tökülür yerə. Dəli qardaş hirslənir, özü də çox güclüymüş. Vəliqulunu alır başına çırpır yerə. Vəliqulu ölür. Indi Vəliqulunu neyləsinlər, qorxurlar. Bunların bir dərin quyusu varmış. Aparıb Vəliqulunu salırlar quyuya. Ağıllı qardaş gecə çox fikirləşir ki, bu dəlidi, sabah camaat içində danışacaq. Indi Vəliqulunun adamları bunu axtaracaq. Bu da deyəcək ki, öldürüb atmışam quyuya. Bizi tutacaqlar. Gecə olur, Vəliqulunu quyudan çıxardır, bunun əvəzinə bir keçini boğub atır quyuya. Vəliqulunu da basdırır. Sabah kəndə yayılır ki, Vəliqulu yoxdu. Dəli qardaş deyir Vəliqulunu öldürüb atmışam quyuya. Soruşurlar:

-Hara atmısan?

Deyir:

-Odu, quyudadı.

Dəli qardaşın belinə ip bağlayırlar. Sallayırlar quyuya ki, ipi bağla Vəliquluya, çəkib çıxardaq. Dəli qardaş baxır qaranlıqdı. Əliynən yoxluyur, ki, bunun buynuzu var. Ordan deyir:

-Vəliqulunun qoşa buynuzu vardı?

Deyirlər: - Hə, var.

Deyir:

-Vəliqulunun qulaqları uzundu?

Deyirlər:

-Hə.

-Vəliqulunun saqqalı da var? Vəliqulunun dörd ayağı var? Deyirlər:

-Hə.

Hər nə soruşsa, hə, deyirlər ki, bunu çıxartsın. Ipi bağlayır, çıxardırlar. Baxırlar ki, bir keçi ölüsüdü. Ağıllı qardaş gəlir ki, o ağılsızdı. Bu keçinin adı Vəliquludu. Keçi də dünən ölmüşdü. Biz də atmışdıq quyuya. Siz dediniz Vəliqulu yoxdu. Bu onu başa düşüb. Hə, ordan qardaşlar canlarını qurtarır. Bunları tutmurlar. Gətirirlər qızılları ağıllı qardaşın sayəsində yeyib dolanırlar. Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağıl deyənin.

**(76)**

## ILANIN NAĞILI

Biri varmış, biri yoxmuş. Bir kişi varmış. Bunun da yaxşı bağı, bağbanı, bircə də bir oğlu varmış. Bunun oğlu bir həftə yoxa çıxır. Tapılmır. Fikirləşirlər, ay allah, bu elə cavan deyil. Çox belə sədaqətli, etiqadlı, inamlı, insaflı, səxavətli, çox gözəl bir oğlandı. Nə təhər olub belə cavan yoxa çıxdı. Kişi dedi:

-Ilahi, bu elə əyri yola gedən deyil. Nə dili azmaz, nə ayağı səpməz, nə əli səpməz.

Bir həftədən sonra bağban gəldi, gördü ki, bir dənə ilan beləsinə dolanıb bu oğlanın hər yerinə. Başı yekə, çaynik kimi, gözünü dikib bunun gözünə. Nə vurmur, nə də düşüb getmir. Bunlar söhbət eliyir. Bağban baxdı-baxdı, dalı-dalı çəkildi. Gəldi oğlanın atasına dedi ki, insana tez şad xəbər də vermək pisdi, qara xəbər də vermək pisdi. Qorxma, özünü ələ al, sa bir yaxşı söz deyim, kişi dedi:

-Nədən qorxacam? Allahdan savayı heç nədən qorxmuram.

Bağban dedi:

-Bə oğlunu tapmışam. Sappasağdı, heç nə olmuyub. Oğlun bağda yatıb. Ancaq yuxuya gedib. Bilmirəm vergi verilib, nədisə, bir dənə ilan dolaşıb buna, qoymur ayağa qalxa. Kişi gəldi bağa, belə baxdı. Bağban çəkildi dala, kişi baxdı gördü ki, elə həqiqətən oğlu yatıb, irəngi özündə. Ancaq danışır. Ilanın dilini bilir. Dedilər ki, soruş ki, məni niyə vurmursan? Vurursan vur get, xoşa gəlmirəm vur, ya da nə istiyirsən istə da, axı mən dura bilmirəm.

Oğlanın atası qayıtdı ki, ey allahın yaratdığı heyvan, səni də allah yaradıb, məni də allah yaradıb. Öz insafa, öz dinə görə səni yaradana and verirəm, nə sözün var de. Yeganə bir oğlum var, ver aparım. Ilan dedi:

-A kişi, bir halda ki, məni yaradana and verirsən, oğlun cırıq paltar, cırıq çarıq geysin, bir də dağarcıq götürsün, yeddi kənddə dilənsin. Mən də onu ötürüm.

Kişi tutuldu. Dedi:

-Bə səni yaradana qurban olum, bə mənim malım, ilxım, heyvanım. Mənə nə deyərlər?

Dedi ki, yox, yeddi kəndi dilənməsə oğlunu ötürmərəm.

Kişinin əlacı kəsildi. Harda cırıq paltar varıdı, bunu geyindirdi. Ağlaya-ağlaya, qüssələnə-qüssələnə dedi:

-Sən yazmısan, sənin yazından çıxa bilmərəm.

Kişi oğluna dedi:

-Oğul, bu şəhər səni tanıyır, aş dağın o üzünə, orda bizi bəlkə heç kim tanımadı.

Bu oğlana biri buğda verirdi, biri əriştə, belə-belə yeddi kəndi dolandı. Ilan da bədənində. Üstdən paltar geyinib. Ilan dedi:

-Gedək bağa, indi atan gələcək.

Atası gəldi.

Dedi:

-Gətridin oğlumu?

Dedi:

-Gətirdim. Əvvəl allahın yazısı yazılıbdı, bu bir. Ikincisi, ata balasız, amma sənin bu oğlundan sənə oğul çıxmıyacaq.

Dedi:

-Niyə?

Ilan dedi:

-Bunda o qədər sədaqət, o qədər üzündə pərdə vardı ki, ataya, anaya, amma mən ki, bunu dolandırdım, üzünün pərdəsi götürüldü. Allah heç kimi dilənçi eləməsin. Indi ki, üzünün pərdəsi götürüldü, sa layıq deyil, ma layıqdı. Oğlanın ayağından vurdu, qapqara qaralandan sonra canı çıxdı. Ilan dedi:

-Oğlan bu dünyanın deyil. Mən aparıram, - dedi getdi.

Kişi ağlamadı. Oğlunun meydini götürdü. Kor-peşman evə qayıtdı. Burda nağıl qurtardı.

**(77)**

## PADŞAH QIZI

Bir padşah olur, bunun da bir qızı. Bir gün bir yel qalxır. Bu yel qızı götürür. Indi bir saat-iki saat qara buludların arasında qız bilmir yerlə gəldi, göylə gəldi. Yel gətirir bir daxmada qızı qoyur yerə. Qız baxır ki, kasıb bir yerdi. Qara divar. Bir arvad tumanın bu yana çəkir, o yana çəkir. Əyni-başı cındır. Arvad çıxır ki, bir gözəl-göyçək geyimli, aya bənzər qız durub. Deyir:

-Qızım, orda niyə durmusan?

Deyir:

-Vallah, yuxu tutub, köç gedirdi, köçdən düşmüşəm. Indi bilmirəm bura haradı? Dalımca gələn ola-olmaya, məni heç arayıb-axtaran yoxdu. Icazə verirsən nənə, mən gəlib sizdə bir havır dincəlim. Indi bəlkə bir günə, iki günə gələlər dalımca, onu da bilmirəm.

Deyir:

-Bıy ay bala, qurban olum gəl. Görür orda bir qazan var, daşıb-gedir, kasıb yer, cır-cındırın içində. Bir xeyli fikirləşir, deyir ta mən

durum burdan hara gedim. Kimin qapısını açım, qız xeylağıyam. Pisin qabağına çıxaram. Bəlkə atam gəldi, məni tapdı.

Qız dedi:

-Nənə, bəlkə burda dükan ola.

Dedi:

-Var, niyə yoxdu.

Dedi:

-Məni apararsan?

Dedi:

-Niyə aparmıram.

Gedib görür yaxşı dükan var. Nağılçı dili yüyürək olar, nağıl söhbəti şirin olar. Gəlir siftə arvada bir dəst paltar götürür. Ayıbdı axı, qolu-ayağı görünür, yanınca gəzməyə utanır. Qız deyir:

-Nənə, nə götürürsən götür.

Deyir:

-Ay bala, mənim pulum yoxdu.

Qız deyir:

-Nənə, mən pulunu verəciyəm.

Qız qolbağını açır, evə nə lazımdı alıb gətirir. Görür kişi yatıb. Baxır biri beş inək qatıb qabağına aparır. Biri iki inək qatıb aparır. Soruşur ki, naxırçı yoxdu?

Arvad deyir:

-Yox.

Deyir:

-Niyə, nolar qatın bu kişinin qabağına, aparsın. Aparıb otara bilməz ?

-Deyir ki, mənə demirlər axı.

Qız deyir:

-A kişi sən demiyincə xalxın nə işinə qalıb? Dur, əmi, sən o malları apar. Haqqını da al. Niyə getmirsən burda ac-acına oturmusan. Işləməyin dərdindən yeməyə həsrət qalmısan.

Qız kişini göndərir. On evin inəyini aparır otarmağa. Axşam hərə bir əppək gətirir. Bir inəyi olan bir əppək, iki inəyi olan iki əppək. Il başına da bir pud buğda verirlər. Görür hərə üç-dörd quzu qatıb qabağına aparır. Nənə, niyə siz gedirsiniz? Bir uşaq tapıb yollayın. Arvad deyir:

-Vallah, gedən yoxdu. Bir gün nobata qoyuruq o gedir, bir gün bu gedir.

Qız deyir:

-Oğlun yatıb, onu oyat getsin.

Beləliklə, oğlanı da quzuya göndərir. Gözləyirlər ki, qızın dalınca gələn olar. Bir ay, iki ay keçir, heç kim gəlmir.

Qız car çəkdirir. Biri bir manat verəndə, mən beş manat verəcəyəm, deyir. Qız bir dam-daş saldırır, adam deyir xan dam-daşıdı. Qızı belə görəndə, ordan istiyirlər, burdan istiyirlər. Qız deyir:

-Ana, hər kişdənin daşı da var, divarı da var. Yarı dindir özün gör, ev yıxar ara sözü. Nənə, hazır sənin oğlun ola-ola, daşımız-divarımız ola-ola mən niyə gedim xalxa? Cəfa çəkib əziyyət görmüşəm.

Arvad deyir:

-Nə bilim axı, qağa demisən...

Deyir:

-Sən anam, o da atam, razıyam.

Gedirlər bu qızın kəbinini kəsdirirlər oğlana. Dil yüyrək olar. Bir il keçir, bunun bir uşağı olur. Bunun adın kim qoysun, kim qoymasın, əşi qərib qızdı elə uşağın adını da o qoysun, deyirlər. Deyir:

-Uşağın adını qoyun "Haragetdi".

Qızın atası çox əzab əziyyət çəkirdi, sıxılırdı amma açıb ağartmırdı. Bir gün yatanda buna yuxuda dedilər ki, başına tac qoy, əlinə dəmir əsa al, ayağına dəmir çarıq gey. Çarığın ucu yeyiləndə, əsanın qırağı yeyiləndə, tacın yanları yeyiləndə qızı taparsan.

Padşah bunu nə açmadı, nə ağartmadı. Başladı diyarbadiyar gəzməyə. Allah gətirdi bu qıza bir oğul da verdi. Biri dedi Sicimqulu qoyaq, biri dedi Örkənqulu qoyaq. Hərə bir ad deyəndən sonra, bunun da adını qoydular "Hardaqaldı". Nağıl dili yüyrək olar. Gününüz xoş olsun. Bir il də keçdi, allah-tala gətdi, kəráminə xoş getdi, bir oğul da verdi. Bunun adını da qoydular "Necəoldu".

Bunlar irilmişdi. Qız uşaqlara dedi:

-Gördünüz ki, bir adam gəlir, kimsəsi yoxdu, qonaqçısı yoxdu, gəlib babandan icazə alarsınız, onu gətirərsiniz evə.

Padşah çox yorulmuşdu. Göz gəzdirdi, bir bulaq gördü. Əyilib sərin sudan içəndə belə baxdı ki, çarığın ucu yeyilib, tacı başından götürdü ki, qıraqları yeyilib, əsaya baxdı ki, yanı yeyilib, dedi:

-Ilahi, alan da sənsən, verən də sənsən. Gah verərsən gah alarsan, gah bəzərsən gah pozarsan.

Kişi gəldi çıxdı uşaqlar oynuyan yerə. Gördü uşaqlar aşıq oynuyur, biri aşığın birini götürdü qaçdı. O biri uşaq dedi:

-Qardaşına öyüd ver!

Uşaq soruşdu:

-Nə olub?

Dedi:

-Necəoldu aşığı götürdü qaçdı.

Kişi bu qəribə adlardan duruxdu qaldı. Fikirləşdi ki, belə adları mən tarixdə eşitməmişəm. Heykəl kimi durdu. Günortadan keçirdi. Uşaqlar da baxırdı. Adam azalırdı axı, bu kişi elə əlin qoydu üzünə necə nə təhər oynuyurlar, baxdı. Dedilər:

-Babacan, qonaqçın var?

Dedi:

-Xeyr.

Dedilər ki, onda qoy gedək icazə alaq, səni aparaq.

Uşaq gəldi babasına dedi ki, babacan, orda bir dərviş durubdu, kimsəsi yoxdu. Soruşdu ki, qəsidə deyir? Dedilər:

-Yox elə deyir: "Alan da sənsən, verən də sənsən, gah alarsan, gah verərsən, gah bəzərsən, gah pozarsan". Belə-belə sözər oxuyur.

Qız barmağını dişlədi. Getdilər gətirdilər. Gələn kimi qız tanıdı. Ata tanımadı. Yaxşı hörmət qoydular. Hardan gəlmisən, hara gedirsən. Kişi dərin bir köks ötürdü. Dedi:

-Nə bilim. Elə-belə cəlayivətənəm.

Soruşdular:

-Evin-eşiyin, məmləkətin?

Dedi:

-Məmləkətim də var, adım-sanım da var. Allahın yazısı, fələyin qəzasıynan gəzirəm. Kişi başına gələnləri nağıl elədi ki, ta bunu gizlətməyin mənası yoxdu.

Qız içəridən çıxdı. Allah cəmi həsrətliləri qovuşdursun. Itkinləri yetirsin. Cəmi cavanların qəddin yerə vurmasın. Qız dedi:

-Ata, qızın mənəm, nə ölməmişəm, nə itməmişəm, nə sənin başını alçaq eləməmişəm. O üçü də sənin nəvələrindi. Kişi uşaqları da götürdü, qızı da götürdü apardı məmləkətinə. Allah cəmi həsrətliləri qovuşdursun.

Göydən üç alma düşdü. Hamısı nağıla qulaq asanların.

**(78)**

# ILAN QIZ

Bir oğlan bir cada yolnan gedirmiş, baxıb görür ki, bir qız qayanın cabasında oturub. Bir gözəl nazənin qızdı. Bu qıza çox baxır-baxır, deyir:

-Aman allah, bax bu dadi-bistat yerdə elat gedib, bu qız niyə burda oturub?

Oğlan atı bağlayır bir ağaca, qalxıb çıxır o qayanın cabasına. Çıxır ora, çıxanda bu qıza salam verib deyir:

-Bacı, burda niyə oturmusan?

Qız deyir ki, ay qardaş, mən köçdən qalmışam. Ta belə düz yerdə, açıq yerdə istəmirəm ələ keçəm, elə qayanın burasın özümə sığınacaq qayırmışam. Nə bilim, burda yaşıyıram.

Oğlan deyir:

-A bacı, bə qabağı qışa gələcək, sən bırda neyniyəssən?

Qız deyir:

-Indi öləm-qalam, nəysə burdayam.

Oğlan deyir ki, indi sən icazə versən, səni aparım evə. Hesabda bu oğlan da gözəl olur, həm də subay olur. Buna çox meyli yapışır. Qız deyir:

-Gedərəm, Allah məni sənə urcah çıxardıb da.

Oğlan bunu alır atın tərkinə, ta indi hara ova gedəciydisə, deyir, elə mən ovumu tapmışam. Ata-ana, bacı-qardaş görür ki, nə ov eləmiyib, nə heç bir şey, amma bir nazəni xanım gətirir. Gətirir bunu atdan qoyur yerə, deyir:

-Ay bacım, ay qardaşım arvadı, buna biçin-tikin, yaxşı paltar geydirin, yemək verin. Bu köçdən qalıb, obadan ayrı düşüb.

Bunu yedizdirillər, geyindirillər, yaxşı evdə saxlıyıllar. Oğlanın bacıları deyir ki, elə indi ki, sən bunu tapmısan, saxlayaq gələn oba vaxtına kimi. Indi ki meylin bunadı, biz yiyəsiz toy eliyə bilmənik da, elə evdə qız kimi, bacın kimi saxlayaq. Elə ki, elat qayıdacaq, necə olsa, yiyəsi var da qardaşdan, bacıdan soraqlıyallar ki, ölüsündən-dirisindən qalır? Onda biz gedərik icazə alarıq. Deyərik, qızı biz gətirmişik, bacımız kimi gözümüz üstə saxlamışıq. Bizim də oğlan vurulubdu buna, icazə verin, sənni-mənni toy eliyək. Bu adnan, bu niyyətnən saxlıyıllar, el gələr. Indi bir qış dolanır, qalır oba köçməyə. Oğlan durur, atı minir, bu obadan o obaya, o dağdan bu dağa soraqlıyır. Sizin bir qızınız qalıbdı, biz tapmışıq, biz gətirmişik. Nə təər, necə, heç kim heç vaxt

demir ki, bizim adamımız itib, ya siz tapmısınız. Hər elatı gəzir, obalardan xəbər tutur. Sonra ta baxır, görür ki, bu belə deyil. Gəlir qıza deyir ki, vallah, neçə gündü bu dağları gəzirəm. Belə də bax, hər yerdə də, hər çadırın qabağında da bu söhbəti açıram. Axı sənin heç sahabın çıxmır. Qız deyir:

-A canım-gözüm, bəlkə itiblər. Indi ki, allah məni sa yetirib, məni sevirsən, mən də gəlib oturmuşam, bir ildi sənin çörəyini yeyirəm. Özünüzün fikriniz nədi, eləyin.

Aha, burdan arxayın düşəndən sonra bunlar gətirib toy eliyillər. Bunlar evlənir. Evlənəndən sonra beş keçir, üç keçir. Bir gün oğlan kəndi gəzirmiş. Oğlan da bir yaxşı sayılıb-seçilən adamıdı. Birdən xəbər gəlir ki, tacir gəlib, orda belə mal satır, par-parça satır. Bu oğlan deyir, gedim görüm mənim nişanlıma layiq paltar olarsa, alım aparım. Hə, oğlan gedir-görür bir gözəl parça var ki, elə gəlin buna yaraşır, bu da ona. Bundan neçə metr alır gətirir, deyir:

-Ay mənim xanımım, ay mənim gözəlim, gör sa necə paltar almışam.

Bu gəlin alır bunu əlinə, əninə-boyuna baxır, deyir:

-Bu nədi ki, nə olan şeydi ki, Qaf dağının otunnandı da. Yox, bunun o qədir ömrü olmaz. Parlaqlığına baxmaginən. Qaf dağının otundan hazırlanıb, bu bir şey deyil. Qaytar apar.

Oğlan bunu alanda axı tacir bunu ölçüb-kəsib verib. Tacir deyir:

-Oğlan, sən məni aldadırdın, ya nə təhər. Almıyacıydın, mənim malımı niyə kəsdirirdin?

Oğlan deyir:

-Vallah, mənim elə xoşuma gəldi. Aldım apardım. Yoldaşım bəyənmədi.

Tacir soruşdu:

-Niyə bəyənmədi? Bu gözəllikdə parçanı da bəyənməzlər?

Oğlan dedi:

-Aldı əninə-boyuna baxdı. Dedi ki, bu nəmənə şeydi ki, bunu bu qiymətə alırsan. Bu Qaf dağının otunnandı, oğlan belə deyəndə tacir buna bir az fikir verir, soruşur ki, ədə, o qızı sən hardan almısan?

Deyir:

-Ay canım, sənə nə var. Mənim pulumu bəri elə. Sa nə var mən bunu hardan almışam?

Indi şeytan ölmüyüb ki, deyillər ki, bir yerdən tapıb gətirib. Heç dədəsi bilinmir, nənəsi bilinmir. Amma gözəlliyinə söz yoxdu. Bu tacir uzun ömürlü olub hər şeyi bilirmiş. Oğlanın şəstinə-bəstinə baxır. Deyir:

-Ay oğlan mənim malımı qaytarırsansa, sözüm yox, amma o qızı əgər sən bir səhradan, bir xarabalıqdan tapmısansa, o qız ilandı. Oğlan deyir:

-Əmi, sən nə danışırsan, gözəlliyi bu, bir il elə-belə evimizdə saxlamışıq. Bacımınan yatıb, anamınan bir yerdə oturub durub. Axı o niyə ilan olur, bir ildən də sonra soraqlaşmışıq, elin-günün tapmamışıq, toy eləmişik. Sən nə danışırsan?

Tacir deyir:

-Oğlan, parçanı bəri elə, ala pulu, ancaq onu sən yoxluyub bilə bilərsən. Oğlan soruşur ki, nə təhər yoxluyum. Tacir deyir:

-Sən onu yoxlaginən. Əgər bir şey başa düşsən, adım bu, yerim-yurdum bu, xəbər verərsən, deyərəm ondan canını nə təhər qurtararsan.

Bu oğlan soruşur ki, axı mən onu nə təhər yoxluyum. Deyir ki, yorğun-yorğun hara get, hardan gəl, başını qoyginən gəlinin dizinin üstünə, denən, elə yorulmuşam, elə yuxum gəlir. Mənim başımı bir az sığalla, ənə-bənə, mən bir az yuxuya gedim.

Oğlan özünü vurur yuxuluğa, mışa-mış yatır. Bu əyilib baxıb görür ki, vallah, elə ha sığallayır oğlan dinmir. Bunun başını qoyur balınca, özü durur gedir unnuğa. Unnuğun qabağında bu cildi soyunur qoyur yerə. Ilan cildini geyinir, olur bir əjdaha. Əjdaha olandan sonra, dörd dirəkli evimiş, bu qalxır bu dirəkdən o dirəyə, o dirəkdən bu dirəyə. Bu tirin arasından, ordan-burdan bir siçandan, qurddan-quşdan udur. Udandan sonra oğlan gözünün altından baxır, aman allah, bunun əlindən nə qurtarar? Ta heç, sus-pus dinmir. Siçandan-zaddan tutandan sonra, görür, yavaş-yavaş dirəklərə sarınıb gəlir. Belə olandan sonra bu yerə düşəndə oğlan bir eh eliyir, ənə-bənə qolun-qıçın tərpədəndə, bu tez cilddən çıxır, olur həmən qız. Deyir:

-Getmişdim su içməyə.

Axı başı bunun dizinin üstəydi. Oğlan durur, deyir:

-Mən səfərə çıxıram.

Bilir ki, indi bu tacir hara gedəcək. Atı minir, düşür tacirin dalına. De bu kənd, o kənd, ənə-bənə, burdan gedir, hay vurur-çıxır Şəki, Bakı, taciri tapır, deyir:

-Ay əmi, sa qurban olum. Bax mən belə gördüm. Elə sən deyən düzdü. Bu bir əjdahadı ki, bunun əlindən qaçıb qurtarmaq olmaz. Tacir deyir:

-Ay oğlan, onu sən indi o qədər oxşayırsan ki, səni sığallayıb-tumarlayır. Elə ki ona bir şillə vırassan ha, elə səni vuracaq ki, qara tuluq olassan.

Oğlan deyir:

-Əmi, başına dolanım, ay tacir, bə mən neyniyim?

Deyir ki, ədə, onu heç vaxt öldürə bilməzsən. Bəlkə təndirə sala bilərsən.Tacir oğlanı öyrədir. Deyir ki, xəmir elə, nə ana çağır, nə bacı. Denə ki, gə görək, bu çörəyi nə təhər yayıllar, yapıllar. Sən yay, mən yapım, mən yayım, sən yap. Özümüz bişirək, özümüz yeyək. Belə-belə örgət. Heç kim olmasın.

Oğlan durur gəlir. Bunu oxşayır ənə-bənə ki, havağa kimi qonşu gəlib bizə kömək eliyəcək, havağa kimi anam-bacım gəlib bizə kömək eliyəcək. Durur deyir ki, gətir sən bir az xəmir elə, mən də təndiri salım. Mən yayım sən yap, sən yay mən yapım. Qız gedir, xəmir eliyir. Oğlan da gedir təndirə belə yaxşı-yaxşı kötüklər, odunlar salır. Oğlan deyir:

-Hə, indi gəl kündəliyək.

Uzun sözün gödəyi, təndirin nə ki, yaraşığı var, hamısını düzüllər. Oğlan deyir:

-Indi ala salginən əppəkyapanın üstünə, vur təndirə.

Qız deyir:

-Yox, mən bu oddan qorxuram.

Oğlan deyir:

-Ma ver, mən birin-ikisin vurum, ondan sonra sən vur.

Oğlan papağın çıxardır, qoyur yerə. Lavaşı salır, de birin, de ikisin. Ikisi düşür, birin çıxardır. Belə-belə oğlan deyir:

-Hə, indi ma noldu? Gəl indi də mən yayım, sən yapginən.

Bir az o yana eliyir, bir az bu yana, qıza deyir:

-Əlini qoy bura, bir əlini də belə tut. Əyil bərk vur.

Elə bu əlini təndirin badına qoyub əpəkyapanı təndirə vuranda oğlan daldan qaldırıb salır təndirə. Təndirə salanda bu bir nalə çəkir, bir səs çıxardır ki, oğlanın ürəyi gedir qalır təndirin başında. Bir vaxt ayılıb görür ki, təndir küllənib. Əyilib baxanda görür ki, qız ilan şəklində təndirin dibində kül olub. Demə, salınanda arvad donunda yananda ilan şəklinə düşür. Qayıdır şişdən, kösövdən götürür, onu tərpədir, görür yanıb olub kül, ancaq ilan şəkli belə təndirin hərrəməsindədi. Oğlanın bundan canı qurtarır. Şad-xürrəm yaşayır.

(79)

# FƏLƏYIN ÇARXI

Bir Cəmşid şah varmış. Bu Cəmşid şah çox mötəbər, sayılan şahlardan hesabdı. Özü də allaha çox yaxın adamıdı. Iş elə gətirir ki, həmən Cəmşid şahın yanına biri gəldi ki, sən deyirsən Əli ibn Talibi mən çox istiyirəm. Onun xatirinə bu gündən üç günlüyə padşahlığı ver ma. Şərt kəsildi. Deyir ki, neyniyək. Padşah həmişə tezdən gedərdi, axşamçağı gələrdi. Bu dəfə günortadan gəldi. Padşahın xatunu xəbər aldı ki, niyə belə tez gəlmisən? Dedi:

-Bu gündən Əlinin yolunda padşahlığı vermişəm bir şəxsə.

Üç gün keçəndən sonra bu getdi ki, vaxt tamamdı, gəl get. Dedi:

-Camaatı yığaq, səni istiyər taxtda sən otur, məni istiyər, mən oturum. Bu camaatı o üç gün ərzində özünə tərəf çəkmişdi, odu ki, camaat onu istədi. Cəmşid şahı taxtdan saldılar. Onun bir baş hərəmi vardı, çox gözəldi, özü də Məleykə xatun adında. Bu Məleykə xatunun gözəlliyinin səs-sorağı aləmə yayılmışdı. Bunun da bir vəziri vardı. Adına Cəm deyirdilər. Cəm həmişə bu padşahlıqda olardı, ayrı yerə getməzdi. Bir günləri getdi bazara. Gördü hər yerdə Cəmşid şahın arvadının gözəlliyindən deyirlər. Gəldi evinə. Dedi ki, vallah, gərək mən də gedəm görəm o, tərifə görə var, ya yoxdu.

Məleykə xatunun bir imarəti vardı, orda yaşayırdı. Özü də xasiyyətiydi, sübh namazından sonra çıxardı külafirəngiyə, tamaşa edər, həzz alardı. Gördü vəzir Cəm durubdu bağın darvazasının qabağında. Kənizi varıdı Ağcaqız adında. Dedi ki, Ağcaqız, get o vəziri gətir bura. Vəzir gəldi gördü nə təhər camaat danışırsa, yox, bəlkə on dəfə artıq bu xatunun gözəlliyi var. Məleykə xatun Cəmə dedi:

-Vəzir, xoş gəlmisən. Nə əcəb gəlmisən?

Dedi:

-Düzü, dünən səni çox təriflədilər, mən də dedim görüm ona layiqsən, ya yox.

Dedi:

-Ağlın nə kəsdi, mən layiq olaram, olmanam?

Dedi:

-Əlbəttə.

Belə deyəndə Məleykə xatun Ağcaqıza dedi:

-Get ma 40 metr kəndir al, gəl.

Vəzir qorxuya düşdü. Dedi:

-Yəqin mənim sözüm buna acıq gəldi.

Cəm gəldi evinə. Arvadına dedi ki, arvad, evdə nə qədir ki, əşya var, hamısını yığ, məni öldürəcəklər.

Dedi:

-A kişi, sa nolub?

Dedi:

-Yox e, mən bilirəm ki, məni öldürəcəklər. Bəli, Cəmşidi padşahlıqdan saldılar, o vaxt hansı padşahı ki, hansı padşah şahlıqdan salırdı, sürgün eliyirdi başqa vilayətlərə ki, getsin başını dolandırsın.

Cəmşidi sürgün elədilər. Məleykə xatunu da kəniz satılan bazara göndərdilər ki, satılsın. Cəm də bu şəhərdən çıxdı, ayrı şəhərdə özünə məskən saldı. Tacir sifətində başladı dolanmağa. Bir gün kəniz satılan bazara getmişdi gördü ki, yazıblar:

«Misir padşahı Cəmşid padşahın baş hərəmi Məleykə xatunun kəniz bazarında satılması elan olunur».

Cəm bunu görəndə halı dəyişildi. Dedi:

-Vay, Cəmşid şahın övrəti Məleykə xatun kəniz hesabına satılır. Bu nədi? O qədir durdu ki, bir də gördü kəcavə gəlir. Əyliyəndə Məleykə xatunu kəcavədən endirdilər. Buna müştəri çox çıxdı. Onda belə bir adət varıdı ki, sən deyirdin ki, beş manat verirəm, o biri deyirdi, yox, 10 manat verirəm. Belə-belə, o qədir dedilər ki, ta axırıncı qiyməti verən olmadı. Olmuyanda bu Cəm o saat pulu verdi, Məleykə xatunu aldı, gətirdi evinə. Çağırdı övrətini, dedi ki, bir otağı boşaldın, bəzədin, iki kənizlə verin himayəsinə. Bunlar burda qalsın, amma Məleykə xatun vəziri tanımır, elə bilir bu, tacirdi.

Tacir bir gün gedirdi, gördü bir sayıl dolanır. Gördü həmən Cəmşid şahdı. Yaxınlaşdı, dedi:

-Nə gəzirsən?

Dedi:

-Sayıl adamam da, gəzirəm.

Cibindən çıxartdı buna xeyli pul verdi.

Dedi:

-A sayıl, bu şəhərin adəti pisdi. Səni tutacaqlar, qatacaqlar zindana. Gəl səni mən aparım evimə. Gələndən sonra bir otağı da düzəltdi, bəzətdi, dedi:

-Orda mənim qardaşımın dükanı var. Qardaşımla hər gün alver eliyərsən.

Bu qardaşıyla alver edir. Məleykə xatuna da kənizlər yaxşı-yaxşı baxır. Axır nəhayət bir gün çağırdı tacirləri. Dedi:

-Camaat, gəlin bura, yaxşı xeyir işim var.

Gəldilər yığışdılar. Yaxşı qonaqlıq düzəltdi. Yedilər, içdilər.

Tacir dedi:

-Bilirsiniz nə var?

Mən bu qonaqlığı düzəltmişəm ona görə ki, mənim bir qardaşım qızı var, onu verəcəyəm qardaşımın oğluna. Hamı yerbəyerdən dedi:

-Allah mübarək eləsin, Allah mübarək eləsin.

Sonra bir xeyli keçdi. Bir gün yenə camaatı çağırdı. Dedi:

-Camaat,  yığışın bura, mənim bir xeyir işim var.

Dedi:

-Böyün qardaşımın qızıynan, qardaşımın oğlunun şirin çayını içəcəyik.

Yerdən hamı dedi:

-Allah mübarək eləsin, Allah mübarək eləsin.

Yenə bir xeyli keçdi. Sonra çağırdı camaatı, dedi:

-Yığılın bura, böyün mən paltar biçdirəciyəm qıza, hamınız mübarəkdarlıq verin.

Hamı yerbəyerdən dedi ki, mübarək olsun, yaxşı olsun.

Bir gün çağırdı, dedi ki, camaat mən qardaşım qızının, qardaşım oğlunun kəbinin kəsdirəcəyəm. Kəbin kəsdirdi, rastladı, hər şeyi düzəltdi. Sonra gəlin otağının ortasından bir pərdə asdırdı. O pərdənin dalında gəlin oturacaq, bərisində də oğlan oturacaq. Iki də qaravul qoydu qapıya. Dedi:

-Onlara yaxşı fikir verin, görün şadlıq olacaq, yoxsa məyusluq olacaq. Qaravullar baxırlar ki, oğlan bəridə oturub, gəlin də o yanda – pərdənin dalında. Bunlar çox məyus oldular, çox ağladılar. Ürəyində Məleykə xatun dedi:

-Evin yıxılmasın, evin tikilsin sənin Cəmşid. Gör nə hala qalmısan ki, sənin Məleykə xatun kimi gözəlin axırda kimə gəldi qismət oldu. Tacirin qardaşı oğluna. Mənim axırım hara gəldi dayandı. Cəmşid də bəridə fikir elədi. Dedi:

-Cəmşid kimi şah taxtından düşüb axırda gəlib bu yerə çatıb ki, tacirin qardaşı qızını alıram.

Bu gecəni çox məyusluq keçirtdilər. Səhər tacir soruşdu. Qaravullar dedi ki, çox bədbinliklə keçdi. Axşam oldu. Yenə gəlin öz yerində oturdu, oğlan öz yerində. Gecədən bir xeyləh keçmişdi. Məleykə xatun dedi:

-Ay oğlan, sən məni niyə dindirmirsən? Sən bilirsən mən kiməm? Mən Misir padşahı Cəmşid şahın baş hərəmi Məleykə xatunam. Gör mənə noldu  ki, sənə qismət oldum.

Oğlan da dedi ki, ay Məleykə xatun, sən ki, həylə deyirsən, bilirsən mən də kiməm? Misir padşahı vardı ki, Cəmşid şah, elə o Cəmşid şah mənəm, - dedi, pərdəni qovzadı.

Səhər baxdılar Cəm gəlir. Qaravullar dedilər:

-Çox şaddıx keçdi.

Tacir camaatı yığdı, dedi:

-Camaat, mən toy eliyəciyəm. Gəlini də köçürəcəyəm başqa imarətə. Toy başladı. Vırhavır, tuthatut, axır ki, Məleykə xatunu köçürdü həmin imarətə. Camaatı yığdı. Ortadan pərdə asdı. Cəmşid şaha dedi:

-Ey tacir, bə sən bir belə ki, əzab-əziyyət çəkdin, axı bunun mənasını mən başa düşmədim. Dedi:

-Şah, mənə vaxt ver.

Getdi, o tacir libasın çıxartdı, vəzir libasını geydi. Cəmşid baxdı ki, bu Cəmdi. Belə olanda huşu getdi. Doldular bunun başına, özünə gətirdilər. Cəmşid soruşdu, bu nə işdi?

Tacir dedi:

-Baş hərəmin Məleykə xatundan soruş. 40 metr kəndiri neynirdi?

Şah dedi:

-Bu nə haqq-hesabdı?

Məleykə xatun dedi:

-Mən o 40 metr kəndiri ona görə alırdım ki, fələyin çarxı var, bir ucunu bağlıyam fələyin çarxına, bir ucunu saxlıyam əlimdə ki, dönməsin, mən dünyada həmişəlik yaşayım. Amma fələyin çarxı döndü. Mən axırda gördüm ki, başımıza nə oyun gəldi. Burda nağıl qurtardı. Siz sağ, mən salamat.

**(80)**

## ODUNÇU QIZI

Biri varıdı, biri yoxudu. Bir kasıb kişi varıdı. Bu kişinin heç zadı yoxudu. Amma üç qızı varıdı. Arvadı ölmüşümüş. Bu kişi gedərdi dərədən-təpədən, meşələrdən odun yığardı, gətirərdi, satardı, balalarına çörək pulu eliyərdi. Bir gün kişi getdi oduna, şələni tutdu. Döndü üzü o yana. Qayıtdı ki, şələni götürüm, gördü şələnin üstə bir ilan yatıb. Dedi:

-Ay allahın heyvanı, yatmağa yer tapmadın, gəldin yatdın bunun üstə?

Ilan dilə gəldi dedi:

-Qızın birini ver ma, düşüm gedim.

Dedi:

-Yaxşı. Səhər gətirərəm.

Ilan çıxdı getdi. Səhər kişi gəldi. Dedi:

-Getmişdim o tərəfə, meşəyə sarı, indi bu yana gedərəm.

Getdi odun yığdı, gördü həmən ilan genə yatıb. Dedi:

-Bu da dünənki deyil məni qəzilliyəsən, get qızı gətir. Kişinin şələsi qaldı, orda, kişi gəldi kəndə. Dedi:

-Qızlarım, kasıbçılıq zamanasıdı. Dünən belə, böyün belə, ilan gəlib yatıb şələmin üstə, deyir ki, qızın birini ver ma, düşüm. Yekə qız dedi:

-Bay, bir ilanımız çatmır.

Ortancıl qız dedi:

-Dərdimiz kəsilmişdi, gedək çöllərin ilanına.

Üçüncü qız dedi:

-Dədə, mən gedirəm.

Xırda qız düşdü dədəsinin yanına gəldi, ilan baxırdı, gördü budu ha kişi gəlir. Gəldi dinməz-söyləməz ilan zivdi, düşdü yerə, kişi şələsini götürdü. Indi ilan düşüb qabağa, bu da dalınca. Ilan hara gəldi girir,bu da bəni-insandı da, yeriyə bilmir. Hərdən də deyir:

-Ay qız, zirək gəl.

Getdi çıxdı bir kalafaya. Bir gilif idi, ilan zivdi getdi, qız qaldı. Içəridən ilan dedi:

-Ay qız, gəl.

Qız dedi:

-Axı mən gələmmirəm.

Dedi ki, təpiyinən vur, uçsun.

Vurdu, uçurtdu, getdilər.

Gethaget getdilər, çıxdılar bir qalaçıya. Demə bu bir div oğludu, xalası qızına nişanlıdı. Oğlanın anası baxırdı. Gördü budu, gəlir, yanında da bir bəni-adəm. Dedi:

-Gəl gör sənin başına nə oyun açacağam.

Ta nə deyə bilər. Oğlu hələ siftə bunu süpürgə elədi, qoydu qapının dalına. Girdi içəri. Anası dedi:

-Süpürgə eliyib qoyma qapının dalına. Get, nədir gətir.

Gəldi, qızı götürdü, dedi, anam nə desə sən onu deyərsən, amma mənsiz heç zad eləmə. Oğlan getdi, arvad yerindən durdu, dedi:

-Ay qız ey, gedərsən o böyüklükdə həyəti, hasarı sulayarsan, elə süpürərsən nə bir yeri nəm olmaz, nə də bir yeri quru. Hər yeri bərabər olar. Oğluma toy eliyirəm.

Qız çıxdı. Süpürgəni götürdü. Bekaf gedirdi. Oğlan dedi:

-Noldu?

Dedi:

-Anan ma belə dedi.

Oğlan sehrliydi. Bir nazik yağış çilətdi, bir də bir yel əsdirdi. Bu meydança elə oldu ki, gül kimi. Qız süpürgəni götürüb gülə-gülə süpürdü.

Dedi:

-Süpürdün?

Dedi:

-Hə.

Anası dedi:

-Bu, vurulmuş oğlumun əməlidi, ha.

Bu arvadın uzaqda bacısı varmış, bir məktub yazdı.

-Bunu oğlum gətirib. Mən bunu yeyə bilmiyəcəyəm, göndərirəm ora, sən yeginən.

Dedi:

-Ay qız, ala bu məktubu, aparginən, ver bacıma gəl. Bacımda qaval var, onu da gətir.

Qız çıxdı eşiyə. Oğlan soruşdu:

-Anam sa nə dedi?

-Anan ma dedi ki, xalangildə qaval var, onu gətirim. Məktubu da verim gəlim.

Oğlan dedi:

-Gedərsən məktubu verərsən xalama. Xalam oxuyunca, sa mən xəbər verim, qaval yükün üstədi, götürüb çıxarsan. Ha çağıracaq:

-Az, qayıt bəri, az, qayıt bəri, bunu verim apar.

Dönməginən, o gedir dişini sürtməyə. Səni yeyəcək.

Burdan getdi, apardı məktubu verdi, arvad döndü dişlərin sürtməyə. Qız qavalı götürdü, çıxdı. Oğlanın anası baxdı ki, budura gəlir.

Bunlar başladı toy eləməyə. Arvad bacısı qızını gətirdi. Axşam oldu, arvad bir sehr oxudu. Qızı yapışdırdı divara, barmaqlarının arasına şam qoydu. Dedi:

-Barmaqlarının arasında şam yanıb əridikcə tökülər, sən də yanarsan.

Arvad çıxdı eşiyə. Oğlan belə baxırdı. Gördü axı insaf deyil, bunu bu gətirib. Yerdən qalxdı, xalası qızını bir sehr oxumaqla yapışdırdı divara, barmaqlarının arasına şam düzdü. Bəni-adəmi götürdü, aradan çıxdı. Səhər açıldı. Arvad gəldi. Günortaydı, qapını açdı, gördü, and olsun allaha, nə oğlu var, nə bəni-adəm. Bacısının qızı da yanıb kül olub. Dedi:

-Dayan, keçərsən əlimə, gör sənin başına nə oyun açacam.

Bunlar gedirdi. Getdi-getdi, uzaq bir səhradan qız döndü dala, gördü ba, oğlanın anası elə gəlir, elə gəlir… Anası gəlincə oğlan qızı elədi bir kötük. Özü oldu həmən ilan. Kötüyə elə dolandı, elə dolandı, başını qoydu üstə. Bu arvad gəldi. Baxdı-baxdı bu kötüyə, gördü çarə yoxdu. Dedi:

-Sən olmasaydın, bilərdim bu kötüyə neynirdim.

Qayıtdı. Uzaqlaşdı. Səhradan uzaqlaşandan sonra oğlan yenə sehr oxudu, düşdü oğlan şıqqına. Arvad çöndü baxdı, gördü, odey, gedirlər. Bir də qayıtdı. Hay eliyib gəlib bunlara çatınca, oğlan qızı elədi bir gölməçə su, özü oldu bir gül, düşdü suyun içinə. O yandan anası ağzını uzatdı, gül oğlu ağzına keçdi. Ana-baladı da, keçəmmir, elə baxdı-baxdı dedi:

-Sən olmasaydın, bilərdim neynirdim. Bu bulağı elə qurudardım, heç qumu da qalmazdı.

Arvad qayıtdı. Bunlar gəldi çöllü-biyabanda bir qalaçıya. O yana keçdilər qapı açılmadı. Heç kəs də yoxdu. Oğlan nə qədər elədi, qapı açılmadı.

Qız dedi:

-Qoy mən eliyim.

Qız elə belə eləyəndə qapı açıldı, qız girdi içəri, qapı örtüldü. Nə qədər elədilər, bu qapı açılmadı. Oğlan bayırdan, qız içəridən ağlaşdılar. Oğlan kor-peşman qayıtdı. Oğlan aralaşandan sonra qapı açıldı. Qız çox axtardı, gördü oğlan yoxdu. Burda da bir oğlan üzüörtülü yatıb. Qız baxdı gördü, başının altında bir kitab var. Bu kitabı hər kəs oxuyub qurtarsa, 40 günə bu oğlan dirilib qalxacaq. Qızın əli üzüldü, ta neyləsin. Qız başladı kitabı vərəq-vərəq oxumağa, günkigün, günkigün, 39 günü tamam oldu. Kitabı gecə-gündüz yuxusuz oxudu. Elə belə oturmuşdu. Gördü bir keçəl qız gedir suya. Dedi:

-Ay qız ey, sən allah beşcə dəqiqə dayan.

Dedi:

-Nədi?

Dedi:

-Mən neçə gündü yuxusuzam, ala bu kitabı sən oxuginən, bax bu ikicə varağı, mən bir başımı qoyum yerə. Keçəl qız aldı bunu oxuyanda, qız başını qoydu yuxladı. Qız oxudu qurtardı. Oğlan yerdən durdu. Qız bir də ayıldı ki, oğlan durub keçəl qızın o yanına-bu yanına keçir. Oğlan keçəl qıza dedi:

-Ay qız, nə alım sa, nə gətirim sa? Gedirəm bazara.

Bunu alırsan, onu alırsan, - deyir keçəl.

Amma bu cəfakeş oturub. Ona dedi:

-Sa nə alım?

Dedi:

-Ma heç zad lazım deyil. Bir səbr daşı, bir çaqqı bıçaq lazımdı. Getdi al-şal, ipək aldı. Buna da səbr daşı, çaqqı bıçağı alanda tacir dedi ki, ay oğlan, bu çaqqı bıçağınan səbr daşı istiyənin dərdi çoxdu ha, bunu gözdən qoyma. Dedi:

-Yaxşı.

Gətirdi verdi. Qız durdu, dalda yer tapdı, başına nə gəlmişdi, ilan olmuşdu, kalafalara getmişdi, devdən qurtarmışdı, hamısın orda bir-bir çaqqı bıçağa deyir, səbr daşına deyir. Səbr daşı, səbr elə, indi özümü öldürəciyəm. Dedi-dedi, axırda dedi:

-Gəldim çıxdım qalaçıya, oğlana 39 gün kitabı oxudum. Qırxıncı gün gördüm yuxu məni tutur, kitabı verdim bir keçələ, durdum gördüm cəfakeş mənəm, keçəli qucaqlayıb mənə deyir:

-Qarabaş, sənə nə alım ?

çaqqı daşı, sər daşı,
səbr daşı, səbr elə,
indi özümü öldürəciyəm.

Dedi, bıçağı vuranda, oğlan əlindən tutdu, dedi:

-Demək məni qurtaran sənsən. Keçələ əyin paltarı verdi, dedi ki, iki gün oxumağın əvəzinə.

Bir gün qızın dədəsi baxdı-baxdı dedi:

-Ay gidi hay-hay. Dağ getdi, aran getdi. Bu qızı verdim, bilmədim necə oldu. Durdu çöllü-biyabanları gəzə-gəzə, burdan soraq, ordan soraq – xəbər verən olmadı. Gördü qalaçada iki uşaq oynayır. Demə bu qızın uşaqlarıdı. Gəlib görcək kişinin bunlara elə ürəyi yatdı, elə yatdı, dedi ki, baban qurban, məni qonaq eliyərsiz? Uşaqlar gəldi ki, ana, orda baba durub, deyir bizi qonaq eləsin. Bir çay versin. Dedi:

-Get gətir.

Gəlcək, qız dədəsin tanıdı, amma dədə qızı tanımadı, neyləsin yazıq, qocalıb, qızın iki uşağı var, neçə il aradan keçib. Qız fikirləşdi ki, dədəm məni nə işarəynən tanıya bilər. Demiyəsən, qızda dədəsinin bir bıçağı varıymış. Getdi, alma gətirdi. Bu bıçağı qoydu almanın üstünə. Dədəsi əlin atdı, bıçağı götürəndə gözü sataşdı, dedi:

-Bu bıçaq mənim qızımdaydı. Bu bıçaq sa haradandı?

Dedi:

-Ata, sən mənim atamsan, bıçaq da mənim bıçağımdı. Bunlar da nəvələrin.

Kişi sevindi. Şad oldular. Burda nağıl qurtardı. Göydən üç alma düşdü.

IBRƏTAMIZ HEKAYƏTLƏR

**(81)**

Bir padşah kənddən keçirdi. Dedi:

-Gedin görün kənddə inciklik yoxdursa, bırdan keçək. Yox, varsa ordan keçmək olmaz.

Gəldilər hər yanı gəzdilər, gördülər sakitlikdi, amma bir qarı şişi götürüb pişiyi qavalıyır.

Dedilər:

-Ay qarı nənə, pişiyi niyə həylə eliyirsən?

Dedi:

-Bı qarını götürüb qaçıb, bının qarnını deşəciyəm.

Padşaha dedilər:

-Heç bir şey yoxdu, amma bir qarı əlində şiş pişiyin qarnını yırtırdı.

Dedi:

-Qarın davası dünyadan qutarmaz. Qəyidin bırdan.

Qəyitdilər, ayrı yoldan getdilər.

**(82)**

Teymurləng qoşunuynan gəlib düşür, baxır uzaqda bir kişi bir öküznən cüt sürür. Deyir:

-Gedin gətirin görüm o kimdi orda təkbaşına yer əkir.

Bınnar gəlir görür ki, alt tərəfi əkindi göyərib, üst tərəfi də bı şumluyur. Deyir:

-Səni bizim ağamız çağırır.

Deyir:

-Gedək, oğlum.

Bınnar belə baxıllar ki, qoca öküzdəri açır, öküzdərə deyir ki, üstü indi- təzə şumluyuram da özuz bilirsiz. Altdakı əkindi, ora

yenməyin. Bu sahmanınan gedin orda otduyun. Döşdüyü vardı, taxıl səpmək üçün götürür, torpaqdan yığır üstünü qatdıyır gəlirlər.

Kişi deyir:

-Teymur ağa, nə qəzəblənmisən? Nə yaxşı buralara gəlmisən? Sən axı buralara gəlməli dəyildin.

Deyir:

-Ey qoca, sən kimsən özbaşa yekə-yekə danışırsan?

Bir nəfər deyir:

-Teymur ağa, ehtiyatlı ol. O, mötəbər adamdı.

Qoca deyir:

-Sənin ürəyin təsəlli tapmaz. Qoy bir dilim qarpız verim sa.

Bınnar da görüblər torpağı yığıb döşdüyə gətirib. Baxıllar yekə bir ala qarpız qoydu ortalığa.

Bı adamlar əyilir deyir:

-Teymur ağa, bu torpağıdı yığmışdı. Sən yemə, qoy siftə özü yesin.

Deyir:

-Qoca sən kəsəssən?

Deyir:

-Yox, qəzəbkar sənsən, çox əsəbisən belinnən xəncəri çıxart doğra.

Doğruyur. Qoca yeyir. Bınnarın hamısı bir dilim götürüb yeyir ki, elə qarpızdı.

Bu adamlar deyir:

-Teymur ağa, bu bizi daşa da göndərər.

Qoca Teymura deyir:

-Bunların yaxşısı da var, pisi də var. Sən çox qəzəblisən. O qılıncı o ocağın suyuna üç dəfə bas, denən toba. Üç dəfə bu qılıncı yendirir suya çıxardır deyir:

-Toba, ta qəddarlıq eləmiyəcəm.

**(83)**

Bir kişinin külfəti çoxudu. Bı kişi dedi:

-Ay arvad, gedim gəzim dolanım, bütün seyranı axtarım. Səhralarda həlbət Allah ma bir qismət yetirəciy.

Der:

-A kişi, get.

Bı getdi. Başı qərişdi bir xanıma. Bı xanım bından qəşəng muğayat oldu. Heç bının altı balası, bir arvadı yadına düşmədi. Bir günnəri yatmışdı elə bil, oyandı. Dedi:

-Bə mən gəlib kəsmişəm bıranı. Bə mənim külfətim, uşağım. Bə mən bırda niyə qalmışam. Bir günnəri dedi:

-Xanım, ma icazə ver gedim.

Dedi:

-Mən də gedəciyəm.

Durdular əvin qızılınnan iki atı yüklədilər. Hərəsi birin mindi. Çox yol getdilər. Getdilər bir meşədə bulağın qırağında yedilər-içdilər, hərə bir tərəfdə yatdı. Bir yol gəlin oyandı, ki, bir əjdaha bını elə çəkib, elə çəkib ki, elə bının iki qolları qalıb. Çağırdı:

-Ay Allahverdi, ay Allahverdi, amandı dur gəl, qılıncı çək bının cəvcələrin vır, məni azad elə.

Bı dedkcə kişi dala-dala qaçdı. Belə baxdı, dedi:

-Ə, sənin kimi namərddəndisə, bı əjdahanın qarnında yatmaq hər şeydən irəlidi.

Qolların verdi qabağa əjdaha bını çəkdi qarnına. Kişi yüklü gəlir. Bir çoban dedi:

-Qardaş, bı nədi?

Dedi:

-Qardaş mənim əhvalımı soruşma.

Dedi:

-Niyə?

Dedi:

-Belə-belə. Başına gələnnəri danışdı.

Dedi:

-Yaxşı eləmisən qaçmısan. Əjdaha da arvadı udub. Indi gəl sa bir şey deyim.

Deyir:

-Yeri qaz.

Qazdıxcan qızır. Deyir:

-Düş ora.

Basdırıb deyir:

-Sən də cəzanı bırda çək. Adam urzanı atmaz, ayaqlamaz. O arvad ki, səni tutmuşdu, sənnən gəldi, bə sən onu niyə həylə elədin.

**(84)**

Bir gün kişi xəstələnir, gedir Loğmanın yanına, deyir:
-Belə xəstəyəm.
Loğman deyir:
-Sən bir halal çörək tap ye, sağalassan.
Bı düşür çox yeri axtarır. Deyillər get bir kənddə halal çörəh var. Tap ye. Bı gəlir kişinin yanına. Salam əleykəssalam. Deyir:
- Belə mən gəlmişəm halal çörək yeyəm, sağalam.
Kişi deyir:
-Yubanmısan.
Deyir:
-Niyə? Axı deyillər sənin halal çörəyin var.
Deyir:
-Bı il yazda yağınnığıdı, yer əkirdim . Mənim öküzüm keçdi qonşunun yerinnən hərrəndi gəldi palçıqlı-palçıqlı, o torpaqdan gəldi qarışdı mənim yerimə. Bala, çörəyim halal dəyil.

**(85)**

## KAR DAŞ

Bir ata olubdu. Bir də bir oğul olubdu.Yolunan Şadıya gedirmişdər. Gedib orda oğul geyib ki, ata, sən dur daşın dalında, bura Kar daş deyillər. Mən keçim o yannan səni çağırım. Keçib o yana. Oğul yoluna davam eliyib gedib. Atası ha gözdüyüb ki, indi məni çağıracaq. Bir vaxt durub ki, oğlu yoxdu, çıxıb gedib. Oranın adı qalıb «kar daş».

**(86)**

## PADŞAH VERMƏDI, ALLAHIM VERDI

Bir kişi olur. Uşaqlarını dolandıra bilmir. Arvadı deyir:
-Get padşahın yanına. Onnan köməh istəginən bizə, uşaqları dolandırax.
Bı qoca kişi gedir padşahın yanına. Der:
-Nə yaxcı gəlmisən?
Der:
-Həbelə uşağım çoxdu, dolandıra bilmirəm. Bizə birəz köməhlih elə.
Padşah vəzirə deyir:
-Get xəzinədən bına bir avış qızıl ver.

Gedir bir avış qızıl verir bına, amma xayınnığı tutur. Bir at minir, bının dalıncan gedir. Qocanın qabağını kəsir der ki, a kişi, hardan gəlirsən? Deyir:

-Həbelə getmişdim, uşağımı dolandırammırdım, padşahın yanına, o da ma qızıl verdi, amma padşah vermədi, Allahım verdi. Dedi:

-Allahın hanı?

Deyir:

-Odey, mən görürəm.

Deyir:

-Axı mən görmürəm.

Deyir:

-Hə, sən görəmməzsən. Sənin paltarın təzədi. Məm paltarım köhnədi. Gə paltarı dəyişdirəh.

Vəzir paltarın verir qoca geyir, qoca da paltarın verir vəzir geyir. Deyir:

-Axı genə görmürəm.

Deyir:

-Sən atın üstəsən, onçun görmürsən. Atı ver mən saxlıyım, sən çıx yuxarı, bəlkə görəsən.

Atı alır. Vəzir yuxarı çıxan kimi qoca atı minir, qızılı da gətirir çıxır əvinə. Vəzir kor-peşman gər əvinə. Padşah eşdə durmuşumuş. Görür ki, qoca gəldi, getdi vəzirgilə. Adam göndərir vəzir gəlir. Gör ki, vəzirdi. Deyir:

-Bı nədi? Qocanın paltarın niyə geymisən?

Deyir:

-Həbelə sən o qızılı verəndə mənim paxıllığım tutdu. Atı mindim getdim ki, alam əlinnən. Qoca da məm başıma bı oyunu gətdi. Qızılı da apardı, atı da apardı, paltarı da.

Padşah adam göndərir. Qocanı gətirillər. Necə sizə nağıl eliyirəm, həylə nağıl eliyir qoca bına. Onnan sora qocanı yanında vəzir qoyur padşah. Vəziri çıxardır ki, sən xayınsan. Sən adam dolandıran dəyilsən.

**(87)**

Mal- dövlət gəlib çıxıb Kalba Ağbaba kişinin bacasına. Kalba Ağbabadan soruşub ki, nə təvir mən mal-dövlətəm, bərəkətəm. Məni nə təhər saxlıyyassan. Deyib ki, səni yəcəm, içəcəm, kef eliyəm. Der:

-Onda sənnən məmki tutmaz.

Ordan keçib gedib məm babam Kalba Imamın bacasına soruşub ki, mən mal-dövlətəm. Məni nə təhər saxlayyassan, neyniyyəssən? O da deyib ki, səni belə yemiyəcəm, işmiyəcəm, dağıtmıyacam, öpüb qoyacam gözümün üstə. Belə qəşəh saxlıyacam. O qalıb mənim babamın ocağında. Elə o kişi həylə kasıb olub, bı da deyillər, dəvlətdi olub.

**(88)**

Bir kasıbınan bir varlı qonşu olur. Kasıbın beş altı heyvanı olur. Bı kasıbın otu qutarır. Bı dəvlətdiyə der ki, ma bir-iki bağ ot ver. Ya otu biçərəm verərəm, ya da ki, pulu verərəm. Der:

-Yaxşı da. Ay qonşu, böyün-səhər sa bir söz deərəm.

Qalır səhərisi günü bir də der ki, ay qonşu axı mənim heyvanım qırılır. Mənə niyə bir söz demədin? Deyir:

-Bilirsən nə var?-Bının da 15 yaşında bir qızı varmış. Bı da həşdat yaşında bir kişiymiş. Sən qızı ver ma. Mən sa nəh qədər dersən ot verim.

Kişinin beli qırılmış gəlir. Arvad der:

-A kişi, niyə həylə eliyirsən?

Der:

-Qonşu ma bı sözü dedi. Qıza bını deməh olar?

Qız hardansa bını eşidir. Gecəni arıya verir. Durur səhərə kimi ağlıyır, Allaha yalvarır ki, ya ilahi pərvərdigara, mən 15 yaşında qız həşdat yaşında kişiyə necə gedim. Iki bağ otdan ötrü. Allaha o qədər yalvarır ki, mənim talehimi hara yazırsan? Gəlir yatır. Allah- talanın xoşuna gəlir, iki ay yazı tez gətirir. Yaz gəlir.

Kişi vaxlı ilan vıran yatır, bı yatmır axı, heyvannarı ajdı. Durur çıxır eşiyə görür ki, quşdar cəh-cəh vırır, ağaşdar çiçəhliyib gəlir der:

-Ay arvad, dur əyağa.

Arvad der:

-A kişi, dəli olubsan.

Der:

-Yaz gəlib, dur əyağa.

Qız eşidir der:

Aşıx yaza nə qaldı,
Xalın yaza nə qaldı.
Ay Allah, sa qurban olum,
Ülkər yana sallandı,

De görüm yaza nə qaldı?

**(89)**

Alı babamın bir qızı varmış. Bir qoca arvad, bir qoca kişi qonşusuymuş. Bir də oğlannarı varmış. Oğlan bir gün deyib ki, ay Allah mən kimə deyim mənim atama desin, məni əvləndirsin.

Deyib:

-Ta keçib anamı çağırım anama deyim. Anam arvaddı, atam kişidi, ayıbdı.

Çağırıb anasına deyib:

-Ay ana, istiyirəm sa bir söz deəm, məni bağışdaginən.

Deyir:

-Nə deyirsən, oğul?

Deyib:

-Mən istiyirəm əvlənəm. Atama de, ma toy eləsin.

Deyib:

-Niyə demirəm. Deyim da.

Gedib atasına deyib. Səviniblər. Kişi deyib:

-Bə kimin qapısına gedək.

Deyib:

-Alı kişinin.

Bınnar durub gediblər. Alı kişi deyibdi ki, yox, mən qızımı verməṇəm. Ay haray, ay dad, nə təhər verməzsən? Niyə verməzsən? Qonşuyuq, necə ildi yaxşı ötüşmüşük. Deyibdi ki, elə ona görə verməṇəm ki, bir-birimizə pislik eləməmişik. Kor-peşman qayıdırlar. Oğlan bu xəbərdən yanır yaxılır. O vaxtdan həməşə oxuyar ağlayarmış:

Dağın çiçəyidi, göyün ildızı,
Alının qızıdı, Mehrinin qızı,
Yandırdı bizi, yandırdı bizi.

**(90)**

Çoban gecə çöldə çölləmə gedəndə qoyunu bağlıyır qoluna «qol qoyunu» düzəldir. Yatar yuxu tutar qoyun gedər qurd qırar. Qoyun qaçanda qol qoyunu onu çəkir, çobanı oyadır ki, qoyun getdi, dur.

**(91)**

## INAMLAR, YASAQLAR

✳ Ilaxırda od yandırırıq, o küldən hinin qabağına tökürük, toyuq-cücə eşələnsin. Onda hamısı kürt yatar. Bolluq olar.

✳ Şəvəni cin şəyyətinnən qorunmaq üçün asıllar.

✳ Gəlin gedəndə avcının içinə bir daş qoyurdular deyirdilər:

- Ay gəlin. Bı daş kimi ağır ol, bı daş dillənəndə sən də dillən, bı daş kimi sanballı ol. Bir də düyü qoyurmuşlar ki, özünən xeyir- bərəkət apar, urzalı ol.

✳ Xalq arasında deyərlər ki, gündüz nağıl danışmazlar.

✳ Ilannar padşahı icazə verməsə, ilan adamı vura bilməz. Ilannar padşahı əmr eliyir ki, get vaxtdı yolunan gedəni vır. Əgər ilannar padşahınnan xəbərsiz ilan bir adamı vırsa onu padşahları öldürər.

✳ Canavarın gücü peysərindədi.

✳ Deyir ilan külə bulanıb gəlirsə, demək ocaq ilanıdı, sənə toxunmayacaq.

✳ Bir əjdaha yüz il ömür eləsə o dönür olur insan! Ya qız, ya oğlan.

✳ Bınnan əzələ qapısınnan daş götürürdülər gəlinin, gətirib qoyurdular evin bacasına görürdün ki, xeyir dəyir, gedib o qızı alırdılar, xeyir çəhmirdinsə əlaltınca buraxırdın.

✳ Qaşıq başqa evdə qalanda o evdə qarğışçı olar. Hər kəsin qaşığı qabı hər kəsdədirsə axtarın arayın tapın. Verəmməsən aparın yol ağzında bir ağacın dibinə atın.

✳ Qayçını ortalıqda qoymaq olmaz. Qayçını ortalıxda qoysan evdə dava-dalaş olar. Qayçını göyə asanda ağzı açıq asmayın. Ağzı açıq olanda, iraxcannan, evdə ölüm -itim olar.

✳ Ilaxır odunun külünü süpürüb atır, yerinə su səpirdih ki, il bərəkətli olsun.

✳ At nalı evə bolluq gətirir.

✳ Ilan köynəyi (qabığı) evə bərəkət verir.

✳ Keçi olan yerə hal anası getməz. Hətta keçi qəzili olan yerdə də görünməz.

✳ Gəlini evdən çıxardanda qız evi oğlan evinin adamlarının üstünə un atır. Yəni gəlin evdən bərəkət aparır.

✳ Məleykələr yaşadığı yerdə insan gözünə görükür. Ilan donunda da görükür. Bəzən görürsən insan onu tanımır, bilmir. Ilan bilir vırır öldürür. O biri yoldaşımı ya nə, o tayı bı insana zərəl verir.

✳ Axşam qonşudan tərəzi almazlar, verməzlər. Alana da zərərdi, verənə də zərərdi. Tərəzi yoxsulluq rəmzidi.

✳ Axşam ələk verməzlər. Əgər məcbur qalmısansa bir şey al, sonra ələyi ver. Çünki ələk evin bərəkətidi.

✳ Nəzir söyüdün kəsəndə o evdə ölü ölər.

**(92)**

## SINAMALAR, OVSUNLAR

✳ Sürüdən bir heyvan gətirirsən ayrı sürüyə qatasan baxırsan ki, o heyvanın iyini alıb, çıxart çölə, hara aparırsan apar, qaçıb gedib genə o heyvana qarışacax, təzə gəlini tez buraxdınsa dədəsi əvinə, o əvin iyini aldısa, o gəlini çətin gəlin eləmək olar.

✳ Stəkan düzüləndə bilirsən qonağın gələcəy.

✳ Analar deyər duz töküləndə sağ çiynızdan atın, evdə dava-dalaş olmasın.

✳ Təndirə çörəyi çörəyin üstə vursan deyirsən ki, bir adamınan görüşəciyəm.

✳ Bəxt güzgüsü sınanda bədbəxt hadisə baş verər. Sınan kimi gül kolunun altına basdırsan xata-bəla sovuşar.

✳ Zahı yatannan sora dururdux əvi cızırdıx. Onda əvlər çırpığıdı. Dörd bir yanı cızırdıx ki, cinnər yaxın gəlməsin.

✳ Zahı yatan gəlinin başına ərinin papağını qoyullar, hal aparanda güllə atıllar, ayılır.

✳ Qabaxları yaşdı arvaddar xəşil bişirirmiş Xıdır Nəbidə. O xəşili qoyurmuşdar eşiyə ki, qarqa aparsın. Dermişdər ki, qızımın baxtına, görəh qızım kəndə gedir yoxsa uzağa gedir. Həyə qarqa o xəşili götürüp, qapıya salsa kəndə gedəciy, yoxsa uzağa dimdiyində aparırmış, dermiş, hə, qızım oldu qərib, qəribliyə gedəciy.

✳Eşitmişdim ki, hamilə qadının harasına qurban qanınnan dəysə orda xal olar. Getmişdih Zırnel pirinə, nəzir eləmişdih qurban kəsdih. Mən də barmağımı vırdım üzümə, elə barmağımın yeri orda xal qaldı.

✳Qardaşım gedir qonşuya pendirə tamahı düşür. Gəldi o qədr şişdi, oldu bardan. Kəntdə bir yaşdı arvad vardı. Allah ona irəhmət eləsin. Anam getdi onu gətirdi. Dedi:

-Bının ta 7 qapıdan yığmax vaxtı keçib. Bir yumurtanı götürün kəndi əyax-baş, qəbirsandıxların arasınnan keçin gətirin bişirin, vırın kürəyinə, verin yesin. Yaxşı olaciy. Mən də getdim həylə fırlandım kəndi başınnan ayağına, vəngin torpağınnan da götürdüm gətdim sürtdüm bənddərinə, yumurtanı da bişirdim, xırda-xırda yedirtdim. Yumurtanın axırın udanda, gədənin şişi çəkildi, durdu əyağa.

Bir oğlum da getdi əmisigilə. Gəldi üzü-gözü şişib. Uzandı. Qonşudan hərə iki tikə qənd atdı. Gətdim şirin çay elədim. Bir də sürtdüm bənddərinə, qalanın da içirtdim. Qutardı getdi.

✳At kəlləsi, qırmızı parça, bir də üzərrik üçü bir yerdə bağda asılır. O bağın məhsuluna göz dəymir.

✳Birinin uşağı qəriblikdə olur. Qəcələ gəlir qırıldıyır. Deyir:

-Bı niyə gəlib qırıldıyır e. Durub daşınan qavalıyır. Deyillər onun oğlu ölüb. Gərəh qəcələni xoş dindirəsən. Qəcələ ki, tezdən gəlir qapıda qırıldayır ha. Onda deyəllər bəd xəbər gətirir. Tezdən gələndə deyərlər:

Qəcələ, xeyir söylə, xeyir söylə,
Xeyirdisə bir də söylə.
Ay qəcələ, xan qəcələ,
Dimdiyi mərcan qəcələ.

Qəcələ, xan qəcələ,
Quyruğu qaytan qəcələ.
Get balamnan xəbər gətir,
Mən sana qurban qəcələ.

Qəcələ, xeyir söylə.

Xeyirdi, get bir də gəl
Şərdi qıçın sınsın,
Bir də gəlmə.

✳ Hananı kəsmək məqamı gəlirdi. Deyirdilər bir qadın boyludu. Küzü vərəngəlanı atın çölə görün qızı olacaq, oğlu? Vərəngəlanı atırdıq çölə gözümüzə bir oğlan, kişi sataşanda deyirdik onun oğlu olacaq. Arvad görünəndə qızı olacaq.

✳ Uşaq təzə anadan olanda göz dəyməsin deyə onun üstünə dağdağan, üzərrih, pişih tükü, bir də işdənməmiş iynə, ortadan iynəni sındırıb qoyardıx düyünçüyə duva kimi tikib asardıx uşağın üsdünə

✳ Həmzatlı adam yenicə balalamış pişiyin, itin üstə gedərsə həmzatı onların üstünə tökülər. Həmzatlı qadın uşaq doğar.

✳ Ismayıl qurbanının tükünü yel əsəndə gətirəsən yandırasan onun tüstüsü çıxa bir azca, yel kəsər.

✳ Əgər qırxlı uşağa xətər dəyibsə məsələn; həmzatdı adam üstə gəlibsə – uşağı gərəh çərşənbə, şənbədə qapının ağzında-astanada başın üstən alıb ayaqların arasınnan keçirdəsən üç dəfə. Bir adam kömək eliyir uşağı başının üstən verir altdan alır. Belə eləsən uşax sağalar.

✳ Getmişdih çaşıra qızdarınan. Çaşırdan gəlirdih dələmənin düzü derih yol, orda bir qəbir var. Dedilər:

-Bı əldə ölüb, bının qəbirinin torpağınan götürüb aparıb salırsan suya, yağış yağar.

**(93)**

## YOZUMLAR, ALQIŞLAR

Yuxuda alma, armud, bıçaq, gülbəsər oğlan uşağıdı.

✷

Ərih görənin qızı olar.

✷

Yuxuda ilan görmək yoldu.

✷

Yuxuda ayaqqabı itirmək ölümə işarədi, yaxın bir adamını itirəssən.

✷

Yuxuda pilləkənlə qalxmaq ucalığa işarədi.

✷

Ağ günlü ağ əppəkli olasan.

✷

Dünyanı doyunca yeyəsən.

✷

Allah mətləbinə çatdırsın.

**(94)**

## ATALAR SÖZLƏRI

✷ Tüstü kötühdən çıxar.

✷ Külü elə küllükdən götürəsən uca küllükdən ola.

✷ Anasına baxıb qızını alallar, torbasına baxıb duzunu alallar.

✷ Təkələr gedən yerlər bərəkətli olar.

✷ Hər ağacdan masan olmaz,
Hər igiddən Həsən olmaz.

✷ Atalar deyib ki, kasıb sürüsünü vara-vara sürər yəni yavaş-yavaş sürər ki, varlansın.

✷ Aqillər deyərdi:
Oğul getməyinən, pusmağınan urza gəlməz. Allah gərəh adama urza yetirə.

✷ Hər evdə un olar, hər evdə çörək olmaz.

✷ Dərddən kürəyim qovurğa qovurur, sinəm qar sovurur.

✷ Halal əmək qurtarmaz.

(95)

TAPMACALAR

Qardaş, dur gedək,
Ilxıları sür gedək.
Min bir iki qapını,
Bir kilidə vur gedək. /Ay, il/

*

Irı-ırı kəhər atım,
Irı gözəl kəhər atım.
Ayağında qırx sicim,
Düyümü gözəl kəhər atım. /Arı/

*

Sürü-sürü qazlar,
Sürməli qızlar,
Əlini vursan,
Əllərin sızlar. /Kirpi/

*

Zər-zər üstə,
Zər tufar üstə.
Zər oğlan gəlməsə,
Zər tufardan yenməz. /Açar, qıfıl/

**(96)**

BAYATILAR

Əzizim sizə gəlləm,
Sürmə çək gözə gəlləm.
Yüz il qəzəmət çəksəm,
Qutarsam sizə gəlləm.

Əzizim belə işlər,
Çarx işlər belə işlər.
Heç kəsin başına,
Gəlməsin belə işlər.

Əzizim yazdan oldum,
Bahardan yazdan oldum.
Bir bevəfadan ötrü,
Ağladım, gözdən oldum.

Əzizim qara yazı,
Ağ yazı, qara yazı.
Hər dəftərin başında,
Mən bəxti qara yazın.

Əzizim, qoşa dağlar,
Verib baş-başa dağlar,
Yol verin anam gəlsin,
Dönməyin daşa, dağlar.

Əzizim baxar gedər,
Bu yol Naxçıvana axar gedər,
Sağ yanımdan yaralı oldum,
Solumdan qan axar gedər.

Əzizim omar dağlar,
Qar yağar, hamar dağlar.
Vallah qərib öləni,
Hamı yanar ağlar.

Əzizim sarı yoldan,
Su gələr sarı yoldan.
Fələyin işinə bax,
Məni qoydu yarı yolda.

Əzizinəm qoşa gəl,
Qarrı dağlar aşa gəl.
Eşitdin bacın ölüb,
Durmayın ağlaşa gəl.

Əzizinəm qardaşdar,
Yağış yağar, qar başdar.
Cinazam əyri gedər,
Yapışmasa qardaşdar.

Əzizim qavır məni,
Sal saca qavır məni.
Gör nə günə qalmışam,
Dost qapıdan qavır məni.

Əzizim xırda-xırda,
Xalların xırda-xırda.
Məni səndən eliyən,
Peşman olar axırda.

Əzizim iri-iri,
Xalların iri-iri.
Məni səndən eliyəni,
Dilənsin diri-diri.

Əzizinəm məni gəz,
Axtar dolan, məni gəz.
Dağlarda çiçək görsən,

Arasında məni gəz.

Əzizim çimən yerdə,
Su düşüb çimən yerdə.
Yara köynək olaydım,
Soyunub çimən yerdə.

Əzizinəm gül gətir,
Bağçadan dər gül gətir.
Mənim məzarım üstə,
Sən gələndə gül gətir.

Əzizinəm güləndə sən,
Gül açsın güləndə sən.
Məni də yad edəsən,
Danışıb güləndə sən.

Əzizim üzümünən,
Düzülüb düzümünən.
Gəlmişik sənin yanına,
Dur gedək biziminən.

Əzizinəm haraylar,
Bülbül bağda haraylar.
Dilim yadlarla danışar,
Könlüm səni haraylar.

Əzizim gözəl ağla,
Gözlərim gözəl ağla.
Gəl qabaq-qabağa oturaq,
Görək kim gözəl ağlar.

Əzizim, sarı-sarı,
Paltarım sarı-sarı.
Rəngim oğul əlindən,
Olubdu sarı-sarı.

Əzizim atdı getdi,
Əbədi yatdı getdi.

Ananı gözü yaşlı,
Həsrətli qoydu getdi.

Əzizim duman çökər,
Qar yağar duman çökər.
Oğul itirən atanın,
Gözünə duman çökər.

Əzizim bəd apardı,
Yel əsdi, bad apardı.
Fələk bir iş işlədi,
Övladımı apardı.

Əzizim, necə dağlar,
Qarşıda necə dağlar.
Dərdli sinəsi bilər,
Dərd onu necə dağlar.

Əzizim, qoşa dağlar,
Verib baş-başa dağlar.
Elə bil ki, yatıbdı,
Gedibdi huşa dağlar.

Əzizim, keçdi məndən,
Ox dəydi keçdi məndən.
Mərdlərə körpu oldum,
Namərdlər keçdi məndən.

Əzizim, harda qaldı,
Gözlərim yolda qaldı.
Oğlumu harayladım,
Görəsən harda qaldı?

Əzizim, qanlı dağlar,
Qadalı, qanlı dağlar.
Igid həlak olanda,
Gəlib qanlı da ağlar.

Əziziyəm, narına,

Qüzeyinə, qarına.
Mən balamı vermərəm,
Bu fələyin toruna.

Əziziyəm bilmirəm,
Qoşub düzə bilmirəm.
Qardaşın həsrətinə,
Daha dözə bilmirəm.

Əzizim ağlar səni,
Gözləyir anan səni.
Gözüm qəmli-kədərli,
Oğul deyib ağlar səni.

Əzizim hanı, qardaş,
Ağzımın dadı, qardaş.
Həyatdan nakam getdin,
Toyu yas olan qardaş.

Əzizim dağ-dağ oldu,
Dağ yandı, dağ-dağ oldu.
Qardaşım yada düşdü,
Ciyərim dağ-dağ oldu.

Əzizim dərə dağlar,
Gün dağlar, dərə dağlar.
Kəklik-turac ovlayır,
Marallı dərə dağlar.

Əzizinəm qış dağa,
Bu yol gedər Qışlağa.
Namərdin yolu düşsün,
Yay arana, qış dağa.

Əzizinəm xalxala,
Bu yol gedər Xalxala.
Cəfa çəkdim yar sevdim,
Qorxuram ki, xalx ala.

Əzizinəm yad olmaz,
Dərdin çəkən yad olmaz.
Yüz il ötüb keçsə də,
Qohum sənnən yad olmaz.

Əzizinəm yaz oxu,
Ağ kağıza yaz oxu.
Demə hər şey bilirəm,
Ömrün boyu yaz oxu.

Əzizinəm dostu var,
Hər kəsin bir dostu var.
Dostuna çox sir vermə,
Dostunun da dostu var.

Əzizinəm ay qardaş,
Dara telin say qardaş.
Qohumlar içərisində,
Olmaz sənə tay qardaş.

Əzizinəm qar qalandı,
Qar yağdı qar qalandı.
Qarğalar laçın oldu,
Laçınlar qarqalandı.

Əzizim yad eyləyər,
Dost-dostu yad eylər.
Ara vurub söz gəzdirən,
Qaradaşı qardaşdan eyləyər.

Mən aşığam nə qaldı,
Nə qovğadı, nə qaldı?
Fələk, öldürdün balamı,
Fələh, sa nə qaldı?

Mən aşıq həzin-həzin,
Qar yağar həzin-həzin.
Oturram, ana, oturduğun yerrərdə,
Ağlaram həzin-həzin.

Mən aşıq aran nədi,
Dağ nədi, aran nədi.
Bir dərdi Allah verə,
Çəkərəm, çarəm nədi.

Mən aşığam, ya qərib,
Cütü düşmüş ya qərib.
Xeyrə, şərə yaramıyan qahamı,
Ya cavan ölə, ya qərib.

Mən aşıq aran yeli,
Bağ yeli, aran yeli.
Qasırğadı dağlarda,
Tufandı aran yeli.

Mən aşıq babam gəldi,
Səngərə babam gəldi.
Arxa oldu, dar gündə,
Köməyə babam gəldi.

Mən aşıq toran düşdü,
Tez çökdü toran düşdü,
Çatdı ömrün axşamı,
Gün batdı, toran düşdü.

Mən aşiq əsmə dedim,
Küləyə əsmə dedim.
Düşündüm əsdirən var,
Nahaq mən əsmə dedim.

Mən aşiq qıy bağlar,
Qıy bağçalar, qıy bağlar,
Sən ki belə cavan öldün,
Səni kim qıyıb ağlar?

Mən aşıq yaralılar,
Könlü qaralılar.
Dərdlilər dərdin desin,

Ağlasın yaralılar.

Mən aşiq özüm neynim,
Bu dərdə dözüm neynim?
Sənə dərman desələr,
Çıxarram gözüm, neynim?

Mən aşiq yanar gəzər,
Dərdini sanar gəzər.
Yoxsulluq yaman dərdi,
Dost səndən kənar gəzər.

Mən aşiq qala-qala,
Qar yağar qala-qala.
Cavan ömrüm puç oldu,
Qürbətdə qala-qala.

Mən aşiq, yazı ağlar,
Kirpiyim, gözüm ağlar.
Aşiq qəmdən oxuyar,
Döşündə sazı ağlar.

Mən aşıq dəli qoyun,
Sən qapıya gəl qoyun.
Dərdi çox olanın,
Adını dəli qoyun.

Mən aşıq izi qaldı,
Addıma izi qaldı.
Özündən bir nişanə qalmadı,
Sözünün izi qaldı.

Aşıq zamana məni,
Çəkir amana məni.
Üstümdən qoşdular cərcəri,
Döndərib samana məni.

Aşıq deyər Kələkli,
Olub niyə kələkli.

Babaların yurd yeri,
Nəvələrə Kələkli.

Aşığam necə sayım?
Nə sayım, necə sayım?
Sənsiz keçən günümü.
Ömrümə necə sayım?

Aşıq susar, saz ağlar,
Dodaq titrər, göz ağlar.
Dindirməyin dərdlini.
Yaralıdı, tez ağlar.

Eləmi duman olar,
Duman göz yaran olar.
Getmə namərd yanına,
Yayda da boran olar.

Eləmi duman olar,
Duman göz yaran olar.
Get sən mərdin yanına,
Qışda da bahar olar.

Eləmi düşən ağlar,
Atlanıb düşən ağlar.
Kasıb bağrı daşdandı,
Dövlətdən düşən ağlar.

Eləmi, mən pərişan,
Halım yoxdu danışam.
Varmı bir mənim kimi,
Qardaş deyib alışan?

Eləmi bala dağı,
Bal dağı, bala dağı.
Hərə bir sinə vursun,
Görməsin bala dağı.

Eləmi, qış yaz ağlar,

Ördək ağlar, qaz ağlar.
Ata gəzən yerləri,
Bala görüb tez ağlar.

Eləmi kotanım yox,
Kəndirim, kotanım yox.
Düşdüm uzaq ellərə,
Haraya çatanım yox.

Dağ başın qəcəl aldı,
Avçılar macal aldı.
Bir yanım xarab ölkə,
Bir yanım əcəl aldı.

Dağlar başı boz-ala,
Duman gələ, tez ala.
Aç qapını gir içəri,
Çoxlu dərdim azala.

Dağlar məni,
Dağladı dağlar məni.
Qürbətdə ölən canım,
Bəs kimlər ağlar məni?

Dağlar qıravlı qaldı,
Yağdı qıravlı qaldı.
Dilimdəki dilimdə,
Ürəyim buxavlı qaldı.

Bu dağlar ulu dağlar,
Çeşməli sulu dağlar.
Qəribləri görənlər,
Dərdlərin unudarlar.

Bu dağlar kərəm dağlar,
Baxdıqca kərəm dağlar.
Bir də səni görməsəm,
Ürəyim vərəm bağlar.

Dağları gəzən mənəm,
Daşını düzən mənəm.
Dili şad, könlü qəmgin,
Bu yerdə gəzən mənəm.

A dağlar, uca dağlar,
Dünyadan qoca dağlar.
Qoynunda oğul öldü,
Torpağın uça dağlar.

Dağda maral otlayar,
Gəzər yenə otlayar.
Övlad itirən ana,
Ürəyini odlayar.

A dağlar, qaşlı dağlar,
Yanı sal daşlı dağlar.
Bacı tək dayanıbdı,
Ana-qardaşlı dağlar.

Bu dağlar ərən dağlar,
Dünyanı yoran dağlar.
Ana könlü virandı,
Varmıdı quran, dağlar?

Dağ başında gül oldum,
Qəfəsdə bülbül oldum.
Namərd dostun yolunda,
Yandım, yandım kül oldum.

Dağ başını qar alar,
Qar yığılar, tar alar,
Illər keçər sağalmaz,
Ürəyə dəymiş yaralar.

Dağlara çən düşübdü,
Araya qan düşübdü.
Tək balamdan ötəri,
Ürəyimə xal düşübdü.

Dağların başı durmaz,
Sel gələr, daşı durmaz.
Sən yanımda olmasan,
Gözümün yaşı durmaz.

Dağların lalası var,
Yaşıllı talası var.
Muştuluq o anaya,
Yanında balası var.

Dar gündü dedim, dağlar,
Dərd qəmi yedim dağlar.
Ümid verin, güc verin,
Dərdə güc edim, dağlar.

Dumandı başın, dağlar,
Bilinmir yaşın, dağlar.
Səndən çox igid keçib,
Sökülsün daşın, dağlar.

Duman dağ arasında,
Bülbül bağ arasında.
Qovrulub şam tək yandım,
Yerlə göy arasında.

Görünür dağda duman,
Nə haq var, nə də divan.
Xəstəyəm çarəm yoxdu,
Nə ümid var, nə güman.

Su gəldi eşil, dağlar,
Ömürdü beş il, dağlar.
Düşmənə yuva versən,
Göz-göz ol, deşil dağlar.

O qarlı dağ mənimdi,
Sol sənin, sağ mənimdi.
Kim əkdi, kim becərdi,

Kim dedi, bağ mənimdi?

Dərdə kərəm,
Dərd əhli dərdə kərəm.
Hicran düşkünüyəm,
Özümə dərd əkərəm.

Dərd adamı,
Yandırır dərd adamı,
Düşmən zalım, oğul naxələf,
Yandırır dərd adamı.

Dərdim bir-iki deyil,
Yüküm qəm yükü deyil.
Hamının dərdi varsa,
Mənimki kimi deyil.

Yarama dəymə,
Təbib yarama dəymə.
Mənə dəyən elə dəyib,
Gəl sən yarama dəymə.

Ovçu, maralı qoyma,
Gözün qaralı qoyma.
Mən maraldan biriyəm,
Öldür, yaralı qoyma.

Maral meşəli yerdə,
Qalıb döşəli yerdə.
Bala həsrətindədi,
Ağlar düşəli yerdə.

Maralın hayına bax,
Haylanıb hayına bax.
Çox cəfa çəkənlərin,
Aldığı payına bax.

Al eylədi,
Az dərdimi bol eylədi.

Yıxdı dədəm əvini,
Düşmana yol eylədi.

Yaxşı olar,
Bacı görsə, yaxşı olar.
Qardaşın qabağında,
Bacı ölsə, yaxşı olar.

Başımızın dolusu,
Axar üzüm dolusu.
Allah, neynim, canım düşüb bir dərdə,
Balalarım gələ yığışa başıma,
Baxam gözüm dolusu.

Əlində bayda çalar,
Baydanı çayda çalar.
Cavan balası ölənin,
Dili hər qayda çalar.

Əlində baydası var,
Tutubdu baydası var.
Adam cavan ölməz,
Ölümün qaydası var.

Baxışın gözümdə qaldı,
Axdı üzümdə qaldı.
Ay elim, sizə deyiləsi sözüm vardı,
Demədim özümdə qaldı.

Köynəyin alacadı,
Gey sallan, alacadı.
Sən ağlama, qoy mən ağlayım,
Sənin balan balacadı.

Keçib günüm ağlaram,
Olub zulum ağlaram.
Bir vədəsiz yel əsib,
Töküb gülüm, ağlaram.

Düşərgahım Küküdü,
Yüküm qurğuşun yüküdü.
Dindirməyin məni, ay ellər,
Dərdim qəza yüküdü.

Qur`anım dizim üstə,
Oxuram dizim üstə.
Altdan yoxuşa gəlsən,
Sürünnəm dizim üstə.

Yatmışıdım oyandım,
Dərdə-qəmə boyandım.
Filidim, firdəvridim,
Bu dərdlərə dayandım.

Bağa su düşdü, neynim,
Mövlər su içdi, neynim.
Aləmə baxt veriləndə,
Ma da bu düşdü, neynim?

Durdum getdim suya mən,
Sudan aldım dua mən.
Qaranquşcan olmadım,
Damda salam yuva mən.

Qapım vay, bacam vay,
Doymamışam acam vay.
Bir başı papaqlı dərdindən,
Xaxlara möhtacam vay.

Bağçada güllər, bala,
Oxur bülbüllər bala.
Getdi o cavanlıq vaxtı,
Gəldi bu günlər, bala.

Ay mənim qara baxtım,
Gör sürüyüb hara baxtım.
Ya sənin kür tamahın,
Ya mənim qara baxtım.

Mən atının nalıyam,
Çiyninin göy xalıyam.
Qardaş, mənə can demə,
Mən özgələr malıyam.

Sinəm üstü oyuldu,
Qabıq qoydu, soyuldu.
Keçmiş yaramın üstə,
Təzə yara qoyuldu.

Gəl-gəl gərəyimsən,
Köşkümsən sarayımsan.
Şən günümdə gəlmədin,
Qəmli günümdə gərəyimsən.

Başında ağ şalı var,
Üstündə qara xalı var.
Dərdinlə dərdimin,
Ikisinin oxşarı var.

Analar yanar ağlar,
Bacı qəlbin odlayar.
Övlad itirən ata,
Ürəyinə od salar.

Ağ alma qızıl alma,
Gəl yola düzül alma.
Ya mənim muradımı ver,
Ya mənnən üzül alma.

Qəribə, ay qəribə,
Dözümüm yox səbirə.
Biz əhd eləmişdik,
Ikimiz bir gedək qəbirə.

Ayrılıq yaman olur,
Saralır saman olur.
Oğul, hara gedirsən,

Ürəyim qubar olur.

Durnalar qatar gedər,
Buludda batar gedər.
Namərdə sir söyləsən,
Sirrini satar gedər.

El-obadan aralı,
Dağda vurdum maralı.
Mən ki ova getmişdim,
Özüm gəldim yaralı.

Elə bir gün olaydı,
Sazla düyün olaydı.
Əldən iş gəlməsə də,
Ürək düzgün olaydı.

Ellər haray-haydadı,
Düşmənlərim vaydadı.
Ürək yenə qəmlənib,
Qardaşım o taydadı.

Yağış yağar ellərə,
Damcı damar göllərə.
Burda bir qərib ölüb,
Səsi düşüb çöllərə.

Yandırıb yaxdı məni,
Dağ-daşa çaxdı məni.
Dost bilib arxalandım,
Fələktək yaxdı məni.

Göylə gedən sonalar,
Bir-birini yaralar.
Seçilsin bir kənara,
Oğlu ölən analar.

Mən qaldım aran yerdə,
Milçək qan soran yerdə.

Anam, bacım ağlasın,
Qanım göl olan yerdə.

Pərişanam, pərişan,
Yoxdu halım danışam.
Hardadı mənim kimi,
Dərdi dərdə qarışan.

Dan yeri sökülləndə,
Zülfün üzə tökülləndə.
Qızılgül kimi şeh qoyular,
Ağ üzündən öpüləndə.

Gəlin səni yarıyasan,
Qızılgül kimi qarıyasan.
Sıfta oğlan doğub,
Beşik üstə yırğalıyasan.

**(97)**

## OXŞAMA-ƏZIZLƏMƏ

Dərdin alım,
Dördün alım,
Qızdarın sa
Dördün alım.

Qurbanam balasına,
Gülünə lalasına.
Nənələr qurban olsun,
Xırdaca balasına.

Atdılar atın çapanda,
Balam da bir dayça.
Xaxlar qız götürüb qaçanda,
Balam da bir dulça.

Dodağı gül qaymağı,
Yığıb yeməyim gəlir.
Burnu Xorasan fındığı,
Sındırıb yeməyim gəlir.
Gözləri qəynər bulaq,
Əyilib içməyim gəlir.
Qaşları qara qələm,
Götürüb yazmağım gəlir.

Nəvəmə kim qurban?
Hüseynalı xan qurban,
Arvadı Zalxa qurban,
Qızı Züleyxa qurban,
Bacısı Teyfə qurban,

Gəlini Zübeydə qurban,

Cınqılı qızım, çınqılı qızım,
Bulaqların yarpızı qızım.
Bu gün sabah nişan gələr,
Hər dərədən bir xan gələr,
Ənniyinən kirşan gələr,
Aparmağa soltan gələr.

Bülbül balam, gül balam,
Qənd balam, şəkər balam,
Gəl kənarda durum,
Gəl üzümdən öp, balam.

Bu qızım nişanlıdı,
Ənliklidi, kirşanlıdı.
Qızıma elçi gəlib,
Şah Abbasın gəlinidi,
Aparmağa sultan gəlir, xan gəlir.

Buralardı qəmxana,
Həyətimiz ceyranxana,
Tökülə gilas yarpağı,
Balam gələ yayxana,
Balam gələ yayxana.

Daş üstündə elçilər,
Qapını kəsib elçilər.
Anam deyir gəl verək,
Dədəm deyir qoy görək.

Sənin adın Zəhra, qız
Nə bişirirsən cızhacız?
Ay nənə, çörəh eliyirəm.
Başına dönüm, balaca balam,
Sənə nənən qurban.

Balamın balasına,
Odunu yığar şələsinə.

Gətirər verər nənəsinə,

Nənəsi qoyar ocağına,
Balasın alar qucağına.

Əvlərdə beş-beş olsun,
Bizim əvdə on beş olsun.
Biz də xalxa paylıyax,
Xalxın xətri xoş olsun.

Dedim su gəlsin,
Yatsın yuxusu gəlsin.
Uzaq-uzaq ellərdən,
Niyazi əmisi gəlsin.

Ay nazdara, nazdara,
Dən satıram qazdara.
Qazdar dənin yeyincə,
Sataşıram qızdara.

Ay mənim çiçək balam,
Çiçəyində ləçək balam.
Hamıdan göyçək balam,
Naz çiçəyim, nar çiçəyim, yaz çiçəyim.

**(98)**

HAXIŞTALAR

O tay, bu tay gül olsun, haxışta,
Ortasında bülbül olsun, haxışta,
Bizim kəndin qızları, haxışta,
Ayrı yerə sürgün olsun, haxışta.

Çadra yudum açılmaz, haxışta,
Qara vurdum, seçilməz, haxışta,
Qəribliyə gedən qızın, haxışta,
Qaş-qabağı açılmaz, haxışta.

Dolayıdan gəl, dolayıdan, haxışta,
Donunu biçim darayıdan, haxışta,
Köynəyi xas qırmızı, haxışta,
Qurşağı kərbəladan, haxışta.

Paltarımın dəstinə, haxışta,
Ətir səpim üstünə, haxışta,
Neynim ki arvadın var, haxışta,
Məni də al üstünə, haxışta.

Gəlin biləkli gəlin, haxışta,
Ceyran irəngli gəlin, haxışta,
Xamır eylə çörək yap, haxışta,
Ay şir biləkli gəlin, haxışta.

Cəhrəciyim palıddı, haxışta,

Əyirməmişəm qalıbdı, haxışta,
Kişi bir pambıq alıbdı, haxışta,
O da bucaqlarda qalıbdı, haxışta.

Evlərində bişir yuxa, haxışta,
Onu yeyillər tıxa-tıxa, haxışta,
Tər bənövşə, mahud çuxa, haxışta,
Mən acınnan dayanmışam, haxışta.

**(99)**

MAHNI

Əyricədə əhdim məkə,

Ürəyim bağladı ləkə.

Sən gəlincə öldüm bəlkə,

Aş gəl, aş gəl bu dağları, ay qardaş,
Yolda qoyma mən ağları, ay qardaş.

Əyricədən gəlir bir tov araba,

Sən gedənnən məhlə qalıb xaraba.

Aş gəl, aş gəl bu dağları, ay qardaş,
Yolda qoyma mən ağları, ay qardaş.

**(100)**

DÜZGÜLƏR

Üşdübüdü ha üşdübüdü,
O kişi mənim dostumudu,
Getdi Gilana gəlmədi,
Yaylığım aldı vermədi,
Yaylığımın ücü qara,
Yolladım heykəl yara,
Heykəl yarı öldürüllər,
Ağbalaya geydirəllər,
Ağbalanın saçağı,
Gümüşdəndi bıçağı,
Vırdım sandıx açıldı,
Incili mərcan seçildi,
Incili mərcan filfili,
Gəl oxu bizim dili,
Bizim dil urmu dili,
Urmudan gələn atdar,
Heyva dənəsin çırtdar,
Heyvanı ötürəydim,
Nəzərə yetirəydim,
Nəzərin qız-gəlini,
Şahmara yetirəydim,
Şahım Şirvan içində,
Qılıncı qan içində,

Ağ atın ağaşdarı,
Bar gətirməz başdarı,
Yel topun olsun qardaş,
Gül topun olsun qardaş.

*** *** ***

Taxçadan baxan dəmbələngöz,
Birisi kəhər, birisi boz.
Mindim bozun boynuna,
Sürdüm Şirvan yoluna.
Şirvan yolu dərbədər,
Içində meymun gəzər.
Meymunu vırdım ağlatdım,
Başına göy bağlatdım.
Tumanı pulu-pulu,
Çırpası qodux tulu.

**(101)**

## DUVAQQAPMA MƏRASIMI

Qırmızı paltar geyinmiş gəlinin başına qırmızı da yaylıq örtülər. Mərasimi xüsusi hazırlıqlı bir aparıcı qadın idarə edər. Tut ağacından kəsilmiş çubuqla yaylıq qatlana-qatlana mərasimin ənənəvi sözləri oxunar.

Gəlin, sənin boyun bəstə,
Eşqə düşdün nə həvəslə.
Xoş gəlmisən, gözlər üstə,
Xor - Gəlin, xoş gəldin, xoş gəldin!
Danışırlar fərəh-fərəh,
Sən olmusan bizə gərək.
Toy donun olsun mübarək,
Xor - Gəlin, xoş gəldin, xoş gəldin!
Gəlin, sənin adın Saçlı,
Barmağında üzük qaşlı.
Ər evi sənə peşkəşdi,
Xor - Gəlin, xoş gəldin, xoş gəldin!

Altına açaram xalı,
Çiyninə salaram şalı.
Sənə qurban dünya malı,
Xor - Gəlin, xoş gəldin, xoş gəldin!

Istəməyənə ar olsun,
Təzə bəy sənə yar olsun.
Gələn qədəmin var olsun,

Xor - Gəlin, xoş gəldin, xoş gəldin!

Qaynatanın tərifi:

Hər kişdənin bilər yerin,
Dindirəcək şirin-şirin,
Sana deyər nazlı gəlin,
O qaynata, o qaynata.
Sevəcəkdi sağa-sola,
Qurban verəcək sadağa,
Salmayacaq səni ayağa,
O qaynata, o qaynata.
Pay verəcək gizli-gizli,
Dindirəcək duzlu-duzlu,
Olmayacaq ikiyüzlü,
O qaynata,o qaynata.

Qaynananın tərifi:

Danışacaq dəcəl-dəcəl,
Verməyəcək sənə məcəl,
Qaynanadı xərdi-xəcəl,
Xor - Gəlin, xoş gəldin, xoş gəldin!
Tezdən yuxudan duracaq,
Əlin dalına qoyacaq,
Qonşuda qeybət qıracaq,
O qaynana, o qaynana,

Qaynana və ümumi xor -
Gəlin, xoş gəldin, xoş gəldin!
*Qaynananın tərifində gülə-gülə əl çalırlır.*

Gəlinin dilindən aparıcı qadın deyir:
- Gəlin deyər:

Bir mətləbə gəlmişəm,
Mətləb mənim tale baxtım yar olsun.
Istəyən qohum-qardaşları şad görüm,
Istəməyən düşmənləri xar olsun.

Gəlin deyər: bu yollarda var ömmən,
Əl dəyməmiş bir ovçuya saram mən.
Gözəl bir oğlana təzə yaram mən,
Yarəbb, mənim tale baxtım var olsun!

Gəlin deyər: boynumdadı mirvari,
Axtarıb tapmışam bir gözəl yarı.
Baxtımı istərəm səndən, ey tanrı,
Yarəbb, mənim tale baxtım var olsun!

Gəlin deyər: tapmışam öz tayımı,
Xoş keçirmişəm həftə –ayımı.
Ilahidən istərəm övlad payımı,
Yarəbb, mənim qız-oğlanım var olsun!

Gəlin deyər: danışaram mən düzü,
Atadan almışam çörəyi-duzu.
Yaşımı istərəm doxsanı, yüzü,
Yarəbb, mənim uzun ömrüm var olsun!

Aparıcı qadın:

Gəlin deyər: hanı bacım,
Başımdan aldılar tacım,
Baldızındı sənin bacın,
Xor - Gəlin, xoş gəldin, xoş gəldin!

Axşamdan bişirdim aşı,
Üstünə qoydum xaş - xaşı,
Ol baldızının sirdaşı,
Xor - Gəlin, xoş gəldin, xoş gəldin!

Ay ala göz, ay qələm qaş,
Sən də oldun gəlinlərdən baş.
Qaynın olsun sənə qardaş,
Xor - Gəlin, xoş gəldin, xoş gəldin!

Ay mübarək bu qeyrətə,

Gəl uyma mala-dövlətə.
Qaynatandı sənə ata,
Xor - Gəlin, xoş gəldin, xoş gəldin!

Sən də bir yaşılbaş sona,
Nə girmisən dondan-dona,
Qaynanandı sənə ana,
Xor - Gəlin, xoş gəldin, xoş gəldin!
Gəlin, xoş gəldin, xoş gəldin!

**(102)**

*Novruz bayramında oğlanlarla qızların bulaq başında deyişməsi:*

Oğlan deyir:

Şır-şır axan bulaq üstə,
Sonalar tək duran, qızlar.
Qara telə sığal verib,
Halqa-birçək buran, qızlar,
Ömrünüz heç görməsin,
Şaxta-duman boran, qızlar.

Qızlar deyir:

Bülbül olub heç dərmədin gülümü,
Ayrı düşdüm, eşitmədin dilimi.
Oğlan, ölüncən gözdüyərəm yolunu,
Gəl bulaq üstə tək, ay oğlan.

Oğlanlar deyir:

Bağbanam bağ alara,
Zərgaram, gümüş yonaram.
Bir belə ki, mən yanaram,
Bir sənə də kar eyləsin.

Qızlar deyir:

Bağban olub heç dərmədin gülümü,
Ayrı düşdüm, eşitmədin dilimi.
Gəl görüşək oğlan,
Bir də görmüyəcəm üzünü.
Bağban olan atıb getməz barını,

Sevgi olan qoyub getməz yarını,
Unutma, sevgilim, yada sal məni.

Oğlan deyir:

Bağban idim, bağda bar səbəbinə,
Bülbül idim, gülüzar səbəbinə.
Bevəfa, beilqar yar səbəbinə,
Divana Məcnuna tay olan könlüm.

## GÜLMƏCƏLƏR

**(103)**

### ALLAHQULU QARDAŞIN BIR DƏ AT BORCU VARDI

Bir nəfər kişi arvadına deyir:

-Ay arvad,- arvadı da ağır eşidirmiş. Der ki, arvad, getdim bayramlığı aldım gətdim qoydum ora.

Bı da elə bilir ki, Bayram addı adamındı. Gündə bı təlisin böyrün deşillər çərəzdən, filannan daraşır uşaqlarıynan yeyillər. Bir gün görür bı azalıb. Deyir:

-Bını Bayram kişi gələndə nə təhər verəciyəm.

Ağzını bağlıyır. Deyir:

-Ay Allah, tez Bayram kişini yetir.

Çıxır eşiyə görür atın üstündə başı sarıxlı bir kişi gedir. Çağırır:

-Qardaş, ay Bayram qardaş. Kişi o dəqiqə görür ki, bı gicdi. Deyir:

-Bəli.

Deyir:

-Sən Allah bı ayın-oyunu tez apargınən uşaqların öhdəsindən gələmmirəm. Yeyillər qalmır.

Deyir:

-Bacı, gökə bıra.

Alır, atır qucağına, atı qavır. Əri gəlir. Deyir ki, Allaha çox şükür, a kişi, verdim getdi.

Deyir:

-Nəyi?

Deyir:

-Demişdin təlis Bayramındı. Verdim getdi.

-Bıy sənin vırqın təpənnən vırsın. Bayrama almışdım e, bayrama.

Kişi düşür bının dalına. Qaça-qaç bı atdı, bı piyada. Gəlir görür ki, bir ayrı kənddə bir dəstə qız-gəlin bulaqda su doldurur. Ta ciyarı yanırdı. Deyir:

-Ay bacı, o sudan bir parç ver ma.

Bı alır içir. Deyir:

-Oxxay.

Arvad soruşur:

-Qardaş hardan gəlirsən?

Deyir:

-Cəhənnəmdən.

Deyir:

-Qağa, sən Allah cəhənnəmdə məm Allahqulu qardaşım nə təhərdi?

Görür ki, arvadının tayıdı. Deyir:

-Yeyib içməyimiz bir yerdəydi, amma yazığın əlli manat borcu var.

Deyir:

-Qardaş qurbanın olum, dayan, qoy gedim gətirim.

Qaça-qaça gəlir o qədər sevinir ki, pencəkli- zaddı pulu gətirir. Deyir:

-Qağa, sən Allah pul da içindədi, ver qardaşım geysin.

Deyir:

-Bacı, baş üstə.

Kişi alır, düşür yola. Arvad da gəlir evdə başdıyır ninay çalır oynuyur. Əri gəlir. Deyir:

-Kişi, bilirsən noldu? Allah canı sağ eləsin, qardaşımın borcunu da yolladım. Bir də pencəh yolladım.

Deyir:

-Qardaşın hardaydı?

Deyir:

-O dünyadan-yanından adam gəlmişdi.

Deyir:

-Ba ağılsız, o dünyadan adam nə gəzir?

Bı da düşür bının dalına. Bı səfər qaça-qaç. Kişi görür atlı gəlir. Bicin biriydi. Bilir ki, pulun dalınca gəlir. Tez qaçır dağın ətrafında kəndin qırağında bir daş vardı, çiynin söyküyür ora. Bu görür ki, bir adam daşdan asılıb. Tez atı saxlıyır. Söykənən kişi deyir:

-Qardaş, müsəlman dəyilsən? Gəl atı bağla ora kola, daşı saxla. Mən bir az dincəlim.

Bı atdan düşür gəlir. Deyir:

-Ə qağa, daşın nəyin saxlıyırsan?

Der ki, bı daş yerindən dərbənib indicə kəndi basacaq. Amanın bircə günüdü qoyma. Bı daşın o tərəfindən keçir ehmalca atı açır minir, gedir. Bı deyir:

-Ə, bə noldu?

Baxır kişi də yoxdu, at da. Gecə gəlir evinə çıxır. Qapını döyür. Arvadı deyir:

-Kimdi?

Deyir:

-Başına daş düşsün ərindi. Allahqulu qardaşın bir də at borcu vardı. Apardım onu da verdim gəldim.

**(104)**

## ÖLMƏSƏM QALSAM

Bir kasıb kişiynən bir kasıb arvad yaşıyırmış. Bı arvad çox tənbəlimiş. O vaxtı da yunu darıyırdılar, cəhrəynən əyirirdilər, şalvar, çuxa, corab toxuyurdular. Bir gün kişi der ki, ay arvad, ma bir cüt corab toxu, toy olur, xeyir-şər olur, ayaqyalın getmiyim. Mən utanıram. Arvad der:

-Yaxşı, niyə toxumuram a kişi, arvadın ölmüyüb ki, sa bir cüt corab toxuyacaq.

Gəlir toxuyur. Bir ilə bir tayın toxuyur. Bir gün qonşuda toyumuş, çağırıllar. O vaxtı evin içində toy eliyillər. Hamı oturub ayağını uzadırmış xalçanın üstündə. Kişi der:

-Corab ver geyim gedim.

Der:

-A kişi bir tayın toxumamışam.

Der:

-Elə o bir tayın ver geyim gedim.

Arvadı məcbur eliyir. Arvad gətirir bir tay corabı verir. Bı geyib gedir. Arvad fikirrəşir ki, yəqin bı məni biyabır eləməkdən ötəri elədi bunu. Gedim bir bacadan baxım görüm kim gülür mənə, kim gülmür. Arvad gedir çıxır bacıya. Bacadan baxır ki, kişi corablı ayağını uzadıb, corab olmuyan ayağını yığıb altına oturub. Bacadan deyib:

-A kişi, allah sənə kömək olsun. Yaxşı ki, məni biyabır eləmədin. Bir ilə bir tayın toxumuşam, ölməsəm qalsam gələn il bı vaxta o biri tayın toxuyaram.

**(105)**

## IRƏDD EŞŞƏYINDI, ƏMƏL SƏNINDI

Bir qaynana olur. Bir az da kasıbçılığımış, gəlinə çörəyi cirəynən verirmiş. Deyirmiş ki, ay gəlin, parçıya dəymə, bütünə dəymə, dorğa, doyuncan ye. Gəlin də qalır məəttəl ki, necəyanı, parçıya dəymə, bütünə dəymə, dorğa, doyuncan ye. Gəlin də çörəyin qıraqların kəsmir, lavaşın ortasını əzir yeyir. Əlacı kəsilir qaynananın. Der:

-Mən nə təhər eliyim. Bu gəlin çörəyi yeyir.

Çörəyi yapır qoyur taxçıya. Taxçanın da qabağına un tozu səpir ki, gəlin yeyəndə ayağının izi düşsün. Gəlin də acdı neynəsin? Üzdəniraq, gəlin eşşəyi minir sürür, taxçanın qabağına. Çörəkdən birin-ikisin götürür yeyir. Arvad gəlir, sayıb axı çörəyi. Arvad gəlir, çörəyi sayır.

-Ay gəlin, çörəyi sən yemisən?

Deyir:

-Yox. Ay qaynana, ulağın irəddi var. Çörəyi ulaq yeyib.

Qaynana deyir:

-Gəlin kəs səsı, irədd eşşəyindi, əməl sənindi. Yenə çörəyi sən yemiş olarsan.

**(106)**

## HAZIRCAVABLAR

Babamın bağı hasarın içində olub. Oğrular gəlib girillər bağa. Görüllər babam gəldi. Biri qaçıb su arxının içində uzanır, biri ulağın altına girir, biri də qaçır çıxır alçanın başına. Babam gəlir. O arxın içində uzanana deyir:

-Ay oğlan, sən kimsən, bura niyə uzanmısan?

Deyir:

-Mən suyam.

Deyir:

-Susan, di ax get da.

Deyir:

-Donmuşam axı.

Gəlir o ulağın altına girənə deyir:

-Ay oğlan, niyə girmisən bı heyvanın altına.

Deyir:
-Mən bunun balasıyam.
Deyir:
-Axı ola bilməzsən.
Deyir:
-Anamnan küsmüşəm, gəlmişəm atamın yanına.
Gedir o alça ağacına çıxana deyir:
-Sən niyə çıxmısan bu ağaca?
Deyir:
-Bülbüləm.
Deyir:
-Bülbülsən, bir xoş avazla oxu.
Başlayır cır səslə qışqırmağa. Deyir:
-Yox, bülbülün belə səsi olmaz.
Deyir:
-Əşi turş alça yeyənin bundan artıq səsi olmaz.

**(107)**

Birinin keçiləri itir. Oğluna der ki, get, bala, molluya de, qurdun ağzını bağlasın. Oğlan gedir. Der:
-Molla əmi, keçilərimiz itib, qurdun ağzını bağlamaq lazımdı.
Deyir:
-Oğul, bağlıyım da. Bağlıyır, yazır kağıza,qoyur bıçağın arasına. Bıçağın ağzını örtür. Deyir:
-Oğul, götür get.
Oğlan gəlir. Atası der bağlatdın?
Deyir:
-Bəli.
Səhər keçilərin hamısı salamat tapılır. Atası deyir:
-Günahdı bı qurdun ağzı ta bağlı olmaz. Bı kağızı apar at suya.
Oğlan kağızı açır, baxır ki, yazılıb:
«Qızılboğazdan yuxarı olan canavarlar, Qaraş kişinin keçiləri əlıza düşsə, birin də salamat ötürməyin».

**(108)**

## SƏN AĞLADIN

Bir dəyirmançı varmış. Bının üç arvadı varmış. Bir gün dəyirmançı uzanır yerə, deyir:

-Mən ölürəm. Məni ağlayın görüm nə təhər yaraşdırıb ağlıyassız amma xırdadan başlayın. Xırda arvad ağlasın.

Xırda arvad deyir:

-Başın buxara börkünə, əynın qıyqaş yapıncısına, dizə kimi düyməli- dəndə deyir:

-Saxla ağlıyammədin. Ortancıl arvad ağlasın.

Ortancıl arvad deyir:

-Irahat xan-bəy otağa- deəndə der:

-Sən də ağlıyəmmədin, saxla. Böyük arvad ağlasın.

Böyük arvad deyir:

-Tüstülü çervərıa yarı çiy, yarı bişmiş çörəya, başın daş yastığına, üstun yun yorqanına, yeddi arxın suyun bir nava sığışdıran canına, üç arvadı bir-biriynən boğuşduran canına mən qurban.

Deyir:

-Hə, sən ağladın.

**(109)**

## XORUZUN QUYRUĞU GÖRÜNÜR

Biri gedir bir kasıb əvə qonaq olur. Nə imkannarı çatır bına hörmət eliyillər. Qabaxlar da saat çox çətin tapılardı. Bınnarın oruşdux vaxtı, namaz vaxtı xoruz saatı əvəz eliyirdi. Obaş bannıyanda bilir səhərdi. Molla bı əvdə yeyir-içir, əv yiyəsi durur, öküzü qatır qabağına aparır. Mollanın da gözü qapıdakı bı xoruza düşmüşümüş. Der:

-Nə təhər eliyim bı xoruzu götürüm gedim.

Arvad da ha gözdüyür ki, bı qonağı yola salsın, getsin suya, əv işdəri görsün. Qonaq da arvadı gözdüyür ki, getsin bı xoruzu götürüb aparsın. Arvad görür bı getmir. Durur sənəyi götürür gedir suya. Molla durur xoruzu tutur gedir. Arvad gəlir ki, xoruz yoxdu, molla da yoxdu. Durur qonum-qonşudan soruşur:

-Mollanı görmədız?

Deyillər:

-Bı tərəfə getdi.

Qaçır arvad. Molla kənddən çıxhaçıxda mollanı tutur.

Deyir:

-Molla əmi, utanıram da sənnən soruşam, biz elə vaxtımızı, sahatımızı xoruznan bilirdih. Mən suya gedəndə sən də qapıdaydın,

xoruz da. Indi xoruz yoxdu. Mollanın da əbası cırığımış. Ordan xoruzun quyruğu görünürmüş. Molla and içir ki, mən heylə iş görərəm?

Arvad deyir:

-Molla əmi, anda inanmıyana Allah lənət eləsin. Anda inanıram, amma xoruzun quyruğu da görükür. Indi qalmışam çəp, bilmirəm xoruzun quyruğuna inanım, yoxsa sənin andına inanım.

**(110)**

Bir gün bir kişi olur. Adı Ismayıl olur. Bını arvad başdan çıxardır aparır dağa. Üççə də keçisi olur. Gedir dağda boran olur. Bının keçisinin biri düşür borana. Bı  başdıyır deyir:

Üç keçinin birin verdik borana,
Arvad, insaf elə köçək arana.

Arvad deyir ki, əşi keçidi, ölüb canın sağ olsun. Ətinnən ye, sudan iç, yat bırda. Kişini yavaşıdır. Kişi qalır səhərə. Səhər günortadan sora genə boran başdıyır. Yağır bının keçisinin ikisi də ölür. Genə başdıyır oxuyur:

Üç keçinin ikisin verdik borana,
Arvad, insaf elə köçək arana.
Burda yaşar ayı, donuz, canavar,
Arvad, insaf elə köçək arana.

**(111)**

## ATDAN DAŞ ÜSDƏN AŞ

Bir ayilə olur. Gündə süddü aş bişirirmişlər. Düyüləri çox olurmuş. Gətirib gəlin yeməyi çəkirmiş. Deməynən gəlin əvvəlcədən qaynananın qabının dibinə daş qoyub, sora aş qoyurmuş. Oğul da baxır ki, hə da anasına bıllardan çox qoyub. Anası da sirri açmırmış. Deyirmiş dava-dalaş düşər. Oğul da der:

-Ana ye, ana ye.

Deyirmiş:

-Mən isti yəmmirəm. Siz yeyin.

Bı hamıdan sora yeyirmiş. Bir gün belə, beş gün belə. Arvad deyir ki, qızı da qonşu kənddə qalırmış, gedəciyəm bir üç-dörd gün də orda qalam. Gedir qızıgilə. Yad oğludu da kürəkəni, bir neçə gün qalannan sora görür mısmırıq eliyir kürəkən. Gəlir öz evinə yaxınnaşanda qol götürüb oynuyur, oxuyur:

Atdan daş,
Üsdən aş –
genə öz oğluma qurban olum.

Bı oğul bını eşidir, soruşur:

-Nədi? Nədi?

Der:

-Bala heç bir şey, öz-özümə oxuyuram.

Oğul fikirrəşir ki, yox, bırda nəsə var. Anam niyə belə oxuyur? Səhərisi süddü aş bişirillər. Gənə gətirir çəkir. Baxır ki, anasına bıllardan çox qoyur. Oğul anasının qabın-xörəyin çəkir qabağına, qaşığı bir dəfə vırır, iki dəfə vırır, qaşıq ilişir daşa. Onnan sora sirrin üstü açılır, gəlini boşuyullar.

## OYUNLAR

**(112)**

### ÇÖRDÜÇÖP, YAXUD ÇÖPÜDÜ

Toylarda iki dəstə tutub yallı gedirlər. Məsələn; 10 nəfər bir dəstədə, 8-10 nəfər də bir dəstədə. Biri cibindən bir əşya, canlı və ya cansız nəysə çıxardır. Alır əlinə və yaxud ağzında tutur ki, cavabımı verin. O biri dəstə də eyni əşyanı çıxartmalıdı. Yox, həmin əşya bu dəstədə yoxdursa, tapıb çıxarda bilmirsə, uduzur. Qalib dəstə onu döyür. Əgər ona cavab verib eyni əşyanı çıxartsa, hər iki dəstə bərabər qələbə qazanır. Birlikdə yallı gedir.

**(113)**

### ÇÖPÜDÜ

Bir ağsaqqal, ardınca 10-15 cavan oğlan bir dəstə olurdu. Bı yandan da bir dəstə düzülürdü. Yallının başında olan adam cibindən gizdilim bir şey çıxardırdı. Əgər o biri də ondan çıxartmırdısa əlindəki çubuqla o biri dəstəni buduyurdu.

**(114)**

### PALAZAGIRMƏ

3-4 nəfər arasında oynanılır. Palazı örtürsən birinin üstünə, o biri gəlib vırır. Vıranın adını düz tapırdınsa onu yatırdırdın. Belə-belə, tapa bilməsən, yenə sən oyunda qalırdın.

**(115)**

Arvaddar cərgə tuturdular. Arvaddardan biri otururdu içəridə, guya inəkdi. Bir-bir sağırdılar:

-Nənəm, nənəm

Biri də başının üstünnən deyirdi:

-Myo, myo,

guya o da pişikdi.

Deyirdi:

-A pişik, nəciyəz?

Pişik deyirdi:

-Mənə bircə xırdaca südciyəz.

Inəyi sağan deyirdi:

-Ay qırmızı inək, ona bir təpik.

O qırmızı geyimli gəlin pişiyə bir təpik vırırdı.

**(116)**

## ÇƏKICANDI TUTMAQ

Yekə arvadlardan biri otururdu yerə xırdaların biri girirdi onun qucağına. Qalan arvadlar bir-birininin belinnən tuturdular düzülürdülər çəkirdilər kim qırıldı onu oynadırdılar.

**(117)**

## BOSTAN-BOSTAN OYUNU

Biçənəkdə toyda görmüşdüm:

Gen paltarlı 7-8 nəfər girdi ortaya, başlarında papaq. Guya bostan əkirdilər. Bostan o saat yetişirdi. Papaqları tökürdülər guya qovun-qarpızdı. Bostan yetişəndə davaları düşürdü. Əllərindəki beli qaldırıb bir-birinin qarnına vururdular. Gülməli səhnə yaranırdı, camaat gülürdü. Sonra bildim ki, paltarın altından qarınlarına saman doldurulmuş çuval bağlayıblar.

**(118)**

## DÜLƏDÖYMƏ OYUNU

Öküzün tüküynən top qəyirirdilər. Balaca – alma yekəlihdə. 5-6 oğlan olurdu. Bı atırdı ona, o atırdı bına. Adına Dülədöymə deyirdilər.

**(119)**

XALQ TƏBABƏTI

✳ Yel xəstəliyini sağaltmaq üçün ərik odunun, gərməşov odununun kötüyünü, malın yaz təzəyini yığıb təndirə tökürlər yanır, azca içərisində çiyi qalanda (yəni tüstüsü) ağzını örtürlər. Həmən xəstənin altına keçə salıb ayaqlarını sallıyırsan təndirə, xəstə tam tərliyir, yuxluyur. O xəstəlik canından çıxır.

✳ Qarğa soğanının kötüyü sarmaşıq kimi olur. Onu əzib çəkirlər yel xəstəliyi olan adamın bədəninə, yandırır-yandırır xəstə yuxluyur. Ayılanda sağalır. Amma ürəyi xəstə olanlara bunu etmək olmaz.

✳ Andız yarpağını dəmləyib içmək dişin dibindəki iltihabları götürür. Kötüyü öskürməni sağaldır. Nəfəs yollarını təmizləyir.

✳ Yarpız, gicitikan, bağayarpağını dəmləyib içmək mədə yarasını müalicə edir.

✳ Təzə bağayarpağını döyüb hər gün yeməkdən qabaq üç dəfə bir xörək qaşığı qəbul etmək mədə yarasını sağaldır.

✳ Mədə qıcqıranda gündə bir neçə dəfə kələm yemək məsləhətdi.

✳ Nəfəs yolu xəstəliyində kartofu suda qaynadır, başı dəsmalla örtüb onun buğunda nəfəs alırlar.

✳ Ağ turpun yarpağını yemək gözü işıqlandırır.

✳ Ayaqlar şişəndə əməkköməcini döyüb soyuq halda şiş olan yerə qoymaq xeyirdi.

✳ Ayaqdakı döyənəyi yox etmək üçün hər axşam günəbaxan yağını pambığa batırıb üstünə qoymaq lazımdır.

✳ Üzərlik kökünü döyüb suyu çıxarılır və arpa ununa qarışdırıb qotura sürtüllər yox olur.

✳ Baş ağrılarında kələmin üst yarpağını alına, boyunun arxasına və başa qoyub bağlayanda ağrılar kəsir.

✳ Soğanı əzib balla eyni miqdarda qatıb kirpiklərin dibinə çəkəndə görmə qabiliyyəti xeyli artar.

✳ Itburnunu əzib ələkdən keçirib 400 qram qara küncüt, yarım kilo balla qarışdırıb içinə ovulmuş yarpız, nanə, solmaz çiçəyi əlavə edilir. Bir həftə qaldıqdan sonra hər gün səhər-axşam yeməkdən qabaq bir xörək qaşığı udmaqla qaraciyərin şişi çəkilir, öd yolları açılır.

✳ Şiş yaralarında qarağacın kötüyünün zoğunu soyur, o vaxt yazlıq buğda deyirdik onun unuynan məlhəm hazırlayıb yaranın üstünə qoyulur. Bir- iki günə yara sağalır.

**(120)**

# YER-YURD ADLARIMIZ

## ŞAHPUR QALASI

Şahpur bir əzazil padşah olub. Camaata çox zulum eliyib. O vaxt Ibrahaməjdər addı sərkarda olub. O, Imam Hüseynin də sərkardası olub. Gəlib Ibrahiməjdər o Şahpuru burda öldürüb camaatı əsirlikdən qurtarıb.

## GƏLIN QAYASI

Ermənilər müharibə eliyib. Ərəfsə kəndi var. Oranı ermənilər qırıb, əsir götürüb. Əllərindən bir neçə qadın qutarıb qaçıb. Bir gəlin qayıya çıxıb, əlacı kəsilib. Düşmənin əlindən özünü dağdan atıb. O dağın adı qalıb Gəlin qayası.

## CAMAL QALASI

Camal bir mötəbər kişi olub. O da qaçaq olub. Qala salıb. Çox düşmən öldürüb. Onu əsir götürüblər. Qalanın adı Camal qalası qalıb.

## YAZAN- QURAQ

Yazan- quraq aprel ayında olur. Bizim dədə-baba dilimizdə guya yaz da qutarıb, təzə də çıxmayıb ona deyillər.

## OĞLAQQIRAN

Payızın yarısına oğlaqqıran deyirlər.

## SÜDDÜ NƏNƏ

Badamlıda daş var adına Süddü nənə deyillər.

Süddü nənə odu ki, indi hansı gəlinin uşağı olur südü olmur, qavırqanı qavırır, bırdan o Süddü nəniyə kimi tökə-tökə gedir ki, gələndə yığar. Orda da daşda oyuq var. Bir qab da su aparıllar. Orda bir nəfər südü olmuyan ağzını tutur ayrısı suyu tökür, o, içir. Durur o Süddü nənədən ta əvə kimi qavırqanı yığır gəlir. Əvdə o qavırqanı yeyir. Həmən gəlin südə gəlir.

## BULAQLAR

Pünhan bulaq-Kükü, Ağbulaq
Süddü bulaq-Kükü, Aşağı Qışlaq
Xam bulaq-Kükü
Kalba Nəbi bulağı -Kükü
Əyri su -Kükü
Soyuq bulaq-Kükü
Qara bulaq -Kükü
Çillinin bulağı -Kükü
Qırxbulaq -Kükü
Gur bulaq-Kükü, Güney Qışlaq
Qulu bulağı-Kükü
Qiblə bulağı-Kükü
Çınqıllı bulaq-Kükü, Keçili
Zor bulaq-Aşağı Qışlaq, Biçənək
Gözə bulaq- Aşağı Qışlaq
Təy bulaq- Aşağı Qışlaq
Kalafarlı bulaq - Aşağı Qışlaq
Təhnə bulaq-Kolanı
Ağbulaq-Biçənək, Ağbulaq
Söyüdlü bulaq-Biçənək
Daş bulaq-Keçili,Güney Qışlaq
Çeşməbasar-Keçili
Təzə bulaq-Keçili
Sarı bulaq-Keçili
Qarama bulaq-Keçili
Muncuqlu bulaq-Keçili
Qumlu bulaq-Keçili

Çala bulaq-Güney Qışlaq
Nav bulaq-Güney Qışlaq
Göy bulaq-Güney Qışlaq, Qızıl Qışlaq
Qoç bulaq-Ağbulaq
Şırran bulaq-Ağbulaq
Qızlar bulağı-Ağbulaq, Naxçıvan
Qızdırma bulağı-Qarababa
Quru dərə bulağı-Qızıl Qışlaq
Çuxur bulağı-Qızıl Qışlaq
Şıx bulağı-Ayrınc
Qırmızı bulaq-Ayrınc
Turşsu bulağı-Ayrınc
Qotursu bulağı-Ayrınc
Kəklikli bulaq-Ayrınc
Şor bulaq-Ayrınc
Portdan-Külüs, Nursu

KƏFŞƏNLƏR

Xınzirək-Aşağı Qışlaq
Palçıqlı-Aşağı Qışlaq
Mərgili yurd-Aşağı Qışlaq
Götürgə-Kolanı
Səhlalı-Kolanı
Gülümlü Qüzey-Kolanı
Batabat kəfşəni-Biçənək
Canat-Biçənək
Qara torpaq-Keçili
Xırxır-Keçili
Tuqunölən-Keçili
Yellicə-Keçili
Taxta yurd-Keçili
Dərə yurd-Keçili
Qara daş-Keçili
Dibəkli-Keçili
Ərəci-Keçili
Üç qardaş-Keçili
Güney yurd-Keçili
Qanqallı yurd-Keçili

Həsirxana-Keçili
Kolluq-Keçili
Almalıq-Keçili, Qızıl Qışlaq
Navlı-Qızıl Qışlaq, Badamlı, Güney Qışlaq
Çat dodaq-Güney Qışlaq, Badamlı
Daşdı təpə-Güney Qışlaq
Dəhnə-Güney Qışlaq
Şah yurdu-Güney Qışlaq, Nursu
Dib yurd-Güney Qışlaq
Təhnəli-Güney Qışlaq
Dədə yurd-Güney Qışlaq
Daş düşən-Badamlı
Yemişan dərə-Badamlı
Qarağaclıq-Badamlı, Külüs
Bozdarlar-Badamlı
Əkənək-Badamlı
Alçalıq-Badamlı
Taxça yurd-Badamlı
Qurd yuvası-Badamlı, Şada
Künkün yalı-Badamlı, Şada
Kələkli-Qarababa
Boyaqlı-Qarababa
Əlmərdanbəy arxacı-Qarababa, Kükü
Təmrəz-Qızıl Qışlaq
Təpə boynu- Qızıl Qışlaq
Sarılar- Qızıl Qışlaq
Ağdüz- Qızıl Qışlaq
Əyricə-Ayrınc
Xornu-Külüs
Şamama təndiri-Külüs
Səkov-Külüs
Armudlu-Külüs
Ayı yuvası-Külüs
Çadırdaş- Nursu
Muradxan yurdu- Nursu
Quşdərə-Nursu
Hamar qüzey- Nursu
Haçabənd- Nursu
Ayı  dərəsi-Nursu

## PIRLƏR

Duzdağın piri-Keçili
Tarın piri-Keçili
Ərəcin piri-Keçili
Qoca piri-Güney Qışlaq
Cəviz piri-Güney Qışlaq
Yemişan dərənin piri-Badamlı, Şada
Yel piri-Badamlı, Şada
Pir dağı-Ağbulaq
Qızdırma bulağın piri-Qarababa
Qoyunlu baba piri-Məzrə kəndindən yuxarıda
Həzrin piri-Ayrınc
Qara pir-Külüs
Sarı pir-Külüs
Kahan piri-Külüs
Əşkab piri-Külüs

Külüsdə tayfa adları:
Məymətdi, Qəhrəmanlı, Mənsimli, Babacığlı, Oruclu, Sofulu, Cərrovlu Tayfaları.

Kolanıda olan tayfa adları:
Gülümlü, Qazaxlı, Kolanı.

Aşağı Qışlaqda bir məhəllə var adına Cinni Məhəlləsi deyirlər.

## LÜĞƏT

| | |
|---|---|
| Cada yol- düz yol | (Biçənək) |
| Qayanın cabası-qayanın qarşısı | (Biçənək) |
| Urcah- rast, qarşı | (Biçənək) |
| Əninə-bəninə- o yanına, bu yanın | (Şahbuz rayonu) |
| Ağüzəmməz-iştahasız | (Kükü) |

Cuğa-çoxluq (Kükü)
Gizdilim-gizli, xəlvət (Kükü)
Məhlim- məgər, sual ədatı (Nursu, Kükü)
Qorqanır-qısqarma, qoruyur, qorunmaq (Nursu)
Gizdiş-gizli (Nursu)
Çarqaş-bir-birinə qarışan (Nursu)
Mərgi-keçi xəstəliyi (Aşağı Qışlaq)
Irfitə, Irəfətə-çörək yapılan alət (Aşağı Qışlaq)
Kəsər-qılınc, bıçaq (Aşağı Qışlaq)
Masan-ağac adı (Aşağı Qışlaq)
Gav-qızların qulaq dibindən kəsdirdiyi saça deyirlər (Aşağı Qışlaq)
Xışmırov- qat-qatışıq (Aşağı Qışlaq)
Qımıxdım-qaçdım (Aşağı Qışlaq)
Qımqıma-nanay (Kolanı)
Lay-üzünə ağ olmaq (Kolanı)
Hüzürə-hüzür (Kolanı)
Külur-varlı (Kolanı)
Dınıtdadım-dinləmək (Kolanı)
Sapılca-tava (Kolanı)
Laxşay-yüngül adam (Kolanı)
Bafa- qom, dəstələr
Qəlbi-uca
Həmzatlı-dualı adam *(Uşaq 40-lı olanda həmzatlı adamın evə gəlməsi uşağa xətər toxundurmuş olur).*
Camtay-heybə *(Bu çobanlarda olurdu. Yun ipdən toxunurmuş, təxmini piramida kimi yanlar yaya, orta tərəf gəbə kimi)* Ağbulaq
Kələkli-daş yığını, daşlı yer (Ağbulaq)
Işgə-əyri (Qarababa)
Sarılıq-kəhrəba muncuğu (Külüs)
Hakkıx-göy muncuq (Külüs)
Ağızın lığabı –ağız suyu (Külüs)
Tağall gəlmək, təkər gəlmək-lağ eləmək (Külüs)
Turşalax-yeyilən bitki
Danzıl-yer adı əkin sahəsi
Məzrə-əkin yeri

Majgəl-kotanı tutub idarə edən
Kuful-ağacın koğuşu
Xodək-öküz boyunduruğunda oturan
Kürüşnə-Dənli bitki, mala verirmişlər
Vər- cərgə
Pak-biçmək
Çelvəri- *Əsasən çobanlar istifadə edir.*
*Yer qazılır kvadrat formada üstünə*
*sal daş qoyulur. Azacıq yol qoyulur*
*ki, hava çəksin. Daşın üstünə keçə*
*sərilir. 20-25 sm hündürlükdə olur.* (Nursu)
Ərəci-yəni uca dağ adı (Keçili)
Kırs-qar uçqunu
Şəlpə-əski
Tar-düzəngah
Gorda-xəncər
Müskün-söyüd
Mahrəsə-yumşaq, çimən
Çırpıq- süpürgə ilə ağardılmış ev

## *SÖYLƏYƏNLƏR HAQQINDA MƏLUMAT*

1. Abbasova Qonça Əzim qızı, Güney Qışlaq kəndi, 1934-cü ildə anadan olub, təqaüdçü. **№ 33, 31.**
2. Abbasova Sevgili Əkbər qızı, Aşağı Qışlaq kəndi, 1927-ci il, təqaüdçü. **№ 91, 96, 118, 120.**
3. Adıgözəlova Mehriban Imamalı qızı, Badamlı kəndi, 1937-ci il. **№ 45, 56, 85.**
4. Abdinova Pakizə Mirzə qızı, Külüs kəndi, 1903-cü ildə anadan olub. **№ 96.**
5. Ağalarova Zərqələm Həmid qızı, Nursu kəndi, 1930-cu ildə anadan olub. **№ 99, 98, 95.**
6. Baxşıliyev Məhəmməd Əmrah oğlu, Aşağı Qışlaq kəndi, 1949-cu il. **№ 29, 32, 91, 112.**
7. Bağırova Şərqiyyə Mütəllim qızı, Nursu kəndi, 1932-ci ildə anadan olub. **№ 96.**
8. Bayramova Süsənbər Kətan qızı, Biçənək kəndi, 1930-cu ildə anadan olub, **№ 96.**
9. Babayeva Xırda Bəylər qızı, Badamlı kəndi, 1937-ci ildə anadan olub. **№ 14, 48, 92, 93.**
10. Babayeva Zeynəb Cəfər qızı, Qızıl Qışlaq kəndi, 1924-cü ildə anadan olub. **№ 3.**
11. Bağırov Rizvan Məhəmmədhüseyn oğlu, Nursu kəndi, 1954-cü ildə anadan olub, tarix müəllimi. **№ 42, 47.**
12. Bəyim Zeyni qızı, Kolanı kəndi, 100 yaşında, **№ 96.**
13. Əhmədova Bənövşə Fərman qızı, Biçənək kəndi, 1955-ci ildə anadan olub, evdar qadın. **№ 13, 52.**
14. Əmənov Həmid Əmən oğlu, Nursu kəndi, 1932-ci ildə anadan olub. **№ 96, 119.**
15. Əhmədov Həsən Məsum oğlu, Biçənək kəndi, 1913-cü ildə anadan olub. **№ 96.**
16. Əhmədova Mənzər Camal qızı, Biçənək kəndi, 1910-cu ildə anadan olub. **№ 96.**

17. Əliyeva Yadigar Nəsrulla qızı, Qarababa kəndi, 1928-ci ildə anadan olub. **№ 73.**
18. Əliyev Həsən Ağalar oğlu, Qarababa kəndi, 1922-ci ildə anadan olub, təqaüdçü. **№ 38.**
19. Ələkbərova Ceyran Ağa qızı, Nursu kəndi, 1920-ci ildə anadan olub, təqaüdçü. **№ 96, 89, 100.**
20. Ələkbərova Gülüsüm Səlim qızı, Aşağı Qışlaq kəndi, 1941-ci ildə anadan olub. **№ 96.**
21. Əliyev Sadıq Mütəllim oğlu, Qarababa kəndi, 1924-cü ildə anadan olub. **№ 72.**
22. Əliyeva Ədalət Həsən qızı, Keçili kəndi, 1942-ci ildə anadan olub. **№ 80.**
23. Əliyev Həmid Əli oğlu, Külüs kəndi, 1925-ci ildə anadan olub, təqaüdçü. **№ 120.**
24. Gülməmmədova Fatma Isa qızı, Ağbulaq kəndi, 1929-cu ildə anadan olub. **№ 17, 28, 88, 92.**
25. Hacıyeva Güllü Musa qızı, Mahmudoba kəndi, 1928-ci ildə anadan olub, təqaüdçü. **№ 11, 23, 71, 115, 116.**
26. Hacıyeva Şanı Ildırım qızı, Kolanı kəndi, 1898-ci ildə anadan olub. **№ 96.**
27. Hacıyeva Bayaz Mahmud qızı, Kolanı kəndi, 76 yaşında. **№ 96.**
28. Hacıyeva Səlbi Həsən qızı, Mahmudoba kəndi, 1914-cü ildə anadan olub. **№ 96.**
29. Hacı Həsən Misirza oğlu, Keçili kəndi, 1932-ci ildə anadan olub, təqaüdçü. **№ 12, 59, 61, 62, 81.**
30. Həsənova Çəmənnaz Vəli qızı, Güney Qışlaq kəndi, 100 yaşında. **№ 96.**
31. Həsənova Fəttah Zülfəli oğlu, Ayrınc kəndi, 1943-cü ildə anadan olub. **№ 63.**
32. Haqverdiyeva Gültər Allahverdi qızı, Aşağı Qışlaq kəndi, 110 yaşında. **№ 96.**
33. Hümbətova Zəkiyyə Ənnağı qızı, Güney Qışlaq kəndi, 1931-ci ildə anadan olub, təqaüdçü. **№ 4, 92.**
34. Hümbətova Kəklik Həmid qızı, Güney Qışlaq kəndi, 1947-ci ildə anadan olub. **№ 92, 96.**
35. Hüseynova Güllər Məşədi Bədəl qızı, Aşağı Qışlaq kəndi, 1923-cü ildə anadan olub, təqaüdçü. **№ 2, 19, 66.**

36. Hüseynova Səkinə Əli qızı, Ayrınc kəndi, 1935-ci ildə anadan olub, təqaüdçü. **№ 83.**
37. Hüseynova Qəmər Abdulla qızı, Aşağı Qışlaq kəndi, 65 yaşında, təqaüdçü. **№ 97.**
38. Hüseynov Qubad Ismayıl oğlu, Aşağı Qışlaq kəndi, 1957-ci ildə anadan olub, müəllim. **№ 1, 68.**
39. Hüseynov Vəli Əli oğlu, Biçənək kəndi, 1915-ci ildə anadan olub, müəllim. **№ 7, 8, 79.**
40. Hüseynova Səlbinaz Iman qızı, Şahbuz rayonu, 1925-ci ildə anadan olub. **№ 96, 98.**
41. Hüseynova Güldəstə Ziyad qızı, Aşağı Qışlaq kəndi, 1951-ci ildə anadan olub. **№ 95.**
42. Hüseynova Nübar Vəli qızı, Ağbulaq kəndi, 1938-ci ildə anadan olub. **№ 18, 92.**
43. Xəlilova Güllü Behbud qızı, Kükü kəndi, 1946-cı ildə anadan olub. **№ 101.**
44. Xudiyeva Məlahət Çingiz qızı, Qarababa kəndi, 1955-ci ildə anadan olub, müəllim. **№ 58, 91.**
45. Xudanova Güllü Əli qızı, Ayrınc kəndi, 1938-ci ildə anadan olub, təqaüdçü. **№ 15, 24, 55, 64, 91, 92, 94, 97.**
46. Xudaverdiyev Baxşəli Xudaverdi oğlu, Badamlı kəndi, 1933-cü ildə anadan olub, xarrat. **№ 100**.
47. Xudiyeva Salatın, Qızıl Qışlaq kəndi, 63 yaşında. **№ 93, 96, 97.**
48. Xudiyev Rəhim Ağamalı oğlu, Ağbulaq kəndi, 1941-ci ildə anadan olub. **№ 16, 25 a.**
49. Ibrahimov Elvin, Nursu kəndi, 34 yaşında, müəllim. **№ 57.**
50. Ibrahimova Məryəm Infil qızı, Külüs kəndi, 1936-cı ildə anadan olub, təqaüdçü. **№ 97, 102.**
51. Ibrahimova Cumayə Rəhman qızı, Nursu kəndi, 1939-cu ildə anadan olub, təqaüdçü. **№ 43, 91, 104, 119, 120.**
52. Hüseynov Imran Feyzulla oğlu, Ağbulaq kəndi, 1941-ci ildə anadan olub. **№ 86, 92.**
53. Kazımova Sara Əbdüləli qızı, Qızıl Qışlaq, 80 yaşında. **№ 96.**
54. Kərimova Göyçək Imran qızı, Biçənək kəndi, 1932-ci ildə anadan olub, təqaüdçü. **№ 25, 34, 35, 67, 78, 91, 97.**
55. Kərimov Kərbəlayi Qasım Məhəmməd oğlu, Mahmudoba, 74 yaşında, təqaüdçü. **№ 22, 54, 96, 106.**
56. Qəhrəmanova Lalə Ibrahim qızı, Külüs kəndi, 1933-cü ildə anadan olub, təqaüdçü. **№ 50.**

57. Qəhrəmanov Rəşid Novruz oğlu, Külüs kəndi, 1922-ci ildə anadan olub. **№ 20, 70, 94, 110, 120.**
58. Quliyeva Qonça Manaf qızı, Qarababa kəndi, 1947-ci ildə anadan olub. **№ 5, 10, 21.**
59. Quliyeva Ceyran Isa qızı, Qarababa kəndi, 1941-ci ildə anadan olub, təqaüdçü. **№ 92.**
60. Quliyeva Xanım Zihralı qızı, Külüs kəndi, 1934-cü ildə anadan olub, təqaüdçü. **№ 97.**
61. Quliyeva Leylan Qəhrəman qızı, Ağbulaq kəndi, 1932-ci ildə anadan olub. **№ 87.**
62. Quliyeva Zeynəb Ağa qızı, Ağbulaq kəndi, 50 yaşında, **№ 65.**
63. Quliyeva Göycə Məmmədqulu qızı, Mahmudoba kəndi, 73 yaşında, təqaüdçü. **№ 96.**
64. Quliyeva Xanım Zihralı, Külüs kəndi, 1934-cü ildə anadan olub. **№ 96.**
65. Quliyeva Səriyyə Məhəmmədhəsən qızı, Qarababa kəndi, 1914-cü ildə anadan olub. **№ 96.**
66. Quliyeva Ziba Qara qızı, Kolanı kəndi, 1906-cı ildə anadan olub. **№ 96.**
67. Quliyev Fərman Məhəmməd oğlu, Qarababa kəndi, 1927-ci ildə anadan olub. **№ 90.**
68. Quliyeva Lətifə Abbas qızı, Qarababa kəndi, 1932-ci ildə anadan olub. **№ 92.**
69. Mahmudova Şərəf Cəbi qızı, Aşağı Qışlaq kəndi, 110 yaşında. **№ 44.**
70. Məhərrəmova Səkinə Bəyməmməd qızı, Külüs kəndi, 100 yaşında. **№ 96.**
71. Mədətova Gülgəz Həsənxan qızı, Biçənək kəndi, 1934-cü ildə anadan olub. **№ 96.**
72. Məmmədova Xurşud Şiralı qızı, Aşağı Qışlaq kəndi, 65 yaşında. **№ 91, 92.**
73. Məmmədov Cabbar Hüseyn oğlu, Aşağı Qışlaq kəndi, 1937-ci ildə anadan olub. **№ 105, 111.**
74. Məmmədova Gülüsüm Infil qızı, Nursu kəndi, 1929-cu ildə anadan olub. **№ 96, 108.**
75. Məmmədov Məşədi Xələf Şükür oğlu, Külüs kəndi, 1923-cü ildə anadan olub, təqaüdçü. **№ 49, 96, 113, 114.**
76. Məmmədov Ilyas Əli oğlu, Nursu kəndi, 1919-cu ildə anadan olub. **№ 96.**

77. Məmmədov Rüstəm Rza oğlu, Badamlı kəndi, 1923-cü ild əanadan olub, müəllim. **№ 117.**
78. Məmmədova Sona Abılı qızı, Kolanı kəndi, 1900-cü ildə anadan olub. **№ 92.**
79. Məmmədov Həsənalı Xudakərim oğlu, Güney Qışlaq kəndi, 92 yaşında. **№ 46, 60.**
80. Məmmədov Arif Məmmədhüseyn oğlu, Güney Qışlaq kəndi, 1930-cu ildə anadan olub. **№ 6, 109.**
81. Məmişova Kərbəlayi Məstana Məşədi Orucəli qızı, Keçili kəndi, 78 yaşında. **№ 76, 77.**
82. Mürşüdova Xeyransa Kərim qızı, Badamlı kəndi, 1930-cu ildə anadan olub. **№ 96.**
83. Nəbiyeva Şaban Nuhu qızı, Qarababa kəndi, 67 yaşında, evdar qadın. **№ 96.**
84. Nəbiyev Fərrux Ibad oğlu, Kükü kəndi, 1938-ci ildə anadan olub, Kükü kənd mədəniyyət evinin müdiri, aşıq. **№ 82, 103.**
85. Novruzova Fizzə Məşədi Orucəli qızı, Qarababa kəndi, 1932-ci ildə anadan olub. **№ 41.**
86. Piriyev Nemət Əli oğlu, Qarababa kəndi, 1941-ci ildə anadan olub, müəllim. **№ 39, 40, 51, 69, 75, 107.**
87. Rüstəmova Immi Cəlil qızı, Nursu kəndi, 1933-cü ildə anadan olub, evdar qadın. **№ 96**.
88. Rüstəmli Sərraf Qasım, Aşağı Qışlaq kəndi, 1939-cu ildə anadan olub. **№ 94, 96**.
89. Rzayeva Gözəl Şahbuz rayonu. **№ 74, 53**
90. Rzayev Firudin Həsən oğlu, Culfa rayonu, Xoşkeşin kəndi, 1952-ci ildə anadan olub, müəllim. **№ 94**
91. Salmanova Müşkünaz Hüseyn qızı, Qarababa kəndi, 1941-di ildə anadan olub. **№ 96.**
92. Seyidov Miryəhya Müseyib oğlu, Biçənək kəndi, 1931-ci ildə anadan olub. **№ 9, 26, 27, 30, 37.**
93. Səfərova Səlbinaz Qulammirzə qızı, Güney Qışlaq kəndi, 1937-ci ildə anadan olub. **№ 120.**
94. Umudov Mürşüd Ərrəhman oğlu, Nursu kəndi, 1945-ci ildə anadan olub, mühasib. **№ 36, 84, 92, 119.**

## KITABIN IÇINDƏKILƏR


1. Ön söz (Isa Həbibbəyli) .................................. 3
2. Xalq yaddaşının izləri ..................................... 5
3. Miflər ........................................................ 10
4. Hal anası-al arvad ................................ ..... 19
5. Cinlər ........................................................ 23
6. Pirlər ........................................................ 27
7. Əfsanələr ..................................................... 33
8. Nağıllar ...................................................... 41
9. Ibrətamiz hekayətlər .................................... 72
10. Inamlar, yasaqlar .......................................... 79
11. Sınamalar, ovsunlar .................................... 81
12. Yozumlar, alqışlar ........................................ 84
13. Atalar sözləri ................................................ 85
14. Tapmacalar .................................................. 86
15. Bayatılar ..................................................... 87
16. Oxşama-əzizləmə ......................................... 104
17. Haxıştalar .................................................... 107
18. Mahnı ......................................................... 109
19. Düzgülər ...................................................... 110
20. Mərasimlər .................................................. 112
21. Gülməcələr.................................................... 117
22. Oyunlar ....................................................... 125
23. Xalq təbabəti .............................................. 127
24. Yer-yurd adlarımız ............................... ........ 129
25. Söyləyənlər haqqında məlumat ...................... 136